# MÖVZU 1. MÜASİR ELMLƏR SİSTEMİ VƏ PSİXOLOGİYA

**Müasir elmlər sistemi və psixologiya.** Müasir dövrdə psixologiya insan haqqında ən mühüm elmlərdən biri kimi diqqəti cəlb edir. Təsadüfü deyildir ki, hazırda insan həyatı və fəaliyyətinin elə bir sahəsi yoxdur ki, psixologiya elmi oraya nüfuz etməsin. Hazırki dövrdə bütün dünyada hər cür fəaliyyətin və insan munasibətlərinin səmərəliliyini psixoloji biliklərin tətbiqində görürlər. Lakin nəzərə almaq lazımdır ki, mühüm elm sahəsi olan psixologiya başqa elmlərdən təcrid olunmuş şəkildə deyil, onlarla vəhdətdə mövcuddur və fəaliyyət göstərir. Elmlər sisteminin təsnifatını verən B.M.Kedrov bu sistemdə psixologiyanın roluna xüsusi diqqət yetirmişdir. B.M.Kedrova görə psixologiya bir tərəfdən fəlsəfə elmləri, digər tərəfdən təbiət elmləri, üçüncü tərəfdən humanitar elmlər içərisində aralıq mövqe tutur.

Psixologiya bu elmlərin məlumatlarını özündə birləşdirir və eyni zamanda onlara təsir etməklə insan haqqında elmlərin modelinə çevrilir. İnsan psixikası və davranışını onun təbii və sosial mövcudluğu haqqında biliklər olmadan başa düşmək mümkün deyildir. Ona görə də psixologiyanın öyrənilməsi insan biologiyası, onun ali sinir sisteminin quruluşu və fəaliyyəti haqqında biliklərə yiyələnməyi tələb edir. Psixi hadisələr və mərkəzi sinir sisteminin fəaliyyəti arasındakı əlaqə haqqında biliklər ali sinir fəaliyyətinin fiziologiyasında öz konkret əksini tapmışdır. Təsadüfü deyildir ki, psixologiyanın təbii elmi əsaslarından danışarkən məhz ali sinir fəaliyyətinin qanunularına istinad edilir.Psixologiya cəmiyyətin tarixi və mədəniyyəti ilə sıx bağlıdır. Belə ki, insanda ali psixi funksiyaların inkişafında sivilizasiyanın əsas tarixi nailiyyəti olan əmək alətləri və işarə sistemi həlledici rol oynamışdır.

İnsan psixikasının dərindən öyrənilməsinə, onun başa düşülməsinə ***sosiologiyanın əsasları*** haqqında biliklər də imkan yaradır. Bunu sosial psixologiyanın sürətlə inkişafı bir daha təsdiq edir. Müasir dövrdə sosial psixologiya insan münasibətlərinin bütün sahələrinə nüfuz etməklə insanın sosial-bələdləşmə davranışının psixi xassələrə necə yiyələnməsini aydınlaşdırmağa imkan verir.

Psixologiya ***fəlsəfə*** elmi ilə ciddi qohumluq əlaqəsinə malikdir. Bu təsadüfü deyildir. Məlum olduğu kimi psixologiya müstəqil bir elm kimi fəaliyyət göstərənə kimi fəlsəfənin daxilində formalaşmağa başlamışdır. Şübhəsiz şəxsiyyətin psixoloji «ölçülərini» insan, onun spesifik həyat şəraiti, gerçəkliyi dərk etməsi və fəaliyyət haqqında fəlsəfi biliklərə istinad etmədən müəyyənləşdirmək və öyrənmək mümkün olmazdı.Şüur, təfəkkür və digər psixi hadisələr insanlara anadangəlmə, hazır şəkildə verilmir. Bunlar ontogenezdə (fərdi inkişaf prosesində) insanın təlim və tərbiyəsi prosesində əldə edilir.

Buradan isə psixologiyanın ***pedaqogika*** elmi ilə əlaqəyə malik olduğu özünü göstərir. Psixologiya və pedaqogika elmləri arasında başlıca əlaqə həmin elmlərin predmetlərinin yaxınlığı ilə bağlıdır. Əvvala həmin elmlərin obyekti inkişaf etməkdə olan insandır (uşaq və yaşlı). Digər tərəfdən, psixologiya insan psixikasının inkişaf qanunlarını öyrənir. Pedaqogika isə şəxsiyyətin inkişafının idarə olunması qanunlarını işləyib hazırlayır. İnsanın tərbiyəsi, təhsili təlimi onun psixikasının, təfəkkürünün, fəaliyyətinin məqsədəyönəlmiş şəkildə inkişaf etdirilməsi deməkdir. Psixologiya və pedaqogika elmlərinin mühüm qarşılıqlı əlaqəsini göstərən amillərdən biri də onların tədqiqat üsullarındakı eyniyyətdir. Bir çox elmi psixoloji axtarışlar pedaqoji problemlərin həlli üçün vasitə rolunu oynaya bilir. Bir elmi fənn kimi pedaqogikada pedaqoji faktların izahı, şərhi, sistemləşdirilməsi üçün psixoloji biliklərdən istifadə

olunur. Pedaqoji fəaliyyətin nəticələri psixoloji diaqnostikanın köməyi ilə aşkara çıxarılır.Bunlarla yanaşı olaraq müasir psixologiya elmi öz qarşısında duran ümumi və xüsusi vəzifələri həyata keçirərkən pedaqogika ilə yaxın təmasda fəaliyyət göstərir, pedaqogika elminin əldə etdiyi nəticələrə istinad edir.

Müasir dövrdə ***psixologiya və dilçilik*** arasında da sıx əlaqə özünə geniş yer tutmağa başlamışdır. Bunun aydın təzahürünü ***psixolinqvistikanın*** meydana gəlməsində görürük. ***Psixolinqvistika*** nitq davranışını psixoloq və linqvistlərin kompleks şəkildə öyrənmələrini nəzərdə tutan elm sahəsidir. Linqvistika və nitqin psixologiyası ilə müqayisədə psixolinqvistika özünün müstəqil tədqiqat predmetinə malikdir. Psixolinqvistikanı daha çox psixologiya «özününkü» hesab edir. Doğrudur, psixologiyada hələ çoxdan mövcud olan sahə - nitqin psixologiyası sahəsi vardır. Nitq psixologiyasınıın predmeti psixolinqvistikanın obyekti və predmeti ilə üst-üstə düşür. Ona görə də çox vaxt bu iki fənni bir-biri ilə qarışdırırlar. Bu cür eyniləşdirməyə əsas olsa da, hər-halda bu iki termini bir-birindən fərqləndirən cəhətlər də mövcuddur. Onların fərqi başlıca olaraq öyrənmə predmetində özünü göstərir. Psixologiya nitqin yaranması, anlaşılması və formalaşmasının gedişi zamanı öz diqqətini daha çox şüurun psixi funksiyalarının xüsusiyyətlərinə yönəldirsə, psixolinqvistika bunlarla yanaşı bu funksiyaların insanların nitq fəaliyyətində və nitq davranışında ifadə vasitələrini (verbal və qeyri-verbal) də nəzərə almağa çalışır.Psixolinqvistika olduqca gənc elmdir. O, təxminən XX əsr 50-ci illərin sonu, 60-cı illərin əvvəllərində meydana gəlmişdir. Sovet psixolinqvistika məktəbinin banisi A.A.Leontyev olmuşdur.Elm sahəsinin genişlənməsi sayəsində psixolinqvistikanın müxtəlif sahələri meydana gəlmişdir. Bunlardan ümumi psixolinqvistika, xüsusi psixolinqvistika, sosial psixolinqvistika, yaş psixolinqvistikasını (ontolinqvistika) göstərmək olar.

**Psixologiya elminin əsas sahələri**. Psixologiya çoxsahəli bir elmdir. Müasir dövrdə psixologiya elminin nisbətən müstəqil şəkildə inkişaf edən müxtəlif sahələri vardır. Məhz buna görə də «psixologiya elmi» deyil «psixologiya elmləri» termininin işlədilməsi daha çox yerinə düşərdi. Belə ki, hər 4-5 ildən bir psixologiya elminin yeni bir sahəsinin yaranmasının şahidi oluruq.

Psixologiyanın çoxsaylı sahələrini təsnif etmək üçün müxtəlif prinsiplərdən istifadə olunur. Hər şeydən əvvəl psixoloji fənnləri fundamental və tətbiqi, ümumi və xüsusi olmaqla təsnif etmək mümkündür.Psixologiya elminin fundamental və ya baza sahələri psixologiyanı və insanların davranışını kimliyindən və hansı fəaliyyət sahəsində çalışmasından asılı olmayaraq hamının başa düşəcəyi şəkildə şərh etməyə yönəldilmiş sahələrdir. Psixologiyanın bu sahələri psixologiya və insan davranışı ilə maraqlanan adamların hamısı üçün eyni zəruri məlumatları çatdırır. Bu cür universallığından asılı olaraq psixologiyanın həmin sahəsi «ümumi psixologiya» adı altında işlədilir.Psixologiyanın tətbiqi sahələrinə gəldikdə buraya onun bilavasitə təcrübəyə tətbiq olunan sahələrini aid edirlər.Psixologiyanın ümumi sahələri istisnasız olaraq bütün elmi istiqamətlər üçün eyni dərəcədə əhəmiyyətli inkişaf problemlərini qarşısına qoyur və həll edir. Psixologiyanın xüsusi sahələrinə gəldikdə o, öz qarşısına hər hansı bir və ya bir neçə qrup hadisələri öyrənmək məqsədini qoyur.Müasir psixoloji fənnləri təsnif etmək üçün mövcud ədəbiyyatda aşağıdakı üç prinsipdən də istifadə olunur:

- Konkret fəaliyyət sahələrinə görə;
- İnkişafın psixoloji aspektlərinə görə;
- İnsanın cəmiyyətə münasibətinə görə.

Həmin sahələrin hamısını əhatə etmək mümkün olmadığına görə burada onlardan bilavasitə təhsillə bağlı olanların bəzilərini qısaca nəzərdən keçirək.

Psixologiya elminin ən fundamental sahəsini ümumi psixologiya təşkil edir. ***Ümumi psixologiya*** fundamental psixoloji bilikləri özündə cəmləşdirir. Ümumi psixologiyanın maraqlandığı və həll etməli olduğu qlobal məsələlər, cavab verməli olduğu suallar aşağıdakılardan ibarətdir: Psixika nədir? Onun strukturu və funksiyaları nədən ibarətdir? Psixika filogenezdə və ontogenezdə hansı qanunauyğunluqlara malikdir? Psixikanın hansı inkişaf səviyyələri vardır və onları hansı kriteriyalara əsasən müəyyənləşdirmək olar? Psixika və beyin arasında hansı əlaqə vardır? Psixi inkişafda anadangəlmə və həyatda qazanılan bioloji və sosial amillərin rolu nədən ibarətdir? Psixikanın normal və anomal inkişafını fərqləndirən kriteriyalar hansılardır? Bütövlükdə psixikaya aid problemləri öyrənməklə yanaşı ümumi psixologiya psixi proseslər, psixi hallar və xassələrlə bağlı konkret məsələlərin öyrənilməsi ilə də məşgul olur. Psixologiyanın maraqlandığı əsas obyekt insan olduğuna görə ümumi psixologiya birinci növbədə onun (insanın) şəxsiyyəti, fəaliyyəti, ünsiyyəti idrak prosesləri ilə, münasibətlər sistemi (hissləri) və iradi fəaliyyəti, iradi tənzimi ilə baglı məsələlərin araşdırılmasına diqqət yetirir, onları həm nəzəri, nəm də eksperimental planda öyrənir. Deyilənlərdən aydın olur ki, ümumi psixologiya psixi hadisələr haqqında hamı üçün eyni dərəcədə maraq doguran ümumiləşmiş bilikləri özündə əks etdirir. Həmin biliklərlə tanış olmaqla hər bir insan psixologiyanın ümumi sirlərinə yiyələnə bilər.Psixologiyanın təhsil, təlim və tərbiyə ilə sıx bagli olan xüsusi sahələrindən bəzilərinə nəzər yetirək.

Psixologiyanın konkret fəaliyyətlə bagli olan və yüksək praktik əhəmiyyət daşıyan mühüm xüsusi sahələrindən biri ***pedoqoji psixologiyadır***. Pedaqoji psixologiya təlim, tərbiyə və pedaqoji fəaliyyətin psixoloji problemlərini araşdırır.Pedaqoji psixologiyanın həll etməli olduğu ən mühüm problemlər uşaqların həyatının hər bir senzitiv dövrünü aşkara çıxarmaq və həmin dövrdə onların inkişafı üçün lazım olan bütün imkanları müəyyənləşdirməkdən, təlim və inkişafın qarşılıqlı əlaqəsini aşkara çıxarmaqdan, təlim və tərbiyənin ümumi və yaşla bağlı olan cəhətlərini, əlaqəsini aşkara çıxarmaqdan, təlim və tərbiyənin səmərəliliyini təmin edən psixoloji qanunauyğunluqları araşdırmaqdan və s. ibarətdir.

Psixologiya elminin pedaqoji psixologiya ilə sıx bagli olan digər mühüm bir sahəsi ***yaş psixologiyasıdır***. Yaş psixologiyası insanda anadan olandan ömrünün axırına qədər psixi inkişafın dinamikasını, qanunauyğunluqlarını, şəxsiyyətin psixi prosesləri və xassələrinin ontogenezdə inkişaf xüsusiyyətlərini öyrənir. Yaş psixologiyasının uşaq psixologiyası, yeniyetmələrin psixologiyası, gənclərin psixologiyası, yetgin yaşın psixologiyası, qocalıq yaşının psixologiyası, uzunömürlülük psixologiyası (herontopsixologiya) kimi bölmələri vardır.

Psixologiyanın xüsusi sahələrindən birini də ***differensial*** psixologiya təşkil edir. Diferensial psixologiya – psixologiya elminin insanların fərdi – psixoloji və davranış fərqlərini öyrənən, şərh və izah edən sahəsidir. «Diferensial psixologiya» termini ilk dəfə 1900-cü ildə V.Ştern tərəfindən irəli sürülmüşdür. Diferensial psixologiyanın əsas metodu testlər olmuşdur. İlk dövrlər bu testlər fərdi testlər olmuş, sonra qrup testləri meydana gəlmiş daha sonra isə proyektiv testlər yaranmış və onlardan istifadə olunmuşdur.

Psixologiyanın xüsusi sahələrinə ***genetik psixologiyanı*** da aid etmək olar. Genetik psixologiya psixika və davranışın irsən keçən mexanizmini, onların genotipdən

asılılığını öyrənir. Yaş psixologiyası, differensial və genetik psixologiya birlikdə uşağın psixi inkişafının qanunlarını başa düşmək üçün elmi əsas təşkil edir.
Müasir dövrdə psixologiyanın diqqəti daha çox cəlb edən sahələrindən biri ***sosial psixologiyadır***. Sosial psixologiya birgə fəaliyyət və ünsiyyət prosesində müəyyən sosial qrupda şəxsiyyətlərarası münasibətlər sistemini, həmin münasibətlər sisteminin bütünlüklə qrupun, eləcə də ayrı-ayrı fərdin psixologiyasındakı inikasını öyrənən elm sahəsidir. Bu cür biliklər tərbiyənin psixoloji cəhətdən düzgün təşkili üçün zəruridir.
Pixologiyanın mühüm sahələrindən biri olan ***hüquq psixologiyası*** insan tərəfindən hüquq normaları və davranış qaydalarının öyrənilməsini nəzərdən keçirir, hüquq sisteminin reallaşması ilə bağlı olan psixoloji məsələləri aydınlaşdırır. Onun məhkəmə psixologiyası, kriminal psixologiya, islah-əmək psixologiyası və s. bölmələri vardır.
Müasir psixologiyanın özünə xüsusi yer tutmuş sahələrindən biri kimi ***tibb psixologiyasını*** qeyd etmək olar.Tibb psixologiyası həkimin fəaliyyətinin və xəstənin davranışının, onun gigiyena, profilaktika, diaqnostika, müalicə, ekspertiza və reablitasiyasının psixoloji aspektlərini öyrənir. Tibb psixologiyası özünə klinik psixologiya, patopsixologiya, neyropsixologiya, somatopsixologiya, ümumi tibb psixologiyası, psixiatriya, psixoprofilaktika və psixogigiyena, psixokorreksiya və s. bölmələrini daxil edir. Patopsixologiya, eləcə də psixoterapiya, psixikasında və davranışında qüsurlar olan adamlarla işin aparılmasına xidmət edir. Psixologiyanın bu sahələrinin başlıca vəzifəsi mövcud psixi pozğunluğun səbəblərini və onu aradan qaldırmaq yollarını öyrənir. Müasir psixologiya elminin yeni sahələrindən biri olan psixodiaqnostikaya gəldikdə, o, insanların psixi xassə , prosesi və hələtlərinin inkişaf xüsusiyyətləri haqqında elmi cəhətdən yoxlanmış və onlar haqqında əsaslı məlumat əldə etməyə imkan verən metodların köməyi ilə qiymətləndirilməsinin nəzəriyyəsi və praktikası ilə məşğul olur.Yekunda qeyd etmək lazımdır ki, biz burada müasir psixologiya elminin yalnız bir qismi ilə qısaca tanış olduq. Psixologiya elminin idman psixologiyası, əmək psixologiyası, incəsənət psixologiyası, kosmik psixologiya, menecment psixologiyası, eksperimental psixologiya, etnik psixologiya və s. sahələrinin də özünəməxsus predmeti və vəzifələri vardır. Şübhəsiz onların hamısı barədə burada geniş məlumat vermək vəsaitin imkanlarından kənardır.
Konfliktlər psixologiyası da ümumi psixologiyanın xüsusi sahələrindən biri də ***tədris edəcəyimiz konfliktlər psixologiyasıdır*** ki, tədris prosesində bu sahənin tənzimlədiyi problemlərə xüsusi diqqət yetiriləcəkdir.

**Psixologiyanın sahələri**

- Klinik psixologiya (ing. Clinical psychology)
- Sosial psixologiya (ing. Social psychology)
- Təcrübi psixologiya (ing. Experimental psychology)
- Fizioloji psixologiya (ing. Physiological psychology)
- İnkişaf psixologiyası (ing. developmental psychology)
- Sənaye və Təşkilat psixologiyası (ing. Industrial & Organizational psychology, aka IO psychology)
- Təhsil psixologiyası (ing. Educational psychology)

## MÖVZU 2.PSİXOLOGİYADA KONFLİKT (MÜNAQİŞƏ) ANLAYIŞI.

## MÜNAQİŞƏ NƏDİR?

Münaqişə anlayışını ağlımıza gətirdikdə ilk növbədə bu bizdə xoş olmayan təəssüratlar yaradır:təhlükə, düşmənçilik, anlaşılmazlıq, cəhd, ümidsizlik, haqlılığı sübuta yetirmə, nifaq və s. hisslər. Bunun nəticəsində belə bir fikir yaranmışdır ki, münaqişə – hər zaman neqativdir. Hər birimiz üçün, xüsusilə rəhbərlər üçün, menecerlər üçün konflikt arzuolunmaz haldır, çünki onlar konfliktlərlə daha tez-tez qarşılaşırlar. Münaqişələr adətən qaçılmalı olan situasiyalar kimi dəyərləndirilir. İstənilən konfliktin mərkəzində hər hansı bir səbəbdən tərəflərin əks mövqeləri və yaxud mövcud şəraitdə əks vasitə və məqsədə çatma yolları, və ya maraqların, istəklərin, üst-üstə gəlməməsi dayanır.
**Konflikt(münaqişə) -** (latın dilində *conflictus*-toqquşma)-rəqiblərin və ya fəaliyyət subyektlərinin bir birinə əks olan məqsədlərinin, maraqlarının, mövqelərinin, fikirlərinin, baxışlarının toqquşmasıdır. Konfliktlər gizli və aşkar ola bilər ki, onların əsasında hər zaman razılaşmanın olmamağı durur. Buna görə də münaqişəni iki və daha artıq insan, tərəf və ya sosial qrup arasında razılığın olmaması kimi müəyyən edə bilərik. Müşahidələr göstərir ki, münaqişələrin 80 %-dən çoxu onun iştirakçılarının istəyi olmadan yaranır. Bütün bunlar insan psixikasının xüsusiyyətlərindən irəli gəlir, beləliklə də əksər insanlar ya bunlardan xəbərsizdir ya buna əhəmiyyət vermirlər.
***Münaqişə - rəqibin neytrallaşdırılması, ona zərbə endirilməsi və onun məhv edilməsini qarşıya məqsəd qoyan konflikt vəziyyətinin açıq toqquşmaya səbəb olacaq dərəcədə genişlənməsi, sərvət uğrunda və ya konkret status uğrunda mübarizədir.***
Çin sosial-psixoloji məktəbinin yaradıcılarından olan Park münaqişəni sosial fəaliyyətin 4 əsas növündən biri hesab edirdi. Bunlar rəqabət, uyğunlaşma, assimilyasiya (dəyişmə) və münaqişədir. Onun fikrincə **rəqabət** mübarizənin sosial forması olaraq sağ qalmaqdan ötrüdür və sonralar o konfliktə çevrilir, beləliklə də assimilyasiyanın köməyilə möhkəm qarşılıqlı münasibətlərə gətirib çıxara bilir ki, bu da əməkdaşlığın köməyilə uyğunlaşmaya çevrilir.
Amerikan sosioloqu Kozer münaqişəni ideoloji varlıq kimi insanların və sosial qrupun obyektiv məqsədlərə çatmaq üçün hisslərinin və niyyətlərinin əksi kimi qiymətləndirir. Bu obyektiv məqsədlər: hakimiyyət, statusun dəyişdirilməsi, gəlirlərin yenidən bölüşdürülməsi, vəsaitlərin yenidən qiymətləndirilməsi və s.dir. Münaqişənin dəyəri ondadır ki, onlar sistemin inkişafdan qalmasının qarşısını **alır innovasiyalara** yol açırlar. Münaqişələr şübhəsiz olaraq sosial fəaliyyət kimi parlaq neqativ effekt verə bilər. Lakin o vacib pozitiv funksiyanı həyata keçirir. Münaqişə qane olmamaq hissinin və yaxud etirazın nümayiş etdirilməsi, münaqişə edən tərəflərin onların maraq və tələbləri barədə məlumatlandırılmasına xidmət edir. Müəyyən situasiyalarda insanlar arasında olan neqativ münasibətlər tənzim edilə bilirsə və tərəflərdən biri yalnız şəxsi maraqlarını yox eləcə də təşkilatın ümumi maraqlarını müdafiə edirsə, konfliktlər ətrafdakılara da təsir göstərir, prinsipial cəhətdən vacib ola məsələləri həll etməyə, kollektivdə mənəvi- psixoloji mühiti düzəltməyə imkan verir. Bundan əlavə elə situasiyalar olur ki, kollektiv üzvləri arasında toqquşma, açıq və prinsipial mübahisə arzuolunandır. Ən yaxşısı işçiyə reaksiya verməmək, münasibətləri korlamaqdan ehtiyat etmək əvəzinə vaxtında xəbərdar etmək, məzəmmət etmək və kolleqanın düzgun olmayan hərəkətinə imkan verməməkdir.
**Veberin** də qeyd etdiyi kimi "münaqişə təmizləyicidir". Belə konflikt sosial-psixoloji prosesə onun strukturuna və dinamikasına, nəticəliliyinə, şəxsiyyətin mükəmməlləşməsinə, inkişafına müsbət təsir göstərir və onları məhsuldar münaqişələr adlandırırlar.

Münaqişələr demək olar ki, insan həyatının bütün sferalarında yaranır. Biz isə əsasən təşkilatda yaranan və davam edən konfliktlərin üzərində dayanacağıq. Münaqişə nədir? Münaqişənin müxtəlif cür açıqlaması və tərifləri mövcuddur, lakin onların hamısı ziddiyyəti özündə birləşdirir. Bu ziddiyyət özündə insanların qarşılıqlı fəaliyyəti nəticəsində yaranan narazıçılığı ifadə edir.
Konfliktlərin yaranmasında əsas rolu **konfliktogenlər** oynayır. Konfliktogenlər konfliktin yaranmasına və inkişafına təsir göstərən hərəkət və ya hərəkətsizliksizliklərdir ki, mübahisəsiz olaraq konfliktin yaranmasına yol açırlar. Konfliktogenin mahiyyəti ondadır ki, biz başqalarının sözlərinə daha həssas yanaşırıq nəinki öz fikirlərimizə. Hətta belə bir aforizm də vardır ki, "İnsanlar özlərinin dedikləri sözlərə çox fikir verməsələrdə, öz eşitdiklərinə daha çox məna yükləyirlər". Bizim eşidilən sözlərə bu qədər əhəmiyyət verməyimizin səbəbi özümüzü təhlükələrdən müdafiə etmək istəyimizdir. Beləliklə də insanlar ətrafdakı sözlərə fikir verərkən öz sözlərinə də bir o qədər əhəmiyyət vermirlər, bütün bunların nəticəsində insanlarla qarşılıqlı münasibətdə ətrafa çoxlu sayda konfliktogenlər saçmağa başlayırlar. Lakin "bir" konfliktogen öz-özlüyündə konflikt yaratmağa qadir deyidir, konfliktin yaranması üçün "konfliktogenlər zənciri" olmalıdır.

Razılığın olmaması müxtəlif cür fikirlərdən, baxışlardan, ideyalardan, maraqlardan, nəzər nöqtələrindən və s. səbəblərdən asılıdır. Lakin o yuxarıda qeyd etdiyimiz kimi heç də həmişə toqquşma və konfliktlə nəticələnmir. Bu yalnız mövcud ziddiyyətlərin, narazılıqların insanların normal qarşılıqlı münasibətlərini pozaraq qoyulmuş məqsədlərə çatmağa əngəl törətdiyi zaman meydan çıxır. Belə şəraitdə insanlar hər hansı yolla narazılığı aradan qaldırmağa və açıq konfliktə girməyə başlayırlar. Konflikt prosesində onun iştirakçıları müxtəlif fikirlər, qərar qəbulunda müxtəlif cür alternativlər irəli sürmək imkanı əldə edirlər. Konfliktin ən vacib pozitiv mənası da elə bu zaman meydana çıxır.

Qərb sosioloq və psixoloqları konflikti sosial inkişafın vacib faktoru hesab edirlər. İngilis filisofu və sosioloqi Q.Spenser (1820-1903) hesab edirdi ki, konflikt insan cəmiyyətində qaçılmaz məvhumdur və sosial inkişafın stimuludur. Konfliktlər çox vaxt aqressiya, hədə qorxu, mübahisə, düşmənçiliklə müşayət olunurlar.

Konfliktlərdən danışarkən onların obyektlərini və predmetlərinin qeyd etməyimiz vacibdir. Belə ki, hər bir konflikt daxili və xarici şəraitdən asılıdır və hər birinin çevrəsi kifayət qədər genişdir, dəyişkəndir və müfəssəl tamlıqla ifadə oluna bilməz.

Konfliktin predmeti dedikdə obyektiv şəkildə mövcud olan və ya təsəvvür edilən, tərəflər arasında münaqişəyə səbəb ola bilən problem nəzərdə tutulur. Hər iki tərəf bu problemin öz xeyrinə həll olunmasında maraqlıdır. Konfliktin predmeti subyektlərin münaqişəyə girdiyi və həllinə cəhd göstərdiyi ziddiyyətin özüdür. Bu vəzifə uğrunda mübarizə, bu və ya digər qiymətlilərə sahib olmaq istəyi, birinciliyə və bərabərliyə cəhd etmədir. (koqnitiv konfliktdə bunu diskussiya predmeti adlandırırlar). Münaqişənin həllolunma yollarını axtarılması onun predmetinin müəyyənləşdirilməsindən başlayır. Bir çox konfliktlər o qədər dolaşıq və çətin tarixçəyə malik olurlar ki, mütəxəssis arxeoloq kimi bir qatın ardınca digər qatı araşdırmağa məcbur olur. Problemlərin qat-qat yerləşdirilməsi münaqişənin predmetini tamamilə qarışıq edə bilər və dəqiq sərhədləri itirə bilər. Münaqişənin əsas predmeti onlarla "yaralı nöqtələrdən" ibarət ola bilər. Çoxlu səbəbi olan konfliktlərə ailədaxili və beynəlxalq konfliktləri misal göstərmək olar. Konliktin predmeti tərəflər arasında müzakirə mövzusudur. Belə hallarda danışıqlar o maraqların predmeti üzərində aparılır ki, tərəfləri danışıqlar aparmağa razı

salmışdır. Danışıqlar qaydalar üzrə, elmi diskussiya və bazar ticarəti üzrə aparılır. Bəzi tədqiqatçıların fikrincə, " əslində bütün konfliktlərdə söhbət iki və hətta bir konfliktdən gedir: resurslar və onların idarə edilməsi. Nüfuz bu nöqteyi nəzərdən ,- resursların idarə edilməsi variantı, mülkiyyət isə elə resursun özü deməkdir. Resursları maddi və mənəvi resurslara ayırmaq olar.(B.A.Yadov) Oxşar fikirlərdən danışarkən konfliktin obyektini tez-tez qeyd edirik. Bu anlayışın altında konkret mənəvi və ya maddi sərvət dayanır ki, tərəflər ona malik olmaq üçün konfliktə girirlər. Konfliktin obyektinə konkret olaraq şəxsiyyət, kütlə, ictimaiyyət, dövlətin maraqlarına tuş gələn maddi dünyadakı və sosial reallıqdakı bütün elementlər daxil ola bilər. Konfliktin obyekti olmaq üçün bu element onu təklikdə idarə etmək istəyən müxtəlif sosial subyektlərin maraqlarının kəsişmə nöqtəsində olmalıdır. Elə situasiyalara minlərlə misal gətirmək olar: maraqlı oyuncaq üçün dalaşan iki uşaqdan başlamış, geniş ərazilərin idarə edilməsi uğrunda mübarizə aparan iki dövlətə qədər. Konfliktin obyekti hər iki tərəfdən baxdıqda defisit resurs hesab olunur. Məsələn iki müavinin mübarizə apardığı 1 direktor ştatı. Həqiqətən də defisit resursun kompensasiyası mübahisəni həll edə bilər. Lakin resurs çatışmazlığı heç də həmişə konfliktin obyektinə çevrilmir. Bu obyekt sərvətin bu və ya digər qrupa aid olması problemi də ola bilər. Bəzi hallarda konfliktin görünən obyekti olmaya da bilər, buna yalançı konflikt deyilir.

Konfliktlərin çoxvariantlı tipologiyası mövcuddur ki, onlar da konfliktin əsasında duran kriteriyalardan asılıdırlar. Məsələn konfliktlər:

- **Mənşəyinə və yaranma səbəbinə görə:** obyektiv və subyektiv, təşkilati, emosional və sosial-əmək, işgüzar və şəxsi;
- **Kommunikativ istiqamətinə görə:** şaquli, üfüqi və qarışıq;
- **Konflikt edən tərəflərin tərkibinə görə**: şəxsiyyətdaxili (qohum olanlara simpatiyalar və rəhbər qarşısında borcluluq hissi), şəxsiyyətlərarası (rəhbərlə onun müavini arasındakı vəzifə, əməkdaşlar arasında mükafatlanma mövzusunda); şəxsiyyət və qrup arasında; qruplar arasında, təşkilatdaxili konflikt;
- **Funksional əhəmiyyətinə görə**: pozitiv və neqativ, konstruktiv və destruktiv, yaradıcı və dağıdıcı;
- **Toqquşmanın forma və dərəcəsinə görə**: açıq və gizli, ani, təşəbbüs edilmiş və süni sürətdə törədilmiş, qaçılmaz, vadar edilmiş, məqsədyönlü olmayan;
- **Miqyasına və müddətinə görə**: ümumi və lokal, qısamüddətli və uzadılmış, tez baş verən və uzunmüddətli;
- **Tənzimolunma formalarına görə**: antoqonist və kompromisə gedən, bütövlükdə və ya qismən həll edilə bilən, razılığa və əməkdaşlığa gətirilə bilən konfliklərə bölünürlər.

Münaqişələr həmçinin bipolyar yəni iki konflikt edən tərəf və multipolyar, 2-dən artıq konflikt edən tərəflərə bölünür.

Münaqişə ikimənalı konsepsiyadır və müxtəlif qrup və müxtəlif kontekstlərdə müxtəlif mənalara malik olur. Münaqişə mənfi fenomen kimi anlaşılır və zorakılıq ilə assosiasiya olunur, lakin zorakılıq və münaqişə sinonimlər deyildirlər. Zorakılıq münaqişənin ifadəsidir, bundan irəli gələrək, sosioloqlar münaqişənin əhəmiyyətini anlamaq üçün daha geniş və müsbət yanaşmanı seçirlər. Bu yanaşmaya əsasən, münaqişə təbii çoxölçülü fenomen kimi müzakirə edilir və həmin fenomen, bir qayda olaraq, cəmiyyətin daxilində baş verən dəyişikliyin göstəricisidir. Belə ki, münaqişə normal hadisə hesab edilir və cəmiyyətdə dəyişikliklər baş verdiyi zaman sosial və siyasi

həyatın legitim hissəsi olaraq qalır. Cəmiyyət ehtiyatlı olmalıdır ki, münaqişə zorakılığa çevrilməsin. Münaqişə o zaman baş verir ki, əgər iki və ya daha artıq tərəf (fərd və ya qrup) hesab etsin ki, onların maraqları, məqsədləri və ya ambisiyaları bir-birinə uyğun gəlmir, bu zaman onlar düşmən münasibətini ifadə edir və öz hərəkəti ilə digər tərəflərin maraqlarının qorunmasına maneçilik törədirlər. Əgər qoşulmuş tərəflər anlaşılmazlığı və ya münaqişəni sülh yolu ilə və konstruktiv şəkildə idarə edirlərsə, münaqişəni müsbət proses olaraq tanıyırlar. Əgər münaqişə destruktiv qüvvədən istifadə etmədən baş verirsə, o, sosial həyatın tərkib komponenti hesab edilir və cəmiyyətin müsbət inkişafına dəstək olur. Lakin, əgər tərəflər öz məqsədlərinə sülh yolu ilə nail olmağa çalışmır və zorakılığa əl atırlarsa, münaqişə zorakı olur. Bundan irəli gələrək, münaqişələrin prevensiyası münaqişələrin qarşısının alınması deyil, zorakı eskalasiyanın qarşısının alınmasıdır. Zorakı münaqişələr qaçılmaz proses deyil və bir gecədə inkişaf etmirlər. Münaqişə dinamik prosesdir, o, müxtəlif formada olur və eskalasiya və deeskalasiyanın müxtəlif mərhələlərini keçir, bunu da mürəkkəb kombinasiyalar və münaqişənin səbəbinin örtülməsi şərtləndirir. Münaqişə tərəflərdən biri status-kvonu dəyişdirən addımları atana qədər latent vəziyyətdə qala bilər. Bir çox hallarda tərəflər cəmiyyətə problemin mövcud olması barədə xəbər verəcək hadisə baş verənə kimi gözlənilən münaqişə barədə bilmirlər. Məsələn, torpaqda mineral resursu aşkar edənə kimi icmalar bir-birinin yanında xoşbəxt yaşaya və ümumi otlaqlardan istifadə edə bilərlər. Sonra gərginlik tədricən artır. Münaqişə bütün sosial səviyyələrdə yarana bilər. Bu ailə səviyyəsində (valideyn, nikah, bacı-qardaş, uşaqların qəyyumluğu və ailə zorakılığı), rayonlarda, bələdiyyə səviyyəsində, siyasi partiyalar arasında (məsələlər, proqram və manifestlər səbəbindən), qruplar arasında ölkə daxilində və onun hüdudlarından kənarda ola bilər. Beləliklə, münaqişə münasibətlər zamanı yaranır və aydındır ki, bu münasibətlərin xarakteri münaqişənin növünün formalaşmasına əhəmiyyətli təsir göstərir. Əgər tərəflər uzunmüddətli antaqonist və düşmənçilik tarixinə malikdirlərsə, qarşıdurma olmadan ikitərəfli qənaətbəxş nəticələrə nail olmaq perspektivləri azalır. Əgər tərəflər mübahisəli məsələlərin konstruktiv şəkildə həll etmə tarixinə malikdirlərsə, o zaman münaqişəni sülh yolu ilə həll etməyin mümkünlüyü artır. Tərəflərin inamı və mülahizələri münaqişənin gedişatı zamanı əhəmiyyətli rol oynayırlar. O, fakt ki, tərəf hər hansı bir halı həqiqət hesab edir, bu inamın doğrudan da ədalətli olub-olmaması kimi eyni dərəcədə əhəmiyyətlidir. Məsələn, bir qrup “babalardan qalan torpağa” iddia bildirdiyi, digəri isə həmin iddiaları tanımadığı zaman münaqişə ehtimal olunur. Tərəflər məqsədyönlü şəkildə onlar üçün əlçatan olan gücü səfərbər etdiyi zaman münaqişə qaçılmazdır. Bu hökumətlər tərəfindən silahlı qüvvələrdən və üsyançılardan istifadə edilməsi, tətillər, həmkarlar ittifaqları və korporasiyaların bloklaşdırılması, məhbusların aclığı və marqinalizasiya olunmuş vətəndaşların nümayişləri ola bilər. Həmçinin tərəflər maliyyə imkanlarından istifadə edə və ictimai fikri dəyişdirmək məqsədilə reklamı satın ala bilərlər. Strateji baxımdan sosial şəbəkələrdən və mediadan istifadə edə, kollektiv hərəkətlərə - istehlakçıların boykotu, oturaq aksiyalara əl ata bilər – dəstəyi əldə edə bilərlər. Doğrudur, münaqişələr bir çox hallarda zorakılığa gətirib çıxarırlar, lakin aydındır ki, qarşıdurma mütləq hal deyildir. Jurnalistlər anlamalıdırlar ki, münaqişə özündə yalnız qarşıdurmanı – qaliblər və məğlub edilənləri əhatə etmir, münaqişə sülh yolu ilə, tərəflər üçün qəbuledilən nəticələr ilə başa çata bilər. Jurnalistlər eləcə də nəzərə almalıdırlar ki, münaqişənin iştirakçı tərəfləri bəzən dərk etmirlər ki, eskalasiya elə bir səviyyəyə çata bilər

**MÜNAQİŞƏ VƏ ZORAKILIQ ARASINDAKI FƏRQ NƏDƏN İBARƏTDİR?**

İki qarşı duran tərəf arasında münaqişə səhvən zorakılıq hesab edilir. Zorakılıq və münaqişə sinonimlər deyildirlər. Zorakılıq münaqişənin ifadəsidir və qəsdən, digər tərəfi zədələmək məqsədilə, müəyyən hərəkətləri törədən bir partiyanı (ayrıca şəxsi və ya qrupu) əhatə edir. Zorakılıq zamanı fiziki gücün tətbiq edilməsi mütləq deyildir. Cəmiyyətə böyük ziyan vuran digər növ zorakılıq da mövcuddur, məsələn, qaçqınlar üçün qidanın və ya digər maddi malın çatdırılmasının dayandırılması. Eləcə də xalqın özünüeyniləşdirməsinin əsasını sarsıdan istənilən hərəkət – insan hüquqlarına xələl yetirilməsi və ya mülki və ya siyasi hüquqların məhdudlaşdırılması zorakılıq hesab edilir. Bu baxımdan, şifahi təhqir və nifrət dili həmçinin zorakı hərəkət kimi müzakirə edilməlidir, çünki hücumçuların məqsədi başqa şəxsə ziyanın vurulmasıdır. Bununla belə, aşkar şəkildə ifadə edilmiş zorakılıqdan başqa cəmiyyətdə bir çox digər növ zorakılıq mövcuddur. Reportyorlar üçün onları görmək və izah etmək daha çətindir. Gizli zorakılığın işıqlandırılması olduqca əhəmiyyətlidir, əgər onu cilovlamaq üçün addımlar başlanğıcında atılmamışdırsa, bu cür zorakılıq aşkar zorakılığa çevrilmək potensialına malikdir. Bu cür zorakılığın misalları aşağıdakılardır:

**Mədəni zorakılıq** bir sosial qrupun digər sosial qrupu necə dərk etdiyinə əsasən yaranır. O, fiziki zorakılığı gücləndirən və müxtəlif forma alan danışıq üslubunu, fotoları və ya fikirləri əhatə edə bilər:

**Nifrət dili:** etnik və mədəni qruplar açıq şəkildə, nifrət dili ilə bir-biri barədə danışırlar. Bir qrup digər qrupu onu narahat edən çətinlik və ya problemlərin yaranmasında günahlandırır. Günahlandırılan qrupu məhv etmək üçün tez-tez zorakılıq həvəsləndirir.

− **Ksenofobiya**: hər hansı ölkənin nifrəti və ya qorxusu həmin ölkə barədə səhv təsəvvürlər yaradır və nəticədə həmin ölkə ilə münaqişəyə səbəb olan siyasətə dəstək olur.

− **Müharibə qəhrəmanları barədə əsatir və əfsanələr**: cəmiyyət, hansının məşhur mahnıları və tarixi kitabları bir qrupun keçmiş qələbələrini ideallaşdırır, digər qrupda nifrəti alovlandırır.

− **Müharibənin dini bəraəti**: başqaların fikirlərinin artıq dərəcədə dözümsüzlüyü münaqişəyə şərait yaradır.

− **Gender ayrı-seçkiliyi**: kişilərə qarşı tətbiq edilməyən qanunların və təcrübənin qadınlara qarşı tətbiq edilməsi zorakılıq formalarından biridir. Strukturlu zorakılıq bəladır. O, qrupun və ya cəmiyyətin ənənəvi davranışı və qanunlarına əsaslanır. Cəmiyyət bu bəlaya yol verir və ya gözardı edir.

− **İnstitusional irqçilik və ya seksizm**: irq və cinsə görə fərqləndirmək və qeyri-bərabər davranmaq imkanını verən qanunlar və təcrübə.

− **Kolonializm:** ölkənin özünümüəyyən etmək imkanının mövcud olmaması. Xarici ölkənin hakimiyyəti məcburi olaraq əhəmiyyətli qərarların qəbul edilmə proseslərinə nəzarət edir.

− **İfrat dərəcədə istismar**: köləlik. − Yoxsulluq: dünyada münaqişənin ən çox yayılmış səbəbi.

− **Korrupsiya və nepotizm**: hökumətin qərarlarına rüşvətxorluq, favoritizm, ailə və ya tayfa əlaqələri təsir göstərirlər.

− **Strukturlu seqreqasiya**: xalqı öz istəyinə qarşı olaraq ayrıca qruplar şəklində yaşamağa məcbur edən qanunlar. Bu növ zorakılığın eyniləşdirilməsi münaqişənin işıqlandırılması və təhlili zamanı olduqca əhəmiyyətlidir. Bir çox hallarda məhz bu növ zorakılıq birbaşa fiziki qarşıdurmanın real səbəbi olur. Nəzərə almalıyıq ki, əgər mədəni

və strukturlu zorakılıq gözardı edilirsə, fiziki zorakılığın dayandırılması kifayət deyildir, çünki o, bir daha təkrarlana bilər.

**Münaqişənin xarakteri və tərkib hissələrinin təhlili dörd əsas elementdən ibarətdir**:

1. **Münaqişənin amilləri**: artıq qeyd etdiyimiz kimi, münaqişə çoxaspektli səbəb və amillərə əsaslanır. Müxtəlif növ səbəblər bir-birini örtür və qarşılıqlı əlaqədədir. Bizi zorakı münaqişəyə aparan ayrıca duran hər hansı bir amil mövcud deyildir. Səbəb və amillər sistemli (strukturlu), proksimal (imkan verən), birbaşa (səbəb olan) ola bilərlər. Münaqişə zonasında daxili və xarici amillər təsir göstərir.

- Sistemli səbəblər: strukturlu vəziyyət: sistemli determinantlar tərəflərin maddi vəziyyətinin obyektiv dəyişikliklərinə səbəb olur; mühitin pisləşməsi, əhalinin artması, resursların azlığı və rəqabət, kolonial və ya soyuq müharibənin irsi, dəyər və ənənələrin məhv edilməsi, yoxsulluq və etnik mənsubiyyət münaqişənin sistemli səbəblərinin misallarıdır. Münaqişənin sistemli səbəbləri geniş yayılmışdır və böyük sayda insanlara aiddir. Sistemli səbəblər tədricən münaqişənin yaranma imkanına təsir göstərir. Beynəlxalq proqramlar və ya hökumətin siyasəti, hansının məqsədi sistemli səbəblər üzərində işləməsi yolu ilə münaqişələrin qarşısının alınması və ya onların azaldılmasıdır, nəticələri uzunmüddətli perspektivdə verir.
- Proksimal səbəblər: siyasi və institusional amillər. Proksimal mənbələr sosial, siyasi, kommunikasiya prosesləri və institutları daxilində mövcud olan problemdir və onlar ümumi vəziyyətin insanların həyatı və davranışına təsirini gücləndirir. Proksimal amillər sistemli şərtlərin zorakı reaksiyalara səbəb olub-olmayacağını və ya münaqişənin iştirakçısı olan tərəflərin münaqişənin həll edilməsinin daha çox sülh yollarını tapıb-tapa bilməyəcəklərini müəyyən edir. Proksimal determinantlar və zorakı münaqişə arasında əlaqə asanlıqla müəyyən edilir. Hakimiyyətin siyasəti, sosial təşkilatlar, iqtisadi islahat proqramları, siyasi liberalizasiya problemləri, militarizasiya və xarici hərbi yardım – bütün bunlar münaqişənin proksimal mənbəyi ola bilər.
- Birbaşa səbəblər: ayrıca əsas hərəkət və hadisələrdə zorakı münaqişənin bilavasitə və birbaşa səbəbləri, və ya onları gözləyərkən axtarmalıyıq. Məsələn, hökumət üsyanı planlaşdıran məzlumlar qrupuna hücum edir. Bu amillər aşkardır və onların təsirini asan müəyyən etmək olar.
- Xarici və daxili amillər: münaqişənin səbəbinin mənbəyi daha bir vacib ölçüdür, bu da münaqişədən sülh yolu ilə başa çatmasına qədər – ölkənin mövqelərinin bütün spektrinə təsir göstərir. Daxili və regional amillər, üçüncü tərəfin eqzogen amilləri kimi, gərginliyi azaltmaq məqsədilə zorakı yanaşmaların aradan qaldırılmasına şərait yaradır. Münaqişənin daxili və xarici determinantları sistemli, proksimal və birbaşa ola bilərlər.

2. **Münaqişənin iştirakçıları**: münaqişəyə qoşulmuş və ya münaqişə nəticəsində zərərçəkmiş bütün şəxslərə aiddir. Bunlar aşağıdakılardır: münaqişədə iştirak edən şəxslər, qruplar və institusiyalar, hansılara münaqişə müsbət və ya mənfi təsir göstərmişdir, eləcə də münaqişənin həll edilməsinə qoşulmuş şəxslər. Münaqişənin aşkar və gizli iştirakçılarını eyniləşdirmək bacarığı münaqişənin reportyoru üçün əhəmiyyətlidir, çünki münaqişə iştirakçılarının eyniləşdirilməsi aşağıdakıları müəyyən etməkdə kömək edir:

− İştirakçılar tərəfindən bildirilmiş maraqlar;
− İştirakçıların gizli planları;
− İştirakçıların münasibətləri və onların bu cür qarşılıqlı əlaqəyə qarşı münasibəti (əlaqələr / ziddiyyətlər);

−Öz gündəliyini yerinə yetirmək üçün iştirakçıların əlində olan resurslar (resurslar);
− Münaqişəni danışıqlar yolu ilə həll etməyə çalışan iştirakçılar (zəruri resurslar).
3. **Münaqişənin dinamikası** – münaqişənin profili, iştirakçılar ilə səbəblər arasında qarşılıqlı əlaqə.
4. **Sülh üçün imkanlar**: iştirakçılar arasında sülh potensialını müəyyən etmək məqsədilə, "spoylerlərin" və ya "maraq qruplarının" (münaqişənin gücləndirilməsinə töhvəsi olan) əsaslı təhlili. Bu cür təhlilin aparılması zamanı məlumatın sənədləşdirilməsi mütləqdir; Siz əlavə məlumatı alacaqsınız və müsahibələri yazacaqsınız ki, Sizin təhlilinizin nə dərəcədə tamdəyərli və obyektiv olduğu müəyyən edilsin. İdeya ondan ibarətdir ki, münaqişənin tərəfləri sülhün ümumi əsası kimi tanıya biləcəyi obyektiv səbəblər müəyyən edilsin.

## MÜNAQİŞƏNİN ESKALASİYA MƏRHƏLƏLƏRİ

Kommunikasiya nəzəriyyəsinin peşəkarı, alim Fridrix Qlass eskalasiyanın doqquz mərhələsini ayırır.
1. Gücləndirmə: fikirlər mövqelərə keçir. Münaqişəli vəziyyətlərdə dərk etmə və rollar konsolidasiya olunub. Buna baxmayaraq, hər iki tərəf yenə də inanır ki, anlaşılmazlığın şifahi olaraq aradan qaldırılması mümkündür.
2. Polarizasiya, debatlar: ümumi məqsədlər hələ də mövcuddur, lakin fərdi maraqların artması qeyd edilir. Gözləniləndir ki, mövqelərin itirilməsinin arzuolunmayan nəticəsi ola bilər. Hər bir tərəf digəri ilə müqayisədə öz üstünlüyünü təsdiq etməyə çalışır. Birbaşa problemə aid olmayan davranış qaydaları təsbit edilir. Hələ də maraq mövcuddur ki, canlı əlaqələri saxlasınlar, lakin taktiki manevrləşdirmə artır.
3. Sözlər deyil, hərəkətlər: ümumi təsəvvür şübhə yaratmır; normadan kənarlaşmış məsələlərə diqqət yetirilir. Digər tərəfin cavab vermək hüququ inkar edilir. Dialoq aparılmır. Normanı pozan hərəkətlər cavab reaksiyasını yaradır.
4. İfadələr və koalisiya: dəyişkən münasibət dəyişir və qələbədə fokuslaşdırılır; opponentin neqativ imici artıq mövcud deyildir, kiminsə məşhurlaşmış sifəti görünür. Özünüdərketmədən sonra opponent tərəfin atdığı addımlar olur.
5. Üzün itirilməsi: öz mövqelərini möhkəmləndirmək məqsədilə digər tərəfin ictimai defamasiyası baş verir. Qruplar arasında birbaşa əlaqənin yaradılmasının istənilən forması mümkün deyildir. Digər tərəfə qarşı nifrət aşkardır.
6. Strategiya və hədələmə: münaqişənin tərəfləri geriyə çəkilmə yollarını kəsiblər. Zorakı hərəkətlər artır. Düşmənin hərəkətləri aqressiv olaraq hesab edilir, öz davranışını isə cavab reaksiya kimi nümayiş etdirirlər. İrrasional hərəkətlərin sayı artır. Məqsəd müxalifət və vəziyyətə mütləq nəzarətidir.
7. Məhdud destruktiv zərbələr: niyyət – öz mövcudluğunu təmin etmək məqsədilə destruktiv hərəkətlərlə düşmənin məhv edilməsi. Hər bir tərəf hesab edir ki, digər tərəf bu cür hərəkətləri törədə bilər, bunun qarşısını almaq məqsədilə onlar məhv edilməlidirlər. Nəyin bahasına olur-olsun öz məqsədinə nail olunmalıdır.
8. Fraqmentasiya: məhvedici zərbələr rəqibi fraqmentlərə bölmək, həyat əsasını məhv etmək, dəstəkləyicilərdən təcrid etmək məqsədilə vurulur. Aqressiv hərəkətlər artır. Məqsəd rəqibi elə şəkildə sarsıtmaqdır ki, özünün mövcudluğu üçün təhlükə yaranmasın.
9. Birlikdə uçurumda: istənilən zorakılıq formasından, özünüməhvetmə təhlükəsini yaradan formasından belə istifadə edilir. Ən yaxın məqsəd düşmənin məhv edilməsidir.

## MÖVZU 3. MÜNAQİŞƏNİN SOSİOLOJİ VƏ POLİTOLOJİ NƏZƏRİYYƏLƏRİ

**Sosial-darvinizm**. Münaqişənin rolunun əsaslandırıldığı sosial sistemin təkmilləşdirilməsinin sosioloji nəzəriyyəsini yaratmağa ilk cəhdlər XIX əsrin ikinci yarısına aiddir. Bu dövrdə ingilis sosioloqu ***Herbert Spenserin*** (1820-1903) əsərləri, məsələn, münaqişənin ümumiliyi və universallığı tezisinin inkişaf etdirildiyi «Sosiologiyanın əsasları» əsəri meydana çıxmışdır.

Spenser göstərirdi ki, yaşamaq uğrunda mübarizə, fərdlər və qruplar arasında münaqişələr cəmiyyətdə tarazlığa təkan verir, ictimai inkişaf prosesini təmin edir. H.Spenser həmin dövrdə inkişaf edən sosial-darvinizmin tərəfdarı idi. Sosial-darvinistlər göstərirdilər ki, cəmiyyət orqanizmə eyniləşdirilə bilər.

Bu, sosial həyatı bioloji qanunauyğunluqlarla izah etməyə imkan verir. Spenserlə yanaşı, sosial mübarizə və mənafelərin toqquşması, irsi normalar və yeni ideyalarla bağlı təzahürləri təsvir etməklə, münaqişə probleminə diqqəti cəlb etmiş U.Bec- qot, U.Samner, L.Qumploviç, Q.Ratsengofer, A.Smoll bu təlimin ən parlaq nümayəndələri olmuşlar.

**Marksizm nəzəriyyəsi.** Sosial münaqişə nəzəriyyəsində Karl Marksın (1818-1883) əsərləri xüsusi yer tutur, onun tarixin materialist dərkini kəşf etməsi sosial münasibətlərin inkişafına yeni tərzdə baxmağa imkan verdi. K.Marksa görə, cəmiyyətdə insanlar bir-biri ilə onların iradəsindən və şüurundan asılı olmayan zəruri sosial münasibətlərə girirlər. Bu, sosial substansiyanın, cəmiyyətin formalaşmasının başlıca şərtidir. Onun inkişafı dialektik əksliklərin vəhdəti və mübarizəsi qanununa müvafiq surətdə həyata keçirilir, cəmiyyətdə onlar böyük sosial qruplar, yaxud siniflərlə təmsil olunmuşdur. Onların münasibətlərində əsas problem ehtiyatların bölüşdürülməsi sistemi ilə bağlıdır. Bütövlükdə, sinfi münaqişəni o, müxtəlif davranış formalarını nəzəri cəhətdən təhlil etmədən nəzərdən keçirirdi. Sosial münaqişənin yaranmasında iqtisadi münasibətlərin rolunun mütləqləşməsi göstərilir. Marks belə hesab edirdi ki, hər bir münaqişə tərəfi bircə məqsəd güdür " çatışmayan ehtiyatların barəsində sərəncam verməyə can atma, lakin sosial təcrübə bunu inkar etmişdir.

**M.Veberin ümumi sosial münaqişə nəzəriyyəsi.** Sosiologiyada ümumi sosial münaqişə nəzəriyyəsi XIX əsrin sonu - XX əsrin əvvəlində yaranmağa başlanmışdır. Belə ki, M.Veberin (1864-1920) fikrincə, cəmiyyət status etibarilə fərqlənən qrupların məcmusudur. Buna görə də onların mənafeləri toqquşur və son nəticədə sosial münaqişələr meydana çıxır. Cəmiyyət həyatında münaqişələrin aradan qaldırılmasına olan hər hansı ümid əsassızdır. Yer üzərində adamların bir-biri ilə əbədi mübarizəsinin labüdlüyü etiraf olunmalıdır. Lakin insanların mənafeləri yalnız toqquşmayıb, həm də müəyyən dərəcədə uzlaşdığından, bu, qüvvələr balansı, sosial konsensusun əldə edilməsi üçün əsas yaradır.

Münaqişələr sosial həyatdan tamamilə aradan qaldırıla bilməz, lakin bu, onun daimi qeyri-sabitliklə xarakterizə olunduğunu ifadə etmir.

**Q.Zimmelin funksional münaqişə nəzəriyyəsi**. Alman sosioloqu Georq Zimmelin (1858-1918) əsərləri Qərb sosiologiyası tərəfindən münaqişənin öyrənilməsində nəzərəçarpan addım olmuşdur. 1908-ci ildə nəşr olunmuş «Sosiologiya» və 1918-ci ildə nəşr olunmuş «Müasir mədəniyyətin münaqişəsi» əsərlərinin müəllifi funksional münaqişə nəzəriyyəsinin banisi hesab olunur. Zimmelə görə, münaqişə universal təzahürdür; tam vahid və ahəngdar qrup, yaxud cəmiyyət, ümumiyyətlə, təsəvvür oluna bilməz. Hətta onlar mövcud olsaydılar belə, özünü inkişaf etdirmə mexanizminə malik

olmadan və dəyişiklikləri stimullaşdıran impulsların təsirinə məruz qalmadan həyat qabiliyyətli olmazdılar.

Zimmelin münaqişənin qrupun daxili strukturuna təsiri haqqında nəticələri böyük əhəmiyyətə malikdir. Ekstremal vəziyyətlərdə, məsələn, müharibələr zamanı despotik rejimin qurulmasına qədər mərkəzləşdirmə meyli güclənir. Belə struktur yarandıqdan sonra özünü qorumağa can atır və bu məqsədlə yeni xarici münaqişələrin yaranması üçün yeni rəqib axtarmağa meyllənir. Zimmelin münaqişə nəzəriyyəsinə töhfəsi üçüncü tərəfi daxil etməsi ilə bağlıdır. Diada çərçivəsində münasibətlər yalnız düzxətli münaqişə imkanını nəzərdə tutur. «Üçüncü tərəf»in meydana çıxması ilə çoxplanlı münasibətlər, fərqlərin dərki, koalisiyaların formalaşdırılması, qrup həmrəyliyinin təşəkkülü üçün imkanlar açılır, yəni mürəkkəb sosial qarşılıqlı fəaliyyət imkanı yaranır. Məhz Zimmelin əsərlərindən sonra elmi dövriyyəyə «münaqişənin sosiologiyası» termini daxil olmuşdur.

Beləliklə, XIX əsrin ikinci yarısından XX əsrin əvvəllərinə qədərki dövrdə funksional konsepsiyaya görə, münaqişə ictimai varlığın normal təzahürü, sosial münasibətlərin ayrılmaz xassəsi hesab olunurdu. Münaqişələrə ictimai prosesdə mühüm pozitiv rol ayrılırdı. Nəzərdən keçirilən konsepsiyaların ümumi cəhəti münaqişənin makrosəviyyədə (sinif, xalq, dövlət) nəzərdən keçirilməsi ilə bağlı idi.

**T.Parsonsun struktur funksionalizmi.** XX əsrin birinci yarısında sosiologiyada münaqişə problemi sistemli-funksional məktəb çərçivəsində inkişaf edirdi. Bu dövrdə mikrosəviyyədə - kiçik qruplarda və ayrı-ayrı adamlar arasında münaqişələrin yaranması və cərəyan etməsi şərtlərinin müəyyənləşdirilməsi üzrə tətbiqi sosioloji araşdırmalar inkişaf etdi. Təşkilatlarda, istehsalatda münaqişəli vəziyyətlərin həllinin səmərəli metodikalarını tapmaq vəzifəsi qoyulurdu. Bu münaqişələr cəmiyyətin inkişafını ləngidən mənfi proseslər kimi qiymətləndirilirdi. Sosioloqların diqqətini tətillər, etiraz nümayişləri, qiyamlar, hərbi münaqişələr və sosial gerçəkliyin digər «anomaliyalar»ı cəlb edirdi.

Sosial münaqişənin öyrənilməsinə yanaşmada belə dəyişiklik Amerika sosioloqu Tolkott Parsons (1902-1979) tərəfindən «Sosial fəaliyyətin strukturu» əsərində əsaslandırılmışdı. T.Parsons münaqişəni ictimai həyatın sabitliyinin və mütəşəkkilliyinin pozulmasının səbəbi kimi nəzərdən keçirirdi. O, münaqişəni sosial anomaliya kimi müəyyən edərək, başlıca vəzifəni cəmiyyətin müxtəlif elementləri arasında münaqişəsiz münasibətlərin qorunmasında görürdü ki, bu da sosial tarazlığı, anlaşmanı və əməkdaşlığı təmin etmiş olardı. Sosial sistem çərçivəsində birləşdirici funksiyanı hüquq institutları, din və adətlər yerinə yetirir. İnkişaf etdikcə cəmiyyət «ümumiləşdirilmiş adaptiv qabiliyyəti»ni yüksəldir və daha az münaqişəli olur. Onun fikrincə, norma məhz münaqişəsizlik, sosial sistemin ahəngdarlığı, sosial gərginliyin olmamasıdır. T.Parsonsun konsepsiyası «həyat qabiliyyətsizliyinə» görə əsaslı tənqidə məruz qalmış və 50-ci illərdə Qərb sosiologiyasında cəmiyyətin münaqişə modelinə qayıdış baş vermişdir.

**L.Kozerin «pozitiv-funksional münaqişə» nəzəriyyəsi**. 1956-cı ildə Amerika sosioloqu Lyüis Kozerin «Sosial münaqişənin funksiyaları» əsərinin işıq üzü görməsi müasir Qərb münaqişə sosiologiyasının təməlini qoymuşdur. L.Kozer «pozitiv-funksional münaqişə» konsepsiyasında sosial sistemlərin dayanıqlığının təmin edilməsində münaqişələrin müsbət rolunu əsaslandırmışdı.

Kozer Veber və Zimmelin münaqişənin ümumiliyi və universallığı haqqında ideyalarını inkişaf etdirərək, göstərirdi ki, münaqişəli münasibətləri olmayan sosial qruplar mövcud

deyildir və mövcud ola bilməz. Bu nəzəriyyədə münaqişə dəyərlər və sosial status, hakimiyyət və kifayət etməyən maddi və mənəvi nemətlər uğrunda mübarizə kimi nəzərdən keçirilir. Bu mübarizədə tərəflərin məqsədlərini rəqibin zərərsizləşdirilməsi, ona ziyan vurulması, yaxud onun məhvi təşkil edir. Kozerin fikrincə, sosial qruplar və ayrı-ayrı fərqlər arasında maddi sərvətlərin yenidən bölüşdürülməsi və hakimiyyət uğrunda mübarizə pozitiv funksiyaları yerinə yetirir. Birincisi, başa çatmış münaqişə iştirakçılar arasında gərgin münasibətləri sakitləşdirməklə və mənfi emosiyaları üzə çıxarmaqla münaqişə tərəfləri arasında qarşılıqlı münasibətləri saxlamağa, yəni onları ilkin vəziyyətə qaytarmağa imkan verir. İkincisi, münaqişəli qarşılıqlı fəaliyyətin gedişində insanlar bir-birlərini daha yaxşı tanıyırlar, çünki münaqişə sınaq funksiyasını yerinə yetirir. Qarşılıqlı dərketmə düşmənçilik münasibətlərinin əməkdaşlıq münasibətlərinə - transformasiyasına təkan verir. L.Kozer qrupun birləşməsində xarici münaqişənin birmənalı rol oynamadığını qeyd edir. Qrup kifayət qədər mütəşəkkil olduqda və xarici təhlükə qrupun bir hissəsini deyil, bütün qrupu təhdid etdikdə və qrupun bütün üzvləri tərəfindən ümumi təhlükə kimi qavranıldıqda daxili birlik artır. Kifayət qədər mütəşəkkil olmayan qruplar üçün narazı üzvlərə münasibətdə sərtlik, daxili münaqişə təzahürlərini yatırmaq meyli səciyyəvidir. Kozer sosial münaqişənin sosial dəyişiklikləri, yeni ictimai qayda, norma və münasibətlərin meydana çıxmasının slimullaşdır- masını onun pozitiv funksiyası hesab edirdi.

**R.Darendorfun «cəmiyyətin münaqişə modeli».** 50-ci illərin sonlarında alman sosioloqu ***Ralf Darendorf*** (d..l929) sosial münaqişənin «cəmiyyətin münaqişə modeli» adını almış yeni nəzəriyyəsini əsaslandırmışdır. «Sənaye cəmiyyətində siniflər və sinfi münaqişə» (1957) və «Müasir sosial münaqişə» (1988) əsərlərində K.Marksm sinfi qütbləşmə, mübarizə və sinfi münaqişənin inqilabi yolla həlli haqqında ideyalarının təsiri hiss olunur.

Darendorfun fikrincə, marksist sinfi mübarizə nəzəriyyəsi müasir kapitalizmin münaqişələrini izah edə bilmir. K.Marksdan fərqli olaraq, R.Darendorf belə hesab edirdi ki, münaqişənin başlıca mənbəyini sosial qruplar arasında iqtisadi ziddiyyətlər deyil, bir qrupun hakimiyyəti öz əlində cəmləşdirməsi və digər qrupun hakimiyyətə malik olmaması ilə bağlı olan siyasi ziddiyyətlər təşkil edir.

R.Darendorf göstərir ki, cəmiyyət hər an dəyişikliklərə məruz qala bilər, bu dəyişikliklər hər yerə nüfuz edir. Buna görə də istənilən cəmiyyət müxtəlif səviyyələrdə baş verən sosial münaqişələrlə üzləşir. İstənilən cəmiyyət onun üzvlərinin bir hissəsinin digərini məcbur etməsinə əsaslanır. Buna görə də sinfi münaqişə hakimiyyətin xarakteri ilə müəyyən olunur. R.Darendorf sosial antaqonizmlərin dərin səbəblərinin ləğvi cəhdlərini səmərəsiz hesab edir və münaqişənin spesifik gedişatmm dəyişməsinə təsir imkanım mümkün sayır. Bu, müasir cəmiyyət qarşısında inqilabi çevrilişlər deyil, təkamüli dəyişikliklər perspektivini açır.

**K.Bouldinqin ümumi münaqişəli qarşılıqlı fəaliyyət nəzəriyyəsi**. 60-cı illərin əvvəllərində Amerika sosioloqu Kennet Bouldinq münaqişə haqqında universal təlim - «ümumi münaqişəli qarşılıqlı fəaliyyət nəzəriyyəsi» yaratmağa cəhd göstərmişdir («Münaqişə və müdafiə: ümumi nəzəriyyə, 1963). Həmin nəzəriyyəyə müvafiq surətdə münaqişə canlı və cansız aləmə xas olan, sosial, fiziki, kimyəvi və bioloji mühit proseslərinin təhlili üçün təməl anlayış təşkil edən ümumi kateqoriyadır. Bütün münaqişələr ümumi funksiyalara, xassələrə və yaranma, cərəyan və həll meyllərinə malikdir. Bouldinqin fikrincə, insan təbiətində özünə bənzərlərlə daimi mübarizə,

zorakılıq meyli gizlənir. Lakin münaqişələr aradan qaldırılmalı və məhdudlaşdırılmalıdır.
Nəzəriyyədə münaqişənin iki modeli - statik və dinamik modellər nəzərdən keçirilir. Statik modeldə Bouldinq «münaqişə tərəfləri»ni və onların arasında münasibətlər sistemini təhlil edir. Bu münasibətlər rəqabət prinsipi üzərində qurulur.
Dinamik modeldə Bouldinq tərəflərin mənafelərini insanların münaqişəli davranışında sövqedici qüvvə kimi nəzərdən keçirir. O, biheviorizm ideyalarından istifadə edərək, münaqişənin dinamikasını əks tərəflərin xarici stimullara reaksiyalarından əmələ gələn proses kimi müəyyən edir. Buna görə də ictimai münaqişələr «reaktiv proseslər» kimi çıxış edir.
Beləliklə, Qərb sosiologiyasında münaqişənin öyrənilməsi tarixində üç mərhələ fərqləndirilir: XIX əsrin ikinci yarısı; XX əsrin birinci yarısı və XX əsrin ikinci yarısı. Birinci mərhələdə münaqişənin əsas tədqiqi sosial-darvinizm və marksizm nəzəriyyəsi məcrasında getmişdir. XX əsrin birinci yarısında G.Zim-melin funksional münaqişə nəzəriyyəsi və T.Parsonsun struktur funksionalizmi ən fəal surətdə işlənilmişdir. Son onilliklərdə əsas sosioloji tədqiqatlar L.Kozerin pozitiv-funksional münaqişə nəzəriyyəsi, R.Darendorfun münaqişəli cəmiyyət modeli və K.Bouldinqin ümumi münaqişəli qarşılıqlı fəaliyyət nəzəriyyəsi kimi istiqamətlər çərçivəsində aparılmışdır.

## MÜNAQİŞƏNİN POLİTOLOJİ NƏZƏRİYYƏLƏRİ

Münaqişə konsepsiyalarının artıq klassik xarakter kəsb etdiyi psixologiya və sosiologiyadan fərqli olaraq, politologiyada sırf konfliktoloji nəzəriyyələri fərqləndirmək çətindir. Bir qayda olaraq, münaqişə problemi daha geniş nəzəriyyəyə daxil edilir. Bütövlükdə isə münaqişələrin politoloqlar tərəfindən tədqiqinin üç istiqaməti fərqləndirilir: siyasi strukturlar (qruplar) nəzəriyyələri; siyasi sabitlik nəzəriyyələri; etnosiyasi nəzəriyyələr.
**Siyasi qruplar nəzəriyyələri**. Elita nəzəriyyəsinin yaradıcısı olan italyan tədqiqatçısı ***Vilfredo Pareto*** (1848-1923) belə hesab edirdi ki, insanların sosial davranışı ağıldan və psixikanın irra- sional səviyyələrindən asılıdır. İnsanlar biopsixoloji keyfiyyətlərinə görə fərqləndikləri kimi, cəmiyyət də sosial cəhətdən yekcins deyildir.
Sosial dəyişkənlik cəmiyyətin idarə olunan fərdlər kütləsinə və elita adı az saylı idarəçilərə bölünməsini ifadə edir.
Elitalar arasında mübarizə və onların əvəzlənməsi istənilən cəmiyyətin mahiyyətini təşkil edir. Hakim elita deqradasiyaya uğradıqda və aşağı siniflərdən müvafiq keyfiyyətlərə malik yeni üzvlərin cəlb edilməsi yolu ilə buna qarşı çıxmağa cəhd göstəı - mədikdə inqilab şəklində sosial münaqişə yaranır. Onun bütün mənası hakim yuxarı təbəqənin - cəmiyyətin elitasının fərdi tərkibinin yeniləşdirilməsindən ibarətdir. İnqilablardan başqa, elitaların daimi dövranı prosesini təmin edən digər sosial münaqişələr də mümkündür.
Politologiyanın yaradıcılarından biri olan «Siyasət elminin elementləri»nin (1896) müəllifi **Qaetano Moska** (1858-1941) cəmiyyətin iki sinfə: dövlət funksiyalarını öz üzərinə götürən və imtiyazlardan istifadə edən hakim «siyasi sinfə» və qeyri-mütəşəkkil çoxluğu təmsil edən idarə olunanlar sinfinə bölgüsünü vacib sayırdı. Real hakimiyyət həmişə siyasi sinfin əlindədir. Cəmiyyətdə həmişə köhnə hakim azlığı əvəz etməyə hazır olan qüvvələr mövcuddur. Əvəzetmə sosial münaqişələr şəklində baş verir.
Fransız sosial mütəfəkkiri ***Jorj Sorel*** (1847-1922) özünün «Zorakılıq haqqında düşüncələr» (1907) adlı əsas əsərində tarixdə cəmiyyətin rasionalist təfsirini, sosial

tərəqqi ideyasını inkar edirdi. Sorel kütlələrin kortəbii, irrasional hərəkətini mütəşəkkil siyasi mübarizəyə, (tarixin ali yaradıcı başlanğıcı kimi) zorakılığı isə (avtoritar dövlətçiliyin ifadəsi kimi) gücə qarşı qoyurdu. Yalnız zorakılığın və sosial münaqişələrin (inqilabların, ümumi tətillərin) köməyi ilə fəhlə sinfi öz niyyətlərini reallaşdıra bilər.

Alman tədqiqatçısı ***Frans Oppenheymer*** (1864-1943) dövlət tarixini öyrənərkən, belə bir nəticəyə gəlmişdi ki, dövlətçiliyin yaranması iqtisadi səbəblərlə deyil, hüquqi səbəblərlə şərtlənir. Cəmiyyətin bir hissəsi zorakılıq yolu ilə hakimiyyəti ələ keçirərək, bütün qalanları tabeçilikdə saxlamaq üçün hüquqi təsisatı - dövləti təsis edir. Cəmiyyətin təkamülünün gedişində zorakılığın forması dəyişsə də, dövlətin mahiyyəti dəyişməz qalır. Amerika politoloqu Artur Bentlinin konsepsiyasının mərkəzi bəndini siyasi qrup təşkil edir. Siyasi qrupun fəaliyyəti ona öz mənafelərini reallaşdırmağa imkan verir.

Lakin cəmiyyətdə bir çox digər siyasi qruplar: partiyalar, hərəkatlar, birliklər fəaliyyət göstərir ki, bu da onların mənafelərinin kəsişməsinə gətirib çıxarır. Siyasi qrup öz mənafelərini reallaşdırmaq üçün güc tətbiq edə bilər. Güc fiziki məcburetmədən daha çox təzyiq, təhdid, nümayişləri, siyasi mübahisələri və s. ehtiva edir. Onların çevik tətbiqi sayəsində siyasi qruplar tərəfindən cəmiyyətin siyasi həyatı reallaşır.

**Siyasi sabitlik nəzəriyyələri.** Bu istiqamətə mənsub konsepsiyalar XX əsrin 60-cı illərinin əvvəllərində meydana çıxmışdır. Onlarda əsas diqqət müasir cəmiyyətdə münaqişələrə yol verilməməsi amillərinin öyrənilməsinə yetirilir. Belə ki, C.Blon- del ənənəvi dixotomiyadan (demokratiya-diktatura) fərqli olaraq, siyasi sistemin üçölçülü quruluşunu təklif etmişdir. Onun fikrincə, totalitar-demokratik ölçüdən başqa, hökumətin yeritdiyi mövcud vəziyyətin dəyişdirilməsi, yaxud saxlanması siyasətinin istiqamətini müəyyənləşdirən «radikal mühafizəkar oxu», habelə hökumətin özünün siyasi məqsədlərini həyata keçirməsinə kömək göstərən vasitələri (razılıq, yaxud məcburetmə) qiymətləndirən «liberal-avtoritar oxu» nəzərə almaq zəruridir.

1965-ci ildə Amerika politoloqu ***D Aston*** «Siyasi həyatın sistemli analizi» əsərində sabitliyin mühafizəkar modelini təklif etmişdir. Onun fikrincə, siyasi sistemin saxlanması obyektlərini siyasi hakimiyyət, yəni siyasətin müəyyən edilməsində iştirak edən aparıcı şəxslər - hökumət; rejim, yəni sistem daxilində münaqişələrin həlli üçün tətbiq olunan hüquqi və qeyri-rəsmi qaydalar məcmusu; siyasi birlik, yəni bir-biri ilə siyasi əmək bölgüsü ilə bağlanan sistem üzvlərinin məcmusu təşkil edir.

Amerika sosioloqu ***S.Lipset*** (d.l922) «Siyasi şəxsiyyət» kitabında (1963-cü il) açıqlanmış demokratik sabitlik konsepsiyasım təklif etmişdir. Lipsetə görə, «siyasi demokratiyanın fasiləsiz surətdə davam etdirilməsi təcrübəsinə malik və demokratik oyun qaydalarına müxalif əhəmiyyətli siyasi hərəkatların mövcud olmadığı» sistemlər sabit olur. Demokratik sabitlik səhiyyənin, sənayeləşdirmənin, təhsilin və cəmiyyətin urbanizasiyasının müəyyən səviyyəsi ilə təmin olunur.

Cəmiyyətin lazımi sosial-iqtisadi inkişaf səviyyəsinə çatmaması demokratiyanın, deməli, həm də sabitliyin mövcud olmaması kimi qiymətləndirilir. Sabitlik və qeyri-sabitlik vəziyyətləri statikdir və bir-biri ilə alternativ təşkil edir.

**D.Sandersin işləyib hazırladığı «daxili münaqişəli davranış» nəzəriyyəsində** sabitliyi pozan bütün hadisələr ölkədən-ölkəyə və dövrdən-dövrə fərqlənən spesifik «normallıq» sistemindən kəna- raçıxmalar kimi nəzərdən keçirilir. Sanders belə hadisələr dedikdə rejimdə, hakimiyyətdə və birlikdə baş verən dəyişiklikləri, siyasi sistemə dinc və zorakı çağırışları, yəni daxili münaqişəli davranışın müxtəlif formalarını

başa düşür. Kənaraçıxmanın münaqişələrə gətirib çıxardığı normallıq kateqoriyası cəmiyyətdə həmin dövrdə hakim olan sosial dəyərlərdə ifadə olunmuş kütlə şüuru səviyyəsi ilə bağlıdır.
**Etnosiyasi nəzəriyyələr**. Bu konsepsiyalar 70-ci illərin ikinci yarısında meydana çıxmışdır. Vaşinqton universitetinin professoru M.Hekterin 1975-ci ildə təklif etdiyi daxili müstəmləkəçilik konsepsiyası şöhrət qazanmışdır. O, sosial-iqtisadi inkişafın qeyri-bərabərliyi problemlərini dövlət əhalisinin etnik fərqləri ilə bağlayır. Çoxmillətli dövlətin modernləşdirilməsi prosesində mərkəzi hökumətlə etnik əyalət qrupları arasında siyasi münaqişə vacibdir. Etnomilli qrupların sosial-iqtisadi inkişafındakı fərqlərin güclənməsi onların qeyri-bərabər modernləşdirilməsi ilə izah olunur. Əmələ gəlmiş iqtisadi bərabərsizlik etnomilli həmrəyliyin, sonradan isə etnomillətçiliyin meydana çıxmasına səbəb olur.
**Şotlandiya Beynəlxalq İnstitutunun direktoru T.Neyrnin «qeyri-bərabər inkişaf» nəzəriyyəsi** bu konsepsiyaya yaxındır. Onun fikrincə, etnomilli münaqişə inkişaf etmiş mərkəzin nümunələrinin ölkənin daha az inkişaf etmiş rayonlarına qəbul etdirilməsinin nəticəsidir. T.Neyrn belə hesab edir ki, «kapitalizm yayılaraq onunla təmasa girən qədim cəmiyyətləri özünə tabe etdikcə həmin cəmiyyətlər özlərinin daxilindəki «ayrılma xətləri» boyunca ayrı-ayrı hissələrə bölünürdü».
Bu xətlər həmişə etniklik xətti olmuşdur, lakin bəzən eyni funksiyam dərin dini fərqlər də yerinə yetirə bilərdi.
Etnomilli münaqişələrin genezisində siyasi amillərin üstün mövqeyi Kolumbiya universitetinin professoru C.Rotşildin etnosiyasi konsepsiyasında təmsil olunmuşdur. O, «Etnopolitika» (1981) əsərində qeyd edir ki, modernləşdirmənin gedişində milli azlıq liderlərinin siyasiləşməsi, deməli, bütün sosial qrupun siyasiləşməsi baş verir. Bu prosesin başlanmasının sövqedici amilini etnospesifik əlamətlərin saxlanmasından narahatlıq və onların daşıyıcılarını mütəşəkkil qrupda səfərbər etmək niyyəti təşkil edir. Konsolidasiyanm davamı uçün «qrupun etnik əlamətlərin daşıyıcılarını fəal birlikdə səfərbər etməyə qabil və maraqlı olan elitası», habelə «böyük» birlik çərçivəsində ehtiyatların məhdudluğu ilə əlaqədar rəqabət zəruridir. İkinci şərtin variantlarından birini etnomilli əsasda mərkəz-əyalət münaqişəsi təşkil edə bilər.
Münaqişənin politoloji tədqiqatları **siyasi qruplar nəzəriyyələri, siyasi sabitlik nəzəriyyələri və etnosiyasi nəzəriyyələr** istiqamətləri ilə bağlıdır. **Siyasi qruplar nəzəriyyələri** V.Pareto və Q.Moska (elita nəzəriyyəsi), J.Sorel, F.Oppenheymer, A.Bentli və b. kimi alimlərin konsepsiyaları ilə təmsil olunmuşdur.
**Siyasi sabitlik nəzəriyyələri** sırasında C.Blondel, D.Iston, S.Lipset və D.Sandersin konsepsiyaları fərqləndirilir.
**Etnosiyasi nəzəriyyələr daxili** müstəmləkəçilik nəzəriyyəsini (t.Hekter), qeyri-bərabər inkişaf nəzəriyyəsini (T.Neyrn) və C.Rotşildin etnosiyasi konsepsiyasını ehtiva edir.

## MÖVZU 4. MÜNAQİŞƏYƏ DAİR ELMİ BAXIŞLARIN TƏKAMÜLÜ

Konfliktoloji ideyaların toplanması ənənələri çoxəsrlik tarixə malikdir. Münaqişənin ilk bütöv konsepsiyaları XIX-XX əsrlərin ayrıcında yaransa da, əvvəlki yüzilliklərdə də bəşəriyyətin ən yaxşı zəkaları bu fenomenin təbiətinə, münaqişələrin qarşısının alınması və həlli yollarına dair baxışlarını açıqlamışlar.
İlk insan toplumları ilə birlikdə meydana çıxan münaqişələr bəşəriyyətin «yol yoldaşı» olmuş və uzun müddət elmi tədqiqat obyektinə çevrilməmişdir, hərçənd onların

barəsində ayrı-ayrı dahiyanə fikirlərə, bizə gəlib çatmış ən qədim mənbələrdə rast gəlmək olar. Zaman keçdikcə həyat şəraiti dəyişmiş, bununla birlikdə münaqişələrin şəkli də dəyişmiş, fiziki, iqtisadi və sosial nəticələri fərqlənmişdir. İctimai fikrin onlara münasibəti də dəyişməz qalmamışdır. Antik dövrdən müharibələrin müfəssəl təsviri və bu kimi münaqişələrin ilk qiymətləndirilmələri qalmışdır. Orta əsrlərdə və Yeni dövrdə bu təzahürün mahiyyətini mənalandırmağa cəhd göstərilmişdir. Humanist mütəfəkkirlərin bütöv bir nəsli münaqişələr, bəşəriyyətin inkişafına onların mənfi təsiri, müharibənin cəmiyyət həyatından kənar edilməsi və əbədi sülhün bərqərar edilməsi haqqında təsəvvürlərini ifadə etmişlər.

**Qədim dövr.** Qədim filosoflar belə hesab edirdilər ki, öz- özlüyündə münaqişə nə pis, nə də yaxşıdır, o, insanların rəyindən asılı olmayaraq, hər yerdə mövcuddur.

Nəzərdən keçirilən problemə dair bizə gəlib çatmış ilk tədqiqatlar b.e.ə. VI-VII əsrlərə aiddir. Həmin dövrün Çin mütəfəkkirləri belə hesab edirdilər ki, bütün varlığın inkişaf mənbəyini materiyaya xas olan, daimi ziddiyyətdə olan və daşıyıcılarının cəbhələşməsinə gətirib çıxaran müsbət (yan) və mənfi (in) cəhətlərin qarşılıqlı münasibətləri təşkil edir.

**Çin filosofu Lao-tszı** (b.e.ə. 579-499-cu illər) müharibə və mübarizəni deyil, sülh və barışığı ali dəyər hesab edirdi. O öyrədirdi: «Döyüşlərdə müharibə istəməyənlər qalib gəlir, ən başlıcası sakitliyə riayət etməkdir».

**Qədim Yunanıstanda** əksliklər və şeylərin yaranışında onların rolu haqqında fəlsəfi təlim meydana çıxır. Anaksimandr (b.e.ə. 610-547) göstərirdi ki, şeylər əksliklərin ayrılmasına gətirib çıxaran vahid maddi başlanğıcın - «apeyron»un daimi hərəkəti nəticəsində əmələ gəlir. Heraklit (b.e.ə. 535-475) hərəkətin səbəbini açmağa, şeylərin və təzahürlərin hərəkətini əksliklərin mübarizəsinin doğurduğu zəruri, qanunauyğun proses kimi təqdim etməyə cəhd göstərmişdi. O yazırdı: «Mübarizə ümumidir və hər şey zərurət üzrə mübarizədən keçir».

Müharibə kimi, sosial münaqişənin roluna dair ilk ümumiləşdirmələr də bu dövrə aiddir. Belə ki, Heraklitin fikrincə, «müharibə bütün şeylərin atası, sülh isə onların anasıdır». Platon (b.e.ə. 428-348) isə onu ən böyük bəla kimi nəzərdən keçirirdi. Onun fikrincə, bir vaxtlar «qızıl əsr» mövcud olmuş, «adamlar bir-birini sevmiş və bir-birinə xeyirxah münasibət bəsləmişlər». Buna baxmayaraq Platonun «ideal dövlət»ində istənilən vaxt yürüşə çıxmağa hazır olan döyüşçülər olmuşdur.

**Herodot (b.e.ə. 490-425)** da Heraklitə qarşı çıxırdı. O göstərirdi ki, «heç kim müharibəni sülhdən üstün tutacaq qədər ağılsız deyildir. Axı müharibə vaxtı atalar övladlarını, sülh dövründə isə övladlar atalarını basdırırlar». Materialist filosof Epikür (b.e.ə. 341-270) də belə hesab edirdi ki, toqquşmaların mənfi nəticələri nə vaxtsa insanları sülh şəraitində yaşamağa məcbur edəcəkdir.

Keçmişin mütəfəkkirləri ictimai həyatda cəbhələşmənin labüdlüyünü dərk edərək, hələ o zaman «ədalətli» və «ədalətsiz» zorakılığın meyarlarım müəyyən etməyə cəhd göstərirdilər. Məsələn, Siseron (b.e.ə. 106-43) özünün «Dövlət haqqında» əsərində şərin qisasının alınması, düşmənin ölkədən qovulması uğrunda aparıla biləcək «ədalətli və şərəfli müharibə» haqqında tezis irəli sürmüşdü.

Avreli Avqustin (345-430) Siseronun şərtlərinə müharibə aparanın «ədalətli niyyətləri»ni də əlavə etmişdi.

**Orta əsrlər.** Foma Akvinski (1225-1274) cəmiyyət həyatında müharibələrə yol verilməsi haqqında fikirlərini inkişaf etdirərək, ədalətli müharibənin daha bir şərtini müəyyən etmişdi: ondan ötrü «avtorizə olunmuş səlahiyyət», yəni dövlət

hakimiyyətinin sanksiyası zəruridir. Hərçənd bütövlükdə, onun fikrincə, «müharibə və zorakılıq həmişə günahdır».
Sosial münaqişələrin sistemli təhlilinə ilk cəhdlərdən biri florensiyalı nəzəriyyəçi və dövlət xadimi Nikkolo Makiavelliyə (1469-1527) məxsusdur. Onun konsepsiyasmın dəyəri həmin dövrdə hökmran olan ictimai inkişafın mənbələrinə münasibətdə dini baxışlardan uzaqlaşmasında idi. Orta əsrlərin böyük nəzəriyyəçisi münaqişəni cəmiyyətin, insan təbiətinin qüsurlu olması, müxtəlif insan qruplarının daimi və qeyri-məhdud maddi zənginləşməyə can atması ilə şərtlənən universal və fasiləsiz halı hesab edirdi. N.Makiavelli bütün dövlət hakimiyyətini öz əllərində cəmləşdirən əyanları sosial münaqişənin mənbələrindən biri hesab edirdi. Buna baxmayaraq, Makiavelli münaqişənin yalnız dağıdıcı funksiyasını deyil, həm də yaradıcı funksiyasını görürdü. Münaqişənin mənfi rolunu azaltmaq üçün ona düzgün təsir etməyi bacarmaq lazımdır. Bu missiyanı dövlət yerinə yetirməlidir.
Rotterdamlı Erazm (1469-1536) qeyd edirdi ki, «müharibə onu bilməyənlərin ruhu üçün şirindir». O, həmçinin münaqişənin öz məntiqinə malik olduğunu, zəncirvari reaksiya kimi yayılaraq, özünün təsir dairəsinə əhalinin və ölkənin yeni-yeni təbəqələrini cəlb etdiyini göstərirdi. Rotterdamlı Erazm müharibələrin səbəblərini təhlil edərkən vurğulayırdı ki, çox vaxt hökmdarların xəbis və tamahkar keyfiyyətləri xalqları müharibələrə sürükləyir.
Hüqo Qratsi (1583-1645) suveren dövlətlər arasında hər iki tərəfin özünün haqlı olduğuna əmin olduğu müharibə imkamnı nəzərdə tuturdu. Onun mülahizələri sonralar «bitərəflik» anlayı- şmm nəzəri əsasını qoymuşdur.
Münaqişələrin təbiətinə dair ingilis filosofu Frensis Bekonun (1561-1626) irəli sürdüyü ideyalar maraq doğurur. O, ilk dəfə ölkə daxilində sosial münaqişələrin səbəbləri sistemini əsaslı nəzəri təhlildən keçirmişdi. Onların arasında xalqın acınacaqlı maddi vəziyyəti aparıcı rol oynayır. Münaqişələrin yaranmasına hökmdarların senatın və silklərin rəyinə etinasızlığı, idarəetmədəki siyasi səhvlər, şayiələrin yayılması, habelə «paskvillər və müxalif nitqlər» də təkan verir.
Tomas Hobbs (1588-1679) özünün «Leviafan» əsərində «hamının hamıya qarşı müharibəsi» konsepsiyasını əsaslandırmışdı. O, adamlarda eyni ümidlərin yaranmasına, özünü qoruyub saxlama, yaxud həzz alma üçün zəruri olan obyektlərə sahib olmaq istəyinə gətirib çıxaran bərabərliyə canatmanı münaqişənin başlıca səbəbi hesab edirdi, bu isə insanları düşmənlərə çevirir, rəqabət, etimadsızlıq və şöhrətpərəstlik doğururdu. Hobbs insanların qüsurlarının aradan qaldırılmasının dövlət zorakılığı nın tətbiqindən başqa bir yolunu görmürdü.
**Yeni dövr.** Bu dövrdə fransız filosofu Jan-Jak Russonun (1712-1778) ideyaları populyar idi. Hobbsdan fərqli olaraq, o, belə hesab edirdi ki, insan özünün təbiəti etibarilə xeyirxah, sülhsevərdir, səadət üçün yaradılmışdır.
Onun ümumdünya-tarixi prosesin mərhələviliyi konsepsiyasına görə, əvvəlcə «təbii hal» mövcud olur, bu zaman insanlar azad və bərabərdir, sonra sivilizasiyanın inkişafı bərabərlik, azadlıq və səadət halının itirilməsinə gətirib çıxarır və nəhayət, insanlar «ictimai müqavilə» bağlamaqla yenidən ictimai münasibətlərin itirilmiş harmoniyasını, «əbədi sülh» və həmrəylik əldə edirlər. J-J.Russonun fikrincə, ictimai müqavilə xalqın sərt nəzarəti altında mümkündür, çünki müharibələr nazirlərə lazımdır, buna görə də onlar xoş məram göstərmirlər. Məsələ «artıq dilə tutmada deyil, məcbur etmədədir».
Çoxsəviyyəli sosial təzahür kimi münaqişə ilk dəfə Adam Smitin «Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat» əsərində öyrənilmişdir.

Münaqişənin əsasında cəmiyyətin siniflərə (kapitalistlər, torpaq mülkiyyətçiləri, muzdlu fəhlələr) bölünməsi və iqtisadi rəqabət durur. A.Smit siniflər arasında qarşıdurmanı cəmiyyətin irəliyə doğru inkişafının mənbəyi kimi, sosial münaqişəni isə bəşəriyyətin müəyyən neməti kimi nəzərdən keçirirdi.
Alman filosofu Immanuel Kant (1724-1804) belə hesab edirdi ki, «qonşuluqda yaşayan adamlar arasında sülh vəziyyəti təbii hal deyildir. Əksinə, təbii hal müharibə vəziyyətidir, yəni fasiləsiz hərbi əməliyyatlar olmasa da, daimi müharibə təhdididir. Deməli, sülh vəziyyəti bərqərar olunmalıdır». Burada J.J.Russonun «ictimai müqavilə» haqqında ideyaları ilə əlaqə sezilir.
Alman filosofu Georq Hegelin (1770-1831) fikrincə, münaqişənin başlıca səbəbi bir tərəfdən «sərvət yığımı» ilə digər tərəfdən «əməyə bağlı sinif» arasında sosial qütbləşmədən irəli gəlir. Güclü dövlət hakimiyyətinin tərəfdarı olan Hegel ölkə daxilində dövlətin birliyini sarsıdan iğtişaşlara qarşı çıxırdı. O belə hesab edirdi ki, dövlət bütün cəmiyyətin mənafelərini təmsil edir və münaqişələri tənzimləməyə borcludur.
Prussiya hərbi nəzəriyyəçisi Kari Klauzevits (1780-1831) «Müharibə haqqında» əsərində beynəlxalq hərbi münaqişənin təbiətini müəyyən edərək, məşhur «Müharibə siyasətin başqa vasitələrlə davamıdır» düsturunu təklif etmişdi. Bütün tarix boyunca beynəlxalq hərbi münaqişələr bioloji labüdlük, bu və ya digər dövlətin siyasətində normadan kənaraçıxma, yaxud mo- narxın özbaşınalığının təzahürü deyil, dövlət daxilində və dünya meydanında münaqişəyə keçənə qədər proseslərin qanunauyğun inkişafı olmuşdur.
Mövcudluq uğrunda mübarizə problemi ingilis bioloqu Çarlz Darvinin (1809-1902) yaradıcılığında mərkəzi yer tutmuşdur. Onun bioloji təkamül nəzəriyyəsinin məzmunu 1859-cu ildə nəşr olunmuş «Təbii seçmə yolu ilə növlərin mənşəyi, yaxud həyat uğrunda mübarizədə nəcib cinslərin saxlanması» kitabında açıqlanmışdır. Bu əsərin başlıca ideyası onun adında ifadə olunmuşdur: canlı təbiətin inkişafı yaşamaq uğrunda daimi mübarizə şəraitində həyata keçirilir ki, bu da ən çox uyğunlaşan növlərin təbii seçmə mexanizmini təşkil edir. Sonralar Ç.Darvinin baxışları münaqişənin bəzi sosioloji və psixoloji nəzəriyyələrində inkişaf etdirilmişdir.
XIX əsrin ikinci yarısında alman filosofu F.Nitsşe (1844- 1900) insan davranışındakı təcavüzkar təzahürləri patologiya və onun təbiətindəki kənaraçıxma kimi deyil, insanın təbiətinin diqtə etdiyi təbii hal kimi nəzərdən keçirmişdir. Onun fikrincə, məhz buna görə də əbədi sülhə can atan bəşəriyyət labüd surətdə müharibəyə qayıdır.

## MÖVZU 5. PSIXOLOGIYADA MÜNAQIŞƏ PROBLEMI

Qərb psixologiyası şəxsiyyətdaxili və sosial münaqişələrin öyrənilməsində mühüm ənənələrə malikdir. Yüz ilə yaxın bir dövr ərzində toplanmış böyük nəzəri və empirik material yanaşmaların və nəzəri platformaların müxtəlifliyində öz əksini tapır. Münaqişənin öyrənilməsi tarixində şərti olaraq iki mərhələni fərqləndirmək olar. Birinci mərhələ XX əsrin 50-ci illərinə qədər davam etmişdir, ikinci mərhələ isə keçən əsrin 50-ci illərinin sonundan indiyə qədər olan dövrü əhatə edir. Fərqləndirmənin əsası qismində münaqişə probleminin psixologiyanın nəzərdən keçirdiyi digər problemlər sırasında fərqləndirilməsi çıxış edir.

XX əsrin birinci yarısında münaqişə ayrıca tədqiqat obyekti kimi fərqləndirilməyib, daha geniş konsepsiyaların tərkib hissəsi kimi nəzərdən keçirilirdi (məsələn, psixoanaliz, yaxud sosiometriyada). Psixoloqları ya münaqişələrin nəticələri, ya da ona gətirib çıxaran ayrı-ayrı səbəblər maraqlandırırdı, lakin münaqişə özü tədqiqatın mərkəzi həlqəsini təşkil etmirdi.
1950-60-cı illərin ayrıcında psixoloqların elmi marağının bilavasitə bu fenomenə yönəldiyi tədqiqatlar meydana çıxır. Əsas anlayışlar fərqləndirilir, münaqişənin psixoloji nəzəriyyəsinin anlayışlar aparatı işlənilir.
XX əsrin birinci yarısında münaqişənin xarici psixoloji tədqiqatlarının istiqamətləri arasında aşağıdakılar fərqləndirilir:
- psixoanalitik (Z.Freyd, A.Adler, K.Xorni, E.Fromm);
- sosiotrop (U.Mak-Dauqall, S.Siqele və b.);
- etoloji (K.Lorens, N.Tinberqen);
- qrup dinamikası nəzəriyyəsi (K.Levin, D.Kreç, L.Lindsey);
- frustrasiya-təcavüzkar (D.DoUard, L.Berkovits, N.Miller);
- davranış (A.Bass, A.Bandura, R.Sire);
- sosiometrik (D.Moreno, E.Ceniqs, S.Dodd, Q.Qurviç);
- interaksionist (D.Mid, T.Şibutani, D.Şpigel).

Psixoanalitik yanaşma, ilk növbədə, insanın münaqişəliliyinə (konfliktliliyinə) dair ilk konsepsiyalardan birini yaratmış Avstriya psixoloqu ***Ziqmund Freydin*** (1856-1939) adı ilə bağlıdır. Z.Freydin əsasən şəxsiyyətdaxili münaqişələrlə məşğul olmasına baxmayaraq, onun xidməti şəxsiyyətlərarası münaqişələrin səbəblərinin şüursuzluq səviyyəsində axtarılması zərurətini göstərməsi ilə bağlıdır. O belə hesab edirdi ki, başlıca mənbə insan psixikasına əvvəlcədən xas olan şüur və şüursuzluq, dolaşıq instinktiv meyllərlə əxlaq və hüquq normalarının tələbləri arasındakı münaqişədir. Məhz insan qəlbinin bu disharmoniyası bütün sosial münaqişələrin - şəxsiyyətdaxili, şəxsiyyətlərarası, qruplararası münaqişələrin başlıca mənbəyini təşkil edir.
Z.Freydin davamçısı olan ***Alfred Adler*** (1870-1937) şəxsiyyətin mikromühitlə münaqişələrinin məzmununu tərdin, natamamlıq və birinin digəri üzərində üstünlüyü hissindən qurtarmaq cəhdlərində görürdü. Amerika psixoloqları K.Xorni, E.Fromm, Q.Salliven münaqişənin təbiətinin anlayışını genişləndirərək, ona sosial kontekst verməyə çalışmışlar. Belə ki, ***K.Xorni*** (1885-1952) fərdlə onun mühiti arasındakı münaqişələrin əsas səbəbini yaxın şəxslər, ilk növbədə, valideynlər tərəfindən xeyirxahlığın çatışmamasında görürdü.
***E.Frommun*** (1900-1980) fikrincə, münaqişələr şəxsi istək və tələbatları cəmiyyətdə reallaşdırmağın mümkün olmaması ucbatından yaranır.
1920-30-cu illərdə münaqişə sosial psixoloqların diqqətini cəlb etməyə başlayır. Anqloamerikan psixoloqu ***U.Mak-Dauqallın*** (1871-1938) fikrincə, cəmiyyətdə münaqişələr labüddür, çünki insanlara qorxu, sürü hissi, özünütəsdiq kimi sosial instinktlər xasdır. Onlar nəsildən-nəsilə ötürülür, buna görə də adamlar daim münaqişəyə, ziddiyyətə girirlər. Ç.Darvinin yaşamaq uğrunda mübarizə instinktinin növün mövcudluğunu, inkişafını təmin etməsi fikrinə istinadən U.Mak-Dauqall onu insan toplumuna da şamil edirdi. Onun yaratdığı sosial instinktlər nəzəriyyəsi özünə tərəfdarlar tapdı ki, bu da münaqişələrin öyrənilməsində sosiotrop istiqaməti müəyyən etdi (S.Sigele və b.).
Münaqişəyə **etoloji yanaşmanın başlanğıcı** 1930-cu illərdə Avstriya təbiətşünası, Nobel mükafatı laureatı ***Konrad Lorentsin*** (1903-1989) əsərlərində qoyuldu. O, dünya

elmində ilk dəfə belə bir fərziyyə irəli sürdü ki, sosial münaqişələrin başlıca səbəbi fərdin və kütlənin təcavüzkarlığıdır. K.Lorentsin fikrincə, heyvanlarda və insanlarda təcavüzkarlığın yaranması mexanizmləri eyni tiplidir, təcavüz isə canlı orqanizmin daimi halıdır. K.Lorentsin etoloji ideyaları holland alimi ***N.Tinbergenin*** (1907-1988) tədqiqatlarında inkişaf etdirilmişdir.
Alman-amerikan psixoloqu ***Kurt Levin*** (1890-1947) qrup dinamikası problemlərini araşdıraraq, fərdlə mühit arasında tarazlıq pozularkən gərginlik altına düşən dinamik davranış sistemi konsepsiyasını işləyib hazırlamışdı. Bu gərginlik münaqişələr şəklində təzahür edir. Münaqişənin mənbəyi qismində qrup liderinin xoşagəlməz fəaliyyət üslubu çıxış edə bilər. K.Levin münaqişələrin həlli yollarım şəxsiyyətin motivləşmə sahələrinin və fərdlərin qarşıhqlı fəaliyyət strukturunun yenidən təşkilində görürdü.
Yel universitetinin (ABŞ) ***Con Dollard*** (1900-1980) başda olmaqla, bir qrup psixoloqu Z.Freyd və K.Levinin əsərləri əsasında münaqişənin yeni - frustrasiya-təcavüzkar fərziyyəsini təklif etdi.
Bu konsepsiyada münaqişələrin biososial səbəbi - fərdin təcavüzkarlığı və sosial səbəbi - frustrasiya birləşdirilmişdir. Təcavüz həmişə frustrasiyadan sonra gəlir, təcavüzkar davranış halları, adətən, frustrasiyanm mövcudluğunu nəzərdə tutur.
Davranış istiqamətinin məşhur nümayəndəsi Amerika psixoloqu ***Arnold Bassdır.*** O, münaqişələrin səbəblərini yalnız insanın biologiyasında, anadangəlmə keyfiyyətlərində deyil, həm də şəxsiyyətin ətraf sosial mühitlə qarşılıqlı təsiri nəticəsində bu keyfiyyətləri dəyişdirən sosial əhatədə (çevrədə) axtarır.
Sosial psixoloq **Yakob Morenonun** (1892-1974) işləyib hazırladığı sosiometriya nəzəriyyəsinə müvafiq surətdə şəxsiy- yətlərarası münaqişələr insanlar arasındakı emosional münasibətlərin vəziyyəti, onların bir-birinə rəğbət, yaxud nifrət bəsləməsi ilə müəyyən olunur. Y.Moreno belə bir nəticəyə gəlmişdi ki, şəxsiyyətlərarası münaqişələrdən tutmuş beynəlxalq münaqişələrə qədər bütün münaqişələr insanların emosional üstünlüyünə müvafiq surətdə onların elə düzülüşü yolu ilə həll edilə bilər ki, «sosiometrik inqilab» ictimai münasibətlərin ahəngdarlığını təmin etməyə imkan versin.
Simvolik interaksionizmin banisi olan Amerika psixoloqu və sosioloqu ***Corc Midin*** (1863-1931) əsərlərinin ardınca Çikaqo məktəbinin nümayəndəsi ***T.Şibutaninin*** tədqiqatları geniş əks-səda doğurdu. Onun fikrincə, münaqişələrin səbəbləri sosial qarşılıqlı fəaliyyət prosesindədir. «Fərd-mühit» münasibətlərində hiddətlənmə baş verdikdə subyekt daxili disharmoniya və narahatlıq keçirməyə başlayır. Onları aradan qaldırmağa çalışan fərd mühitə uyğunlaşmaq üçün fəal hərəkətlər həyata keçirir. Məhz uyğunlaşmanın gedişində münaqişələr yaranır.
Nəzərdən keçirilən dövrdə münaqişənin tədqiqinə yanaşmaların təhlili göstərir ki, onlar psixologiyanın ənənəvi istiqamətləri məcrasında formalaşaraq, həmin cərəyana xas olan nəzəri konstruksiyaları əks etdirmişlər. Bu yanaşmalar son 40-45 ildə münaqişələri öyrənərkən Qərb psixoloqlarının istinad etdikləri əsasa çevrilmişdir.
Məsələn, 1960-cı illərdə psixoanaliz və interaksionizm ideyalarının sintezi əsasında transakt analiz nəzəriyyəsini yaratmış Amerika psixoterapevti **Erik Börnün** (1902-1970) əsərləri nəşr olunmuşdur. E.Börnün fikrincə, şəxsiyyətin strukturu («Mən»i) **üç hal-komponenti** ehtiva edir: «uşaq» (kortəbii emosiyaların, istəklərin və həyəcanların mənbəyi), «valideyn» (stereotiplərə, köhnə düşüncələrə, ümumiləşdirmələrə, nəsihətlərə meyl) və «yaşlı» (həyata rasional və situativ yanaşma). İnsanların qarşılıqlı fəaliyyətinin gedişində transaksiyalar həyata keçirilir. Kəsişməyən transaksiya reallaşdırıldıqda o,

münaqişəsiz münasibətləri təmin edir. Kəsişən transaksiya yarandıqda bu, ünsiyyət prosesinin pozulduğunu göstərir və münaqişələrə gətirib çıxara bilər.
Hal-hazırda müasir Qərb psixologiyasında münaqişələrə dair tədqiqatlar aşağıdakı istiqamətlər üzrə aparılır:
- nəzəri-oyun (M.Doyç);
- təşkilati sistemlər nəzəriyyəsi (R.Bleyk, C.Muton);
- danışıqlar prosesinin nəzəriyyəsi və təcrübəsi (D.Prüitt, D.Rubin, R.Fişer, U.Yuri).
**Nəzəri-oyun** yanaşmasının nümayəndələri münaqişəli vəziyyətdə universal qarşılıqlı fəaliyyət sxeminin qurulmasını və onun həllini əsas vəzifə hesab edirlər. Onun əsasında «dustaq dilemması» kimi oyunlar durur. Vəzifənin həllini dəqiq nəzarət olunan eksperimental şərtlər asanlaşdırır. Münaqişə vəziyyətində davranış üslublarının müxtəlifliyi iki əsas davranış tipində ümumiləşdirilir: **kooperativ və rəqabət**.
Sistem şəklində bu yanaşma Amerika sosial psixoloqu M.Doyçun əsərlərində öz ifadəsini tapmışdır. Onun konsepsiyası münaqişə probleminə sosial-psixoloji yanaşmanın tam işlənməsindən ibarətdir. M.Doyçun fikrincə, münaqişənin əsasında şəxsiyyətlərarası qarşılıqlı fəaliyyətin iştirakçılarının məqsədlərinin uzlaşmaması durur. Diqqətin qarşıduran tərəflərin motivləri üzərində cəmləşdirilməsi sayəsində bu istiqamətə aid əsərlər çox vaxt motivləşmə konsepsiyasına aid edilir.
Nəzəri-oyun yanaşmasının tərəfdarları belə hesab edirlər ki, münaqişələr həm konstruktiv, həm də destruktiv yolla həll oluna bilər. İştirakçılarının qoyulmuş məqsədlərə çatdıqlarına əmin olduqları münaqişə nəticəvi münaqişə hesab olunur.
Müasir Qərb tədqiqatçıları M.Doyçun ideyalarını inkişaf etdirərək, real qruplarda eksperimental situasiyalar yaradırlar. Situasiya tipləri arasında rəqabət, kooperasiya və qarışıq situasiyalar fərqləndirilir. Təlim prosesində rəqabət situasiyası motiv- ləşdirici təsirə malik ola bilər, lakin bu, əməkdaşlıq və qarşılıqlı yardım münasibətlərinə rəğmən deyil, onlarla yanaşı baş verir. Kooperativ təlim situasiyası ənənəvi fərdi təlimdən daha böyük səmərə verir.
Müasir psixologiyada münaqişənin öyrənilməsinə ikinci yanaşma **təşkilati sistemlər** nəzəriyyəsidir. Bu konsepsiya oyunlar nəzəriyyəsinə alternativ və onun təklif etdiyi həll yollarının tənqidinin nəticəsi kimi meydana çıxrmşdır. R.Bleyk, C.Muton və K.Tomasın təşkilati sistemlər əsasında şəxsiyyətlərarası münaqişələr probleminə dair işləyib hazırladıqları yanaşma real şəraitdə insanların münaqişəli davranış üslublarının orijinal tədqiqi proqramından ibarətdir. Müəlliflər rəqibə münasibət və öz məqsədlərinin əldə olunmasına yönəlişlərin uzlaşmasından münaqişəli vəziyyətdə mümkün olan beş davranış strategiyasını müəyyən etmişlər: rəqabət, uyğunlaşma, qaçınma, uzlaşma, əməkdaşlıq.
Bütövlükdə, tədqiqatçılar real davranışın öyrənilməsinə can atırlar. Eyni zamanda, münaqişənin həlli üslubunun diaqnostikası üçün istifadə olunan sorğu metodları real davranışdan daha çox subyektlərin niyyətlərini tədqiq etməyə imkan verir. Sorğu-lananlar bəzi kateqoriyaları fərqləndirməkdə çətinlik çəkirlər. Bu çatışmazlıqları aradan qaldırmaq üçün münaqişəli vəziyyətdə davranışın özünüqiymətləndirməsini qarşılıqlı qiymətləndirmələr və ekspert qiymətləndirmələri ilə uzlaşdırmaq təklif olunur.
60-70-ci illərin ayrıcında münaqişəli qarşılıqlı fəaliyyətin bir hissəsi kimi **danışıqlar prosesinin öyrənilməsi** üzrə müstəqil istiqamət formalaşmağa başlayır.
Hal-hazırda danışıqlar prosesinin nəzəriyyəsi və təcrübəsi tətbiqi psixologiyanın perspektiv istiqamətlərindən biri kimi nəzərdən keçirilir. Tədqiqatlar iki problemin həlli: münaqişə tərəflərinin danışıqlara başlamaq qərarı qəbul etməsinə təkan verən şərtlər

məcmusunun aşkara çıxarılması və münaqişə tərəflərinin artıq razılaşma axtarışına çıxmaq qərarı qəbul etməsindən sonra danışıqlar prosesinin öyrənilməsi üzərində cəmləşdirilmişdir. Danışıqlar prosesinin texnologiyası daha çox işlənilmişdir.

Beləliklə, xarici psixologiyada şəxsiyyətlərarası münaqişənin öyrənilməsinin mühüm ənənələri toplanmışdır.

Onların xarici psixoloqlar tərəfindən öyrənilməsi tarixində iki mərhələni fərqləndirmək olar: əsrin əvvəlindən 50-ci illərə qədər və 50-ci illərin sonundan indiyə qədər.

**Birinci mərhələdə** münaqişə aşağıdakı yanaşmalar çərçivəsində öyrənilmişdir: psixoanaliz, sosiotropiya, etologiya, qrup dinamikası nəzəriyyəsi, frustrasiya-təcavüz, davranış, sosiometriya və interaksionizm.

**İkinci mərhələdə** şəxsiyyətlərarası münaqişələrin tədqiqinin yeni istiqamətləri də inkişaf etmişdir. Bunlar nəzəri-oyun yanaşması, təşkilati sistemlər nəzəriyyəsi və danışıqlar prosesi təcrübəsidir.

## MÖVZU 6. MÜNAQİŞƏLƏRİN İDARƏ EDİLMƏSİ PRİNSİPLƏRİ, QAYDALARI, TÖVSİYƏLƏRİ VƏ FUNKSİYALARI

Münaqişələri idarə etməyin kifayət qədər universal prinsipləri məlumdur. Birincisi, opponenti dərk etmə xarakterindən, ikincisi, rəqabət xarakterindən asılı olan münaqişənin iki qarşılıqlı əlaqəli reduksiya xəttini (iki sahə) seçmək olar. Münaqişələrin idarə edilməsinin ümumi prinsiplərindən başqa, münaqişələrin nizamlanmasının yaxud həll edilməsinin bir sıra xüsusi qaydaları və tövsiyələri mövcuddur. Bu, çox vaxt bir-biri ilə sıx əlaqədə olan münaqişələri idarə etmə qaydalardır.

Münaqişələri idarəetmənin bir neçə universal prinsipləri var. Onlara birinci növbədə aşağıdakı prinsiplər aiddirlər:

**1.Münaqişənin institusializasiyası,** yəni münaqişənin nizamlanmasının yaxud həll edilməsinin norma və prosedurlarının təyin edilməsi. Adətən institusializasiya özünə aşağıdakıları daxil edir:

- zorakılıq vasitələrinin istifadə edilməsinə qadağa;
- münaqişə iştirakçılarının sayı və təzahür sahələrinin məhdudlaşdırılması;
- bütün tərəflərin münaqişənin həlli üçün müəyyən: təşkilatı və (yaxud) etik normaların, dəqiq razılaşmaların və sair qaydaların qəbul edilməsi;
- üçüncü tərəfin nəzarəti (dövlət orqanlarının, hakimlərin və sair);

**2. Münaqişənin həll edilməsinin legitimləşdirilməsi prosedurası,** yəni mübahisənin hətta əgər təyin edilmiş prosedurların bəzi (köhnəlmiş) hüquqi normalara uyğun gəlməməsinə baxmayaraq, bütün tərəflərin müəyyən hərəkət qaydalarının qanunauyğun və ədalətli olmasının qəbul edilməsidir. Prosedurların legitimləşdirilməsi onların xüsusi sənədlərdə qeyd edilməsini və onunla münaqişənin bütün iştirakçılarının geniş tanış olmasını tələb edir.

**3. Münaqişə qruplarının strukturlaşdırılması,** yəni münaqişə iştirakçılarının tərkibini, münaqişə edən qrupların nümayəndələrini (liderlərini), qrup şəkilində təsir edə bilən müxtəlif mərkəzlərin və onların gücünü təyin etməkdir. Münaqişənin həlli üçün kiminlə iş aparmaq, danışmaq və müvafiq saziş bağlamaq olduğunu bilmək vacibdir. Strukturlanmamış, münaqişə maraqları daşıyan amorf qruplar daha təhlükəlidirlər, çünki onlar daha az idarə olunurlar və qabaqcadan nəzərdə tutulmayan dağıdıcı hərəkətlərə meyillidirlər;

**4. Münaqişənin reduksiya edilməsi,** yəni onu mübarizənin yaxud qarşıdurmanın yumşaq səviyyəsinə keçirmək yolu ilə ardıcıl zəiflətməkdir;

Birincisi, opponenti dərk etmə xarakterindən, ikincisi rəqabət xarakterindən asılı olaraq, münaqişənin iki qarşılıqlı əlaqəli reduksiya xəttini (iki sahə) seçmək olar.

**Birinci xətt** opponentin obrazının ardıcıl olaraq aşağıda göstərilən pillələrlə qəbul edilməsinə irəliləməyi nəzərdə tutur: düşmən (barışmaz mübarizə) – rəqib (müəyyən səbəbdən qarşıdurma) – əməkdaş (müvəqqəti qarşılıqlı təsir) – partnyor – (daimi əməkdaşlıq) – müttəfiq (müəyyən sahədə köməkçi) – dost.

**İkinci xətt üzrə,** rəqabətin xarakterinə uyğun olaraq, qarşıdurma reduksiyası aşağıdakı pillələri keçir: müharibə (məhdud olmayan mübarizə spektrı, son vasitələrin istifadəsi) – zorakılıq (qarşıdurmanın son dərəcə məhdud sahəsi) – aqressivlik (ayrı ayrı düşmənçilik hərəkətləri) – rəqiblik (rəqabət, müəyyən qaydalara uyğun olaraq yarışma) – düşmənçilik (kin, dostcasına olmayan münasibətlər) – gərginlik (sayıqlıq, dostcasına olmayan hərəkətlərin gözlənilməsi) – mübahisə (fikir qarşıdurması) – narazılıq (fikir ayrılığı) – konsensus (razılıq).

Əlbəttə ki, münaqişə gərginliyinin azalmasında ayrı-ayrı pillələr arasında olan sərhədlər həddindən artıq nisbidir, çox halda isə şərtidir. Münaqişəni idarə edərkən bütün göstərilən mərhələləri ardıcıllıqla keçmək vacib deyil. Məsələn, bəzən aqressivlikdən mübahisəyə keçmək olar. Hər bir halda gərginliyin azalması münaqişənin dağıdıcı nəticələrini azaltmaq şansını yüksəldir və onun daha tez və asan həll edilməsinə kömək edir.

**Münaqişələrlə davranış qaydaları**

Münaqişələrin idarə edilməsinin ümumi prinsiplərindən başqa münaqişələrin nizamlanmasının yaxud həll edilməsinin bir sıra xüsusi qaydaları və tövsiyələri mövcuddur. Bu, bir biri ilə sıx əlaqədə olan münaqişələrin idarə edilməsi qaydaları belədir:

- *münaqişənin rasionalizasiyası, onun emosional rənginin azaldılması.* İrrasionallıq, düşünülməmiş hərəkət münaqişənin həllini həmişə çətinləşdirir;
- opponentin real maraqlarında deyil, *bəyan edilməmiş mövqelərində (tələblərdə) diqqətin cəmləşdirilməsi.* Çox vaxt tərəflərin rəsmi bəyanatları əslində onların əsl maraqlarını gizlədir;
- dəqiq məlumat almaq və bir-birinə etibarlı olmağın gücləndirilməsi məqsədi ilə tərəflər arasında *kommunikasiyaları genişləndirmək;*
- *seqmentasiya, münaqişənin predmetini çox sayda tərkib hissələrə parçalamaq.* Bu, tərəflərin müvqelərində təmas nöqtəsini görməyə və razılığa, kompromisslərə yaxud əməkdaşlığa gəlməyə mümkün olan sualları tapmağa imkan verir.
- münaqişənin iştirakçısı və predmeti arasında *fərqi təyin etmək.* Müəyyən suallar üzrə rəqabət şəxsi düşmənçiliyə və təhqirlərə keçməməlidir;
- *rəqabətin nisbiliyi.* Əks tərəfə son dərəcədə düşmən kimi baxmaq olmaz. Münaqişə demək olar ki, heç vaxt bütün maraqlar spektrini əhatə etmir. Opponentlərin ümumi xüsusiyyətləri, çox vaxt isə ümumi maraqları da var. Qarşılıqlı anlaşılmaya və əməkdaşlığa nail olmaq üçün məhz onlara arxalanmaq lazımdır.
- *rəqabət sahəsinin məhdudlaşdırılması.* Opponentin əsas məqsədlərinə və dəyərlərinə toxunmaq, münaqişə sahələrinin genişlənməsinə yol vermək olmaz;
- *rəqib tərəflərin mürəkkəb və çox tərkibli olan xarakteri.* Əgər münaqişədə hər tərəfdən bir nəfərdən çox iştirakçı varsa, bu halda onların mövqeləri nadir

hallarda tamamilə üst-üstə düşür. Opponentə fərqli yanaşaraq onun müvqeyini zəiflətmək, əməkdaşlığa hazır olan insanları tapmaq olar;

- *münaqişənin müvəqqəti (dövrü) məhdudlaşdırılması.* Münaqişənin inkişaf prosesini nə qədər tez dayandırsaq onu həll etmək bir o qədər asan olar və əksinə, münaqişə yaranmasında nə qədər dərinləşsə, onun nizamlanması bir o qədər çətin və baha başa gələ bilər;
- *münaqişənin zaman hüdudlarının genişlənməsi.* Oyunlar nəzəriyyəsindən göründüyü kimi, ən təhlükəli oyunlar onların dar zaman hüdudları ilə xarakterizə olunurlar. Münaqişənin tam həllinin uzunmüddətli perspetivinin təyin edilməsi bir qayda olaraq onun həllini asanlaşdırır. Məlum qayda öz əksini başının kəsilməsi təhlükəsi altında padşaha eşşəyi otuz il ərzində danışmağa öyrədəcəyinə vəd vermiş şərq nağıllarının qəhrəmanı Hoca Nəsrəddinin müdürikliyində tapmışdır, burada o tamamilə məntiqlə düşünürdü ki: “Otuz il ərzində ya eşşək ölər, ya padşah, ya özüm ölərəm”. Müəyyən müddət keçdikdən sonra kifayət qədər çox halda münaqişənin əsas səbəbləri ya qüvvədən düşür yaxud öz əhəmiyyətini itirirlər;
- *münaqişənin* meliorativ (vəziyyətin ardıcıllıqla yaxşılaşmasını nəzərdə tutan) həllinə *nail olmaq onun qəti həllinə nail olunmasına çalışmaqdan daha yaxşıdır.* Bu çox hallarda (lakin həmişə yox) “ya hər şey, ya heç nə” prinsipi ilə hərəkət etmək olmaz deməkdir. Münaqişənin meliorativ üsulda həlli zamanı onun əvvəlki vəziyyətlə yaxud digər alternativlərlə münasibətdə yaxşı yaxud pis olması nöqteyi-nəzərindən qiymətləndirilir;
- *münaqişələr mövcud vəziyyətin dondurulması ilə deyil, dəyişiklilərin köməyi ilə həll edilir.* Vəziyyətin müvəqqəti dayandırılması halda ehtimal olunur ki, bir qədər vaxtdan sonra münaqişə yenidən başlaya bilər.
- *birtərəfli güzəştlərin arzu olunmaması,* çünki güzəştə gedən tərəf bir qayda olaraq özünü sıxılmış və incidilmiş hiss edir, bu isə razılığın davamlı olmasını şübhə altına alır;
- *münaqişəni həll etdikdə uduzan tərəfin ləyaqətinə hörmət etmək vacibdir,* yaxud hətta ona tərəfdarları və ətrafındakılar qarşısında nüfuzda qalib gəlmək imkanı vermək lazımdır. Rəqibi küncə sıxmaq olmaz. Bu onun aqressivliyinin gözlənilmədən artmasına, münaqişənin yeni, daha dağıdıcı üsul və vasitələrin istifadəsi ilə təhlükəli müstəviyə keçməsinə səbəb ola bilər;
- *münaqişənin həlli mədəniyyətlə legitimləşməlidir,* yəni bütün tərəflərin və ətrafdakıların qəbul etdikləri dəyərlərə əsaslanmalıdır. Belə halda qarşılıqlı inciklikləri az olar və münaqişənin həlli daha möhkəm olar;
- *münaqişənin çox səbəbli olmasına istiqamətlənmə və müxtəlif vasitələrdən istifadə etmə.* Məlum qayda münaqişənin əsasında çox vaxt bir neçə səbəbin olmasından irəli gəlir. Lakin hətta bir səbəb olduğu halda, onun həll edilməsi vasitələri müxtəlif ola bilər. Münaqişənin çoxsəbəbliyinə və onun həll olunması vasitələri müxtəlifliyinə istiqamətlənmə onunla faydalıdır ki, çox səbəblərin və vasitələrin axtarılmasına yönəldilərək səhvin ehtimal olunmasını azaldır;
- *arbitraj,* münaqişənin həlli prosesinə (kommunikasiyaları, hazırlanması, qərarların xülasəsi və şərhi, onların yerinə yetirilməsinə nəzarət) üçüncü tərəfi daxil etməkdir. İki tərəf arasında olan münaqişələrin həllinə vasitəçiləri cəlb etmədən nail olmaq çətindir;

- bir-birindən asılı olan tərəflər arasında *əməkdaşlığa verilən üstünlüyə əsaslanaraq* müvəqqəti uduşa ümid etmək. Müvəqqəti qələbə davamsızdır və yaxın zamanda mübarizənin yenidən başlanması ilə yaxud hətta məğlub olmaqla sona çata bilər. Əməkdaşlıq zamanı bərqərar olunmuş etibar gələcəkdə tərəflərin qarşılıqlı faydalı bir-birinə təsirin yüksək dəyərli potensialıdır;
- *münaqişənin nizamlanmasının iştirakçılarının sayının rəqib tərəflərin nümayəndələri (liderləri) ilə məhdudlaşdırma.* Ancaq çoxluq təşkil edən institutа arxalanmaq qarşılıqlı qəbul edilə biləcək qərarların təyin edilməsini çətinləşdirir və sonda münaqişələrin həllinə deyil, kəskinləşməsinə səbəb olur; mümkün alternativlər dairəsinin, müştərək qərarın qəbul edilməsinə qədər güman edilən güzəştlərin təyin edilməsi. Bunsuz danışıqlar zamanı tərəflər üçün kompromiss qərarın tapılması çətinlik yaradır.
- *münaqişənin ilk mərhələlərdə, daha yaxşısı isə onun əmələ gəlməsindən əvvəl, qələbənin və məğlubiyyətin qiymətlərinin təyin edilməsidir.* Dərin və uzunsürən münaqişələrdə adətən ancaq məğlub olanlar deyil, rəsmi qələbə çalanlar da uduzurlar, çünki qələbənin dəyəri həddindən artıq yüksək olur. Çox halda qarşıdurma ilə əlaqədar olan qüvvələrin və resursların sərf edilməsinin sağlam düşüncəli analizi, münaqişənin qarşısını almağa yaxud onu başlanğıc mərhələsində dayandırmağa kömək edir;
- *nizamlamanın nəticələri* effektiv nəzarətə imkan verən *qısa və dürüst ifadə edilmiş açıq və dəqiq razılaşmaya əsaslanmalıdır.*

Əlbəttə ki, bütün bu və bəzi digər qaydalar və tövsiyələr universal deyillər. Münaqişə vəziyyətinin bütün faktorlarını nəzərə almaqla onlardan yaradıcılıqla istifadə etmək lazımdır. Lakin onları yaxşı bilmək rəhbərin münaqişələr haqqında bilik səviyyəsini genişləndirir və ona düzgün qərar tapmağa və münaqişələri təhlükəsiz istiqamətə yönəltməyə kömək edir.

**Konfliktlərin funksiyaları**. İctimai fikirdə konfliktlər adətən arzu olunmayan, neqativ bir hadisə kimi başa düşülərək, onun **destruktiv** funksiyası ön plana çıxarılır. Ziddiyətlərin spesifik forması olan konfliktlərin pozitiv, konstruktiv funksiyaları da meydana çıxır. Belə hesab olunur ki, əgər təşkilatda konflikt yoxdursa, deməli təşkilatın idarə olunmasında problemlər var və işlər qaydasında deyil. Eyni zamanda əgər insanlar konfliktdən qaçırlarsa, başqaları ilə konfrontasiyaya girməmək üçün təşkilatdakı nöqsanlara göz yumursa, öz mövqeyini bildirməkdən və nöqsanları deməkdən çəkinirsə, bunlar kollektivin maraqlarına xidmət etmir. Ziddiyətləri vaxtında aşkara çıxarılmırsa və onların səbəbləri öyrənilmirsə, hadisələrin gələcək nəticələri proqnozlaşdırılmırsa, təşkilatın səmərəli, normal fəaliyyəti üçün daha təhlükəli olan daha dağıdıcı konfliktlərin yetişməsi üçün zəmin yaranır. Bir halda konfıktlər **konstruktiv**, digər hallarda isə, **destruktiv** hadisə kimi, fəaliyyətin ahənginə mane olan bir neqativ hal kimi meydana çıxır. Konfliktlərin insanlann əhvalına, fəaliyyətlərinin səmərəliliyinə, onlann fiziki və psixi sağlamlığına etdiyi neqativ təsirləri, onun destruktiv funksiyasına daxildirlər. Konfliktlərin neqativ təsiri nəticəsində, insanlararası münasibətlərin və mənəvi-psixoloji mühitin pisləşməsi, təşkilatın fəaliyyətinin ahənginin pozulması, işin məhsuldanğının və keyfiyyətinin aşağı düşməsi müşahidə olunur. **Konfliktlərin konstnıktiv funksiyası** isə, ziddiyyətlərin bir forması kimi, sağlam rəqabətin, insanların sosial və əmək fəallığının artmasında, insanların rəqabət şəraitində yaşamaq və işləmək səylərinin artmasında, onlarda müsbət motivasiyanın güclənməsində, bunun üçün şəxsiyətin daha mübarizlik keyfiyyətlərinin, məs. bazar iqtisadiyatınm sərt qanunları və

sərt rəqabət şəraitində işləmək potensialının inkişişafmda, təkmilləşməsinə bir stimul rolu oynamasında özünü göstərir.
Şəxsiyyətin daxili konfliktinin nəticəsində yaranan diskomfort, narahatlıq və narazılıq hissi, bir halda şəxsiyyəti daha yüksək fəallığa səfərbər və təhrik edir, həyatda və karyerasında uğurlar qazanmağa sövq edən müsbət motivasiya yaradan amilə çevrilir, digər halda isə daxili psixoloji diskomfort, narahatlıq, şəxsiyyətin fəaliyyətinə destruktiv, pozucu təsir edərək onun səmərəli, məhsuldar fəaliyyət göstərməsinə mane olur. Eyni zamanda, psixoloji və tibbi-bioloji baxımdan da bir sıra arzu olunmaz nəticələrə, o cümlədən, psixi və fiziki sağlamlığın pisləşməsi, bədbinlik, laqeydlik, pessii- mizm, depressiya, psixoloji streslər kimi arzu olunmaz psixoloji halların yaranmasına və müxtəlif psixi-somatik xəstəliklərin inkişafına səbəb ola bilər.

## MÖVZU 7. MÜNAQİŞƏLƏRİN TƏSNİFATININ ƏSAS NÖVLƏRİ

**Konfliktlərin təsnifatı.** Konfliktlərin elmi araşdırılmasında mühüm metodoloji problemlərdən biri, konfliktlərin təsnifatınm yaradılmasıdır. Mürəkkəb struktura malik olan konfliktlərin müxtəlif əsaslara görə, o cümlədən sosial-psixoloji parametrlərinə görə təsnifatı qurula bilər.
A.A.Yerşov aşağıdakı sosial-psixoloji parametrlər əsasında konflitlərin təsnifatını təklif etmişdir:
1. konfliktləri törədən səbəblərə görə növləri;
2. konfliktlərin məzmununa görə növləri;
3. konfliktlərin əhəmiyyətinə görə növləri;
4. konfliktlərin həll olunma üsullarına görə növləri;
5. konfliktlərin təzahür formasına görə növləri;

Elmi ədəbiyyatda müxtəlif meyarlara görə kofliktlərin digər növləri də fərqləndirilir.
1. Əsl konflikt. - Bu konflikt obyektiv və real olaraq baş verir və olduğu kimi də adekvat qavranılır.
2.Təsadüfi və ya şərti konflikt. - Bu konfliktlərin əmələ gəlməsi asanlıqla dəyişən şəraitdən asılı olur, ancaq tərəflər onu olduğu kimi dərk etmirlər.
3. Qarışıq konflikt. - Burada əsl konflikt var, ancaq onun əsasında və arxasında gizli konflikt durur.
4. Düzgün başa düşülməyən konflikt. - Bu konflikt səhv başa düşülməsi və problemin səhv izahı nəticəsində baş verir.
5. Latent konflikt. - Bu konflikt üçün real zəmin olsa da, onun baş tutmaması konflikt vəziyyətinin bu və ya başqa səbəbdən dərk olunmamasıdır.
6. Yalançı konflikt. - Bu konflikt üçün obyektiv əsas yoxdur, ancaq onun düzgün başa düşülməməsi və səhv qavranılmasının nəticəsində konflikt baş verir.

Konfliktlərin nəzəri təhlili nəticəsində müəyyən olunan yanaşma tərzi və prinsiplər onun praktiki problemlərinin həll olmasının xarakterini də şərtləndirir. Konfliktlərin praktiki həlli onların profilaktikasım, onları yaradan səbəblərin müəyyən olunmasını və aradan qaldırılmasını, zəiflədilməsini və s. problemlərin həllini nəzərdə tutur. Konfliktlərin tənzimlənməsinə onun zəiflədilməsi, dondurulması, həlli ilə yanaşı, onun diaqnostikası, proqnozlaşdırılması və nəzarəti də daxildir.
**Konfliktlərin həli olunması**. Konfliktlərin həlli, onun son mərhələsidir. Konfliktlərin həlli üçün bir tərəfdən konflikt yaradan şərait dəyişdirilməli, digər tərəfdən isə, bu vəziyyətin subyektiv inikası olan, subyektiv obrazı dəqiqləşməli və tərəflərin bir-birinə münasibəti dəyişməlidir. Hər iki halda, konfliktin iki həlli yolu mümkündür: konfliktin

qismən həlli - yəni konflikt davranışı istisna olunur, ancaq konfliktin daxili səbəbi aradan qaldırılmır, beləliklə, konfliktin tam həlli baş vermir; konfliktin tam həlli - həm real davranış səviyyəsində, həm də, daxili-psixoloji səviyyədə həyata keçirilir.
Konfliktin həllində obyektiv şəraitin dəyişməsinə misal olaraq, bir otaqda olan, münaqişə tərəflərindən birini başqa otağa və ya başqa şöbəyə keçirmək, onların iş əməliyyatının aparılmasında qarşılıqlı asılılığı aradan götürmək və s. bu kimi tədbirlərə əl atmaqla, tərəflərin bir-biri ilə əlaqəsini, ünsiyyyətini məhdudlaşdırmaq mümkündür. Konfliktin obyektiv səviyyədə qismən həllinə nail olmaqla və konfliktin baş verdiyi obyektiv zəmini aradan qaldırılsa da, tərəflər daxilən, yenə də, əvvəlki mövqelərində qalırlar. Bu halda konfliktin həlli üçün, təhrikedici, inzibati üsullara da əl atmaq və müxtəlif qadağanedici tədbirlər, sanksiyalar tətbiq etmək mümkündür.
Konfliktin həllində sosial-psixoloji yanaşma, konflikt vəziyyəti haqqında tərəflərdə formalaşmış subyektiv obrazın, onların dəyərlər sistemini, sosial yönəlişini, motivlərini, münasibətlərini və s. dəyişilməsini nəzərdə tutur. **Bunun üçün müxtəlif psixoloji təsir vasitələrindən: izah etmə, inandırma, təlqin etmə və s. üsullardan istifadə oluna bilər**. Konfliktlərin dinamikasinda mühüm məqam, konfliktin bir formadan başqa formaya keçməsidir. Məs.: şəxsiyyətdaxili, qrupdaxili konfliktin şəxslərarası, qruplararası konfliktlərə keçməsi və əksinə, xarici, real konfliktlərin daxili plana, latent konflikt vəziyyətinə keçməsi və ya müvəqqəti olaraq konfliktin söndürülməsi və s. Məs, konfliktin xarici təzahürü aradan qaldırılsa da, tərəflərin konfliktə olan münasibətləri aradan götürülmür, konflikt ancaq söndürülür və reallaşmamış təlabat kimi əlverişli şərait yaranan kimi yenidən aktuallaşa və alovlana bilər, konflikt davranışı isə daha böyük güclə özünü büruzə verə bilər. Məs.: şəxsi zəmində yaranmış konflikt işgüzar konfliktə və ya əksinə, iş zəminində yaranmış konfliktlər isə şəxsi məna kəsb edən konfliktə çevrilə bilər.
Konfliktlərin həll olunmasında ilkin şərtlərdən biri, yaranmış konfliktin mahiyyətinin və onu törədən səbəblərin müəyyən olmasıdır. Qeyd etdiyimiz kimi idarəetmədə konfliktlər müxtəlif səbəblərdən, o cümlədən, işgüzar və şəxsiyyətlərarası münasibətlər zəminində yarana bilər. Xüsusilə də, səxsiyətlərarası konfliktlər, daha çox psixoloji zəmində yaranır və psixoloji mahiyyət daşıyırlar. Bunlara misal olaraq tərəflərin bir-birini başa düşməməsi, eyni hadisəyə fərqli münasibətlərinin olması, insanların bir-birinə dözümsüzlüyü, rəğbətin olmaması, şəxsiyyətin konfliktli və çətin xarakterə malk olması və s. konfliktləri göstərmək olar.
Konfliktlərin konstruktiv həlli üçün tərəflər arasında qarşılıqlı maraq doğuran münasibətlərin və ünsiyyətin qurulması vacidir. Aşağıdakı ünsiyyət formalanndan istifadə oluna bilər: a) elə mülahizələr ifadə etmək lazımdır ki, qarşı tərəf sizin onu başa düşdüyünüzə əmin olsun; b) öz niyyətlərininzi, keçirdiyiniz hissləri, münasibətinizi səmimi ifadə etmək; c) partnyorunuzu və onun davranışını qavradığmız haqqında onu məlumatlandırmaq üçün əks əlaqənin təmin edilməsi; ç) təsdiq edin ki, qarşı tərəfi şəxsiyyət kimi qəbul edirsiniz və qavrayırsınız.
Konfliktin həlli üçün qarşılıqlı inam və əməkdaşlıq mühitinin yaradılması vacibdir. Əgər tərəflər ümumi nəticəyə gəlməkdə maraqlıdırlarsa və əməkdaşlığa can atırlarsa, konfliktin uğurla daha tez həlli etimalı çoxalır. Ümumi məqsədin, marağın olması və birgə fəaliyyət, iş təcrübəsi tərəfləri bir-birinə yaxınlaşdırır. Maraqlıdır ki, konfliktin iştirakçılan çox vaxt təsəvvür etmirlər ki, onlar həm də əməkdaşlıq edə bilərlər. Buna görə də, əməkdaşlığın hər iki tərəfin maraqlarına uyğun olduğunu təlqin etmək və inandırmaq konfliktin həllini sürətləndirir.

Konfliktin həllinə kömək edən amillərdən biri də, tərəflərin konfliktin mahiyyətini və onu törədən səbəblərini, burada öz məsuliyyətini və rollarını dərk etmələridir. Bu isə, tərəflərin şəxsi keyfiyyətlərindən və intellektual səviyyələrindən də asılı olur.

Münaqişənin mühüm əlamətlərindən birini onda iştirak edən tərəflərin xarakteri və xüsusiyyətləri təşkil edir. Münaqişənin xarakteristikası həlledici surətdə münaqişə tərəflərinin kiminlə təmsil olunmasından asılıdır.

**Konfliktlərin təsnifatında əsas yerlərdən birini tutan sosial münaqişələrin aşağıda sadalanan bir neçə növü fərqləndirilir:**

1)Şəxsiyyətlərarası münaqişələr iki adamın mənafelərinin toqquşmasından ibarətdir.

2)Şöbə rəisi özünü tabeçiliyində olan bir qrup işçiyə qarşı qoyduqda bu, «şəxsiyyət-qrup» tipli münaqişə olacaqdır.

3)Orta məktəbin şagird kollektivində direktorun tərəfdarlarının və əleyhdarlarının arasında mübarizə kiçik qruplar arasında mübarizədir,

4)Orta sosial qruplar kəmiyyət tərkibi etibarilə kiçik və böyük qruplar arasında aralıq mövqe tutur.

5)Münaqişə iştirakçılannm sayı bir neçə yüz adamdan artıq olduqda bu, böyük sosial qruplar arasında münaqişədir.

Dövlətlərarası münaqişələr iki dövlət, yaxud dövlətlərin koalisiyaları arasında mübarizədən ibarətdir. Dövlətlə dövlətlər qrupu arasında da münaqişə yarana bilər. Bundan başqa, dövlətlərin koalisiyaları bir neçə iştirakçıdan çoxlu sayda iştirakçıya qədər dövlətləri əhatə edə bilər. Bu, beynəlxalq münaqişənin xarakterinə təsir göstərir.

Münaqişənin ən mühüm xüsusiyyətini insanın təmin edilməsi uğrunda mübarizə apardığı tələbatının xarakteri təşkil edir. A.Maslovun nəzəriyyəsinə görə, tələbatları beş iyerarxik əlaqəli səviyyəni fərqləndirməklə qruplaşdırmaq olar. Onlara aşağıdakı tələbatlar aiddir:

1) fizioloji;
2) təhlükəsizlik və müdafiə;
3) sosial;
4) ehtiram;
5) özünüifadə.

Bu tələbatlardan hər hansı birinin təmin edilməməsi halında insan münaqişəyə gedə bilər. Nəticədə münaqişələrin beş tipini fərqləndirmək olar.

Ziddiyyətin tipindən asılı olaraq, münaqişələri antaqonist ziddiyyətin nəticəsi kimi və qeyri-antaqonist ziddiyyətin nəticəsi kimi yaranmış münaqişələrə ayırmaq olar.

Münaqişənin mühüm xarakteristikasını onda iştirak edən tərəflərin qarşıdurmasının kəskinliyi təşkil edir. Qərb psixologiyasında bu xarakteristika münaqişənin intensivliyi adlandırılır. Bu əsas üzrə aşağı, orta və yüksək intensivliyə malik münaqişələr fərqləndirilir. Aşağı intensivliyə malik münaqişə opponentlər arasında mübahisə formasında cərəyan edir. Ən yüksək intensivliyə malik münaqişə tərəflərdən birinin fiziki məhvi ilə başa çatır.

Münaqişələrin baş verdiyi insan fəaliyyəti sahələrindən asılı olaraq, onlar sosial, siyasi, millətlərarası, dövlətlərarası və s. münaqişələrə ayrılır.

**Ailədaxili münaqişələr və onların aradan qaldırılması**

Ailədaxili münaqişələrin baş verməsindən öncə ailə daxilində psixoloji iqlimin nə yerdə olduğunu müəyyən etmək vacibdir. Çünki ailədaxili münaqişənin yaranmasının ilkin səbəbləri ailədə psixoloji iqlimin pozulması zamanı baş verir. Yəni ailədə hər hansı bir münaqişə yaranarkən ilk növbədə ailədəki psixoloji mühiti analiz etmək lazımdır.

**Ailənin psixoloji iqlimi dedikdə ərlə arvadın, valideynlərlə uşaqların, uşaqlarla uşaqların qarşılıqlı münasibətlərin xarakteri nəzərdə tutulur**. Ailədaxili münasibətlər də öz növbəsində ailənin psixoloji iqlimini əks etdirir. Məsələn, ailədə baş vermiş hər hansı xoşagəlməz hadisə ailədaxili münasibətlərdə istər-istəməz soyuqluq yaradır, ailədaxili münasibətlərdə narazılıq baş verir.

Ailənin psixoloji iqliminə həm də başqa amillər də təsir göstərir ki, bunun nəticəsində də ailədə qanqaraçılıq, əhval-ruhiyyənin pozulması, bədbinlik yaranır. Ailə daxilində sanki bir durğunluq yaranır, hər kəsdə özünəqapanma prosesi baş verir. Bu hal günlərlə, hətta həftələrlə davam edə bilər. Bu gərgin vəziyyətdən çıxmaq üçün ailə başçısının üzərinə böyük məsuliyyət düşür. Çünki ailənin əsas aparıcı və qərarverici şəxsi ər hesab olunur. Əlbəttə, bu demokratik prinsiplərlə idarə olunan ailələrə şamil olunmur. Bu avtoritar qaydalarla idarə olunan ailələrə aiddir.

Ailə münasibətləri möhkəm təməl - yəni qarşılıqlı sevgi, qarşılıqlı hörmət və rəğbət, qarşılıqlı inam, etibar, vəfa, qarşılıqlı güzəşt və s. üzərində qurulmayıbsa, o zaman ailədaxili psixoloji iqlimin pozulması nəticəsində həmin ailədə ərlə arvad arasında soyuma, bir-birindən uzaqlaşma, bir-birini günahlandırma, təqsiri kiminsə boynuna almağa çalışmaması və evdə yersiz söhbətlərin günlərlə davam etməsi halları baş verir. Və belə hadisələr hətta sonda ərlə arvadın boşanmasına səbəb ola bilər. Ailədaxili psixoloji iqlim hər bir ailə üçün həyati əhəmiyyət kəsb edir.

Ailədə əlverişli psixoloji iqlimin yaranması üçün ilk növbədə ərin üzərinə böyük məsuliyyət düşür. Çünki ər ailədaxili nizam-intizamı, davranış qaydalarını, səmimi münasibətlərin formalaşdırılmasını, bir-birinə hörmətlə yanaşmanın, qarşılıqlı anlaşmanın, emosional halların tənzim olunmasının təmin edilməsinə nəzarət etməlidir. Ailədə ərin özünə qarşı tələbkarlığı ailənin digər üzvlərinə qarşı eyni münasibətdə olduğunu sübut etməlidir. O, bunu ailədaxilində özünün rəftar və davranışında göstərməlidir. Yəni hər şeydən öncə, valideyn ailədə övladları üçün bir nümunə olmalıdır.

Eyni zamanda uşaqların tərbiyəsi ailədə valideynlərdən çox asılıdır. Demək, ailədə əlverişli psixoloji iqlimi ilk növbədə ər və arvad yaratmalıdır. Psixoloqların fikrincə, ailədə psixoloji iqlimin yaradılmasında ana daha fəal rol oynamalıdır. Çünki ailə daxilində yaranan emosional münasibətlərin mərkəzində məhz ana dayanır. Ana ataya nisbətən övladlarını daha yaxşı başa düşür, onlarla daha asan dil tapmağı bacarır. Ailədə qarşılıqlı hörmət və tələbkarlıq, qarşılıqlı etimad və kömək normal olmalıdır. Bu hallar ailədə movcud deyilsə, o zaman həmin ailədəki əlverişli psixolji iqlimdən söhbət belə gedə bilməz. Ailədə xırda məsələlər üzündən yersiz söz-söhbətin yaranması, tərəflərin bir-birini günahlandırması, kiminsə güzəştə getməməsi, hətta bu zaman tərəflərin bir-birini təhqir etməsi səviyyəsinə qalxması ailədə psixoloji iqlimin korlanmasına zəmin yaradır. Ancaq möhkəm təməl üzərində qurulmuş ailələrdə, yəni uğurlu ailələrdə belə hallarda qarşılıqlı güzəşt, nöqsanlara dözmək, bir-birini səbrlə dinləməyi bacarmaq, hər iki tərəfin öz səhvini başa düşməsi, bir-birinin şəxsiyyətinə hörmət etməsi, bir-birinə qayğı ilə yanaşması halları ilə qarşılaşırıq.

Hər bir ailədə xırda da olsa söz-söhbət, kiçik münaqişələr olur. Bəzən elə başa düşülür ki, bu münaqişələri asanlıqla həll edə bilən insanların hamısı möhkəm səbrə, güclü iradəyə, geniş dünyagörüşünə malik, özünə güvənən, cəsarətli şəxslərdir. Ancaq bu hər zaman belə olmur. Bildiyimiz kimi ailədaxili problemləri asanlıqla həll etmək hər zaman mümkün olmur. Problemləri həll etməyin əsasında ilk olaraq tərəflər arasındakı danışıqlar, məsələləri aydınlaşdırma, bir-birini səbrlə dinləmə durur. Əsəbləşmədən,

təmkinlə, qarşılıqlı anlaşma yolu ilə, tərəflər arasında mövcud olan möhkəm etibar hissini əldə əsas tutaraq münaqişəni, yaranmış problemi həll etmək mümkündür. Bu zaman tərəflərin bir-birinə güzəştə getmək bacarığını və istəyini hökmən nəzərə almaq lazımdır. Ancaq bəzi hallarda tərəflər ailədə baş verən münaqişə və problemlərin həllinə laqeyd yanaşaraq onun daha da dərinləşməsinə rəvac verirlər. Bu zaman tərəflərin heç birisi öz səhvini görmək istəmir və bir-birlərinə güzəştə getmirlər. Belə olan halda ailədaxili ziddiyyət daha geniş vüsət alır, onun həll edilməsi müşkül məsələyə çevrilir. Bu vaxt yeganə çıxış yolu tərəflərdən birisinin hökmən güzəştə getməsi vacibdir. Güzəştə getməyin ən əsas xüsusiyyətlərindən biri qarşı tərəfə səhv etmək imkanını tanımaqdır. Onun üzərinə çox getməmək gərəkdir. Qarşı tərəfin hərəkətini qınamaq, ona şübhə ilə yanaşmaq, onda səhv axtarmağa cəhd göstərmək yersiz hesab edilməlidir. Əks təqdirdə gələcəkdə bu qarşı tərəfin daha böyük səhvlər etməsinə şərait yaradar. Onu da unutmamalıyıq ki, həyatda səhvsiz adam, ideal insan yoxdur.

Mütəxəssislərin fikrincə, ailədaxili münaqişələrin yaranmasında kişilərin işsizliyi, qadınların cəmiyyətdəki rolunun artması böyük rol oynayır. Bu günə kimi azərbaycanlı ailələrdə adətən əməyin ənənəvi bölgüsü aparılıb. Yəni ər işləyib evə pul gətirir, arvad isə evdə uşaqların tərbiyəsi və ev işləri ilə məşğul olur. Ev işlərində və uşaqların tərbiyəsi ilə kişilərin az məşğul olması və ya heç məşğul olmaması da ailədaxili münaqişələrə, gərginliyə, yersiz söz-söhbətlərə, incikliklərə gətirib çıxarır.

**Ailə münaqişələri müxtəlif səbəblərinə görə fərqlənir. Onlardan ən önəmliləri aşağıdakılardır:**

- ailə üzvlərinin özünü ifadə etməsi azadlığının məhdudlaşdırılması;
- ailənin qəbul etdiyi davranış normalarından kənara çıxması;
- ailədə əks meyllərin, əks maraqların meydana çıxması;
- ailədə tərəflərdən kiminsə tələbatının ödənilməməsi;
- ailənin avtoritar formada idarə edilməsi;
- ailədə maddi problemlərin mövcudluğu;
- ailəyə kənar müdaxilənin olması;
- ailədə qısqanclığın və xəyanətin sezilməsi;
- ailədə qarşılıqlı güzəştin olmaması;
- ailədə tərəflər arasında təkəbbürlülüyün olması;
- ailədə tərəflərin ailə məsuliyyətini lazımınca dərk etməmələri;
- ailədə tərəflər arasında qısqanclıq hissinin güclü olması;
- ailədə maddi və mənəvi təlabatlara kəskin ehtiyac duyulması;
- ailədə tərəflərin seksual disharmoniyası və s.

Ailədaxili münaqişələrin baş verməsində özünüqiymətləndirmənin də rolu az deyildir. Çünki tərəflərdən hər hansı biri ailədə özünü yüksək qiymətləndirirsə, bu zaman ailədə istər-istəməz narazılıq yaranır. Ər özünü yüksək qiymətləndirirsə, bu halda evdə ancaq onun dediyi fikir, söz və qərarın əsas götürülməsi deməkdir. Yəni ailədə arvadın dediyi ən ağıllı fikir belə ər tərəfindən qəbuledilməz hesab olunur. Və bu zaman ailədaxili narazılıq, münaqişə baş verir. Amma ailədaxili söz-söhbətin olmaması, narazılığın yaranmaması və münaqişənin baş verməməsi üçün gərəkdir ki, tərəflərin hər ikisi özünü adekvat qiymətləndirsinlər. Yəni tərəflər ailədə həm öz fikirlərində, davranışlarında, münasibətlərində korrektə etməlidirlər. Bu zaman ailədə qarşılıqlı anlaşma, qarşılıqlı hörmət və rəftar, səmimi münasibət yaranır ki, bunun da nəticəsində ailədaxili münaqişədən qaçılmış oluruq.

Kişi heç bir halda özünü qadından üstün tutmamalı, öz fikir və qərarlarını zorla ona qəbul etdirməməlidir. Qadının ona kor-koranə qulaq asmasına, ona itaət etməsinə təkid etməməlidir. Yəni ailədə kişi patriarxal qaydalar tətbiq etməməlidir. Çünki bu kimi adət-ənənələr artıq keçmişdə qalıb. Belə olan halda müasir dövrdə yaşadığımızı, cəmiyyətdə qadınla kişinin bərabər hüquqa malik olduğunu, qadınların düşüncə tərzində böyük dəyişikliklərin baş verdiyini unutmamalıyıq. Deməli, ailədə tərəflər özlərinin həm cəmiyyət qarşısında, həm də ailə daxilində hüquqlarını, məsuliyyətlərini, ailə qurarkən götürdükləri öhdəliklərini dərk etməli, münasibətlərində bir-birlərini aşağılayıcı, təhqiramiz ifadələrə yol verməməlidirlər.
Ailədə sağlam düşüncə tərzi formalaşmalıdır ki, ailədaxili münaqişələrdən qaçılmış olsun. Əgər ailədə qadınla kişi arasındakı münasibət ədalət və bərabərliyə əsaslanırsa, tərəflərdən biri o birisinə həqarətlə baxmırsa, biri özünü o birisindən üstün tutmursa, bir-birinə qarşılıqlı hörmətlə yanaşırsa, rəftar və davranışlarında bir-birinə xoş məram nümayiş etdirirlərsə, belə ailələr uğurlu və uzunömürlü ailələrdən olacaq.
Ailədə həmçinin qarşılıqlı ehtiram, yoldaşlıq münasibətləri hökm sürməlidir. Amma biz qadın xarakteri ilə kişi xarakteri arasındakı bir çox fərqlərin olmasını heç də unutmamalıyıq. Amerikan psixoloqun dediyi kimi, “Qadın dünyası kişi dünyasından tamamilə fərqlidir”. Ailədə istər-istəməz qadın və kişi fərqli düşüncələrə sahibdirlər. Hər iki tərəfin özünəməxsus üstün cəhətləri vardır ki, bu zaman tərəflər bunu nəzərə alaraq bir-birlərilə sağlam səmimi münasibət qurmalıdırlar. Bu halda ailədə münaqişələrdən və yersiz söz-söhbətlərdən qaçmaq mümkündür.
Ailədaxili münaqişələrdən danışarkən uşaqlarla valideynlər arasındakı münaqişələri də xüsusilə qeyd etmək lazımdır. Ailə üzvləri arasında münasibətlərin pozulması ailədə tələbatların ödənilməməsi zərurətindən irəli gəlir. Belə ki, ailə üzvlərinin maddi (mənzil, ərzaq, geyim və s.) tələbatları ilə yanaşı mənəvi sosial tələbatları - hörmət, qayğı, nəvaziş, şəxsi ləyaqətin təsdiqi, özünün gərəkli olduğunu dərk etməyi, ünsiyyət tələbatı, qarşılıqlı anlaşmaya və ehtirama və s. olan tələbataları da ödənilməlidir. Ailədə maddi və mənəvi tələbatların ödənilməsi hər bir ailə üzvünün mənəvi rahatlığını təmin edir, ailə münasibətlərinin tənzimlənməsində mühüm əhəmiyyət kəsb edir.
Ailədaxili münaqişələr özlüyündə kiçik deyil, qlobal problem hesab olunur. Çünki ailədaxili münaqişələrə bir çox amillər təsir edir. Onu da unutmamalıyıq ki, ailə cəmiyyətin əsas nüvəsini təşkil edir. Cəmiyyətin inkişafı ilk növbədə ailənin sabitliyindən, rifahından, ailə münasibətlərinin əxlaqi və mənəvi dəyərlər əsasında təşkilindən asılıdır. Cəmiyyət həmişə çalışır ki, ailənin bünövrəsi sağlam təməl əsasında qurulsun.
Ailə münasibətlərinin tənzimi üçün müxtəlif qanunvericilik aktlarından istifadə olunur. Bu aktlarda hər bir ailə üzvünün hüquq və vəzifələri də əks etdirilmişdir. Ailədaxili münaqişələrin təzahür sahələrinə uşaqlar, ailə üzvləri, yaxın qohumlar və dostlar, cəmiyyət aid edilir. Hər bir normal ailə şəraitində boya-başa çatan uşaqlarda yüksək əxlaqi keyfiyyətlər, insanlara hörmətlə yanaşma, özündən kiçiklərə qayğı göstərmək və kömək etmək, yoldaşlarına qarşı rəftar və davranışlarında səmimiyyət hissinin yüksək olması təşəkkül tapır. Münaqişəli ailələrdə isə uşaqlarda insan münasibətlərinin pis nümunələrini nümayiş etdirirlər.Ailədaxili münaqişələr bütün ailə üzvlərinə təsir etməklə yanaşı, yaxın qohum və dostlara, son nəticədə isə ümumən cəmiyyətə mənfi təsir göstərir. Ona görə də həmin təsirləri və mənfi nəticələri təfsilatı ilə şərh etmədən əsas məsələnin həmin münaqişələrin vaxtında düzgün təhlil edilməsi, onları doğuran

səbəb və nəticələrin dəqiq müəyyənləşdirilməsi və aradan qaldırılması üçün adekvat yol və vasitələrin tapılmasındadır.
Psixoloqların fikrincə ilkin nikaha qoşulan gənclər hökmən psixoloji testlərdən keçməlidir. Bu testlər "Anket sorğuları" ( buraya şifahi sorğu, yazılı sorğu və sərbəst sorğu daxildir. – C.Z), və "Proyektiv metodlardan" istifadə edilməklə yeni evlənən cütlüklər arasında aparılmalıdır. **Proyektiv testlər dedikdə**, onlar daxili proyeksiya dinamikası doğuran qeyri-müəyyən stimulların təqdimi əsasında yoxlananların şəxsiyyətini tamlıqda öyrənməyə imkan verən metodikadır. Bu cür testlərə Rorşarx testini, Tematik apperseptiv testi (TAT), Şarl Kox və Rene Storun "Ağac" testini, "Mövcud olmayan heyvanlar" testini aid etmək olar. Məsələn, TAT-ın tətbiqi zamanı yoxlanan adam ona təqdim olunan şəkildə baş verən hadisələri təsvir edir və bu zaman həmin hadisələrə öz daxili hiss və məramını ifadə edir (şəkillər elə tərtib olunur ki, onları müxtəlif şəkildə şərh etmək mümkün olsun). Testlərin nəticələri psixoloq tərəfindən hərtərəfli təhlil edilməli və doğru-dürüst nəticə əldə edilməlidir. Testlərin nəticələri imkan verəcəkdir ki, yeni evlənənlərin xarakterik xüsusiyyətləri məlum olsun. Bu psixoloji testlər tərəflərin bir-birindən saxladığı xarakterik xüsusiyyətlərin hətta, ən kiçik və gizli detalları belə psixoloq tərəfindən müəyyən edilir. Bundan sonra psixoloq tərəflərlə əvvəlcə ayrı-ayrılıqda, daha sonra isə birlikdə söhbət aparmalıdır. Hər iki tərəfin çatışmayan cəhətləri ortalığa qoyulmalı və bunların aradan qaldırılmasında müxtəlif üsul və vasitələrdən istifadə edilməli, birlikdə çıxış yolları arayıb tapılmalıdır. Bu zaman tərəflər öz səhvlərini etiraf etməyi bacarmalıdırlar və bunların aradan qaldırılmasında qarşılıqlı cəhd göstərməlidirlər. Bu zaman psixoloq psixoloji məsləhətlərdən istifadə etməlidir.
Ailə başçısı bağışlamağı bacarmalıdır. Bu, şəxsin alicənablığından və əxlaqından irəli gəlir. İffət, namus, qarşılıqlı hörmət və məhəbbət ailənin açarı və sifətidir. İnsanın səxavəti, mədəniyyəti və əxlaqı varsa heç vaxt zora arxalanmaz, kobudluğa yol verməz. Ailədə kişi idarəçilikdə zordan istifadə etməz. Çünki zor Allah tərəfindən bağışlanmayan bir günah kimi qəbul edilir. İslama görə kişinin qadın, qadının da kişinin boynunda haqqı var. Məhəmməd Peyğəmbər (s.ə.s.) buyurur: "Hər kim zövcəsini vursa, qiyamətdə mən onun düşməniyəm. Qadınlarınızı incitməyin. Zövcəyə xidmət etmək böyük günahların kəffarəsi sayılır. Allahın qəzəbini soyudur..."
R. Taqor belə bir fikir söyləmişdir: "Kişi ağzı kəsməz kor baltadır o, işləndikcə itilənər. Qadın isə incə almazdır, onu zora salmaq olmaz" Ailə başçısı kimi kişi, bu vəzifəni ləyaqətlə yerinə yetirməyi bacarmalı, idarəçilikdə ədalətə, insafa, əxlaqa, ədəbə, hörmət və məhəbbətə söykənməli, onlardan faydalanmalıdır. Kişinin vəzifəsidir ki, ailə həyatının mühitində öz ömür-gün yoldaşı ilə ədəb və kəramətlə rəftar etsin, onun xətalarının üstündən sükutla keçsin, səbrli olsun. Bu minvalla ailə həyatı da davamlı olar.

**Etnik münaqişələrin həlli haqqında bəzi mülahizələr**

Etnik münaqişələrin yaranması səbəbləri müxtəlif, tarixi isə uzundur desək, yanılmarıq. Lakin XX əsrin II yarısından başlayaraq etnik münaqişələrin edildiyindən, dünyanın bir sıra bölgələrində yaranan münaqişə ocaqlarının söndürülməsi istiqamətində müəyyən təşkilatlar yaranmışdır. Bir sıra ölkələrdə on illərdir ki, müəyyən orqanlar bu sahədə işlər görürlər. Bəzi ölkələrdə hələ keçən əsrin 2-ci yarısından bir sıra təşkilatlar etnik münaqişələrin öyrənilməsi və təhlili ilə məşğul olmağa başlamışdılar. **Adətən, makrosəviyyədə etnik münaqişələrin həlli strategiyasının üç əsas növü xüsusi seçilirdi**: 1) hüquqi mexanizmlərin tətbiqi; 2) danışıqlar; 3) informasiya yolu;

Qeyd etdiyimiz birinci strategiyanın reallaşdırılması çətin nail olunan bir işdir; burada çoxetnoslu dövlətlərdə bütün qanunvericiliyin dəyişilməsi tələb olunur. Hər bir cəmiyyətdə qruplar, daha doğrusu, etnoslar arasında imtiyazlar düzgün bölüşdürülmürsə (məsələn, İsraildə yəhudilər və ərəblər arasında, Latviyada latışlar və ruslar arasında), o zaman sosial strukturda harmoniya yaratmaqdan ötəri etnoslar arasındakı münasibətlərdə mütləq dəyişikliklər yaratmaq lazımdır.
Münaqişələrin həllinin informasiya yoluna gəldikdə burada obyektivlik daha böyük rol oynayır.Problemin tədqiqatçılarının fikrincə, informasiyaların verilməsində obyektivlik işin həllində yardımçı rolunu oynaya bilər.
Etnik münaqşişələrin siyasi, o cümlədən psixoloji metodlarla tam şəkildə həll edilməsi utopiyadır. Bu barədə həm Freydin, həm də K. Lorensin fikirləri bizə imkan verir ki, öz mülahizələrimizin düzgün olduğunu sübut edək. Freydin fikrincə, insanın aqressiyasının (təcavüzünün) istiqamətini elə dəyişmək lazımdır ki, o öz ifadəsini müharibədə tapmasın. Buna identifikasıya yolu ilə insanlar arasında emosianal əlaqələrin yaranması mühüm rol oynaya bilər. Freyd bunu hisslərin vəhdətinə nail olmaq kimi başa düşürdü. Özünün «Aqressiya» (təcavüz) əsərində Nobel mükafatı laureatı, Avstriya alimi K. Lorens bəşəriyyətin 8 günahından danışır. Onların içərisində 6-cı dəhşətli günah xüsusi qeyd edilməlidir. Onun fikrincə, bu günah ənənə ilə əlaqənin kəsilməsi ilə bağlıdır. Ənənə keçmişdə mövcud olan insanların təcrübəsi ilə müəyyənləşdirilən mədəniyyət normalarıdır. Mühafizəkarlıq deyə həmin təcrübədən imtina edilməsi bu gün üçün yararlı hesab olunmur, elə buna görə də insanların ənənələrlə əlaqəsi kəsilir. Təsadüfi deyildir ki, gənclik böyüklərə özgə yarıetnik qrup kimi baxırlar. K. Lorensin sözləri ilə desək, onlara qarşı «milli nifrət» hissi bəsləyirlər. Bu tendensiya valideynlərlə övladlar arasında kontaktın zəifləməsi daha doğrusu, kifayət qədər olmaması səbəbinə güclənir. Həmin meylin nəticəsi bu gün daha ağrılı hiss olunmaqdadır. Bu problem etnik münaqişələrin həll olunmasına da təsir göstərmişdir.

## MÖVZU 8. KONFLİKTLƏRİN HƏLL OLUNMASININ METODLARI

Münaqişələrin idarə olunmasının bir neçə effektiv üsulu vardır. Onları da öz növbəsində **iki qrupa** bölmək olar. **Bunlar struktur və şəxsiyyətlərarası metodlardır**. Qeyd etdiyimiz kimi rəhbərlər münaqişə situasiyanının səbəbini xarakterlərdə olan sadə fərqlilik kimi qəbul etməməlidirlər. Əlbəttə bu fərq hansısa konkret vəziyyətdə münaqişənin səbəbi ola bilər. Lakin, səbəb münaqişə yaradan amillərdən yalnız biridir. Hər bir rəhbər münaqişəni təhlil edərkən faktiki səbəblərdən başlamalıdır, daha sonra isə müvafiq metodlardan istifadə etməlidir. Münaqişə ehtimalını münaqişənin həll edilməsi metodikasından istifadə etməklə azaltmaq olar.
**Struktur metodları**. Münaqişələrin həll edilməsinin **4** struktur metodu vardır. **Bunlar:**
**işə olan tələbatın aydınlaşdırılması,**
**koordinasiya edilmiş və inteqrasiya olunmuş metodlardan istifadə edilməsi,**
**ümumtəşkilati kompleks məqsədlərdən istifadə edilməsi,**
**mükafatlandırma sistemindən istifadə edilməsi metodlarıdır.**
**İşə olan tələbatın aydınlaşdırılması.** Disfunksional münaqişənin qarşısını alan idarəetmənin ən yaxşı metodlarından biri hər bir əməkdaşdan və şöbədən hansı nəticələrin alınmasını müəyyən etməkdir. Burada nail olunmalı olan nəticələrin səviyyəsi, müxtəlif informasiyanı almalı olan şəxslərin adı, parametrlər, səlahiyyət və məsuliyyət sistemi,, həmçinin siyasət, qayda və prosedurlar dəqiq müəyyən edilməlidir.

Həmçinin rəhbər bütün bu məsələləri özü üçün deyil, tabeçilikdə olanlar üçün aydınlaşdırır ki, onlar hər bir situasiyada nə etməli olduqlarını dəqiq bilsinlər.
***Koordinasiya edilmiş və inteqrasiya olunmuş mexanizmlər***. Münaqişə situasiyanın həll edilməsinin daha bir metodu koordinasiya edilmiş mexanizmlərin tətbiq olunması metodudur. Ən geniş yayılmış mexanizmlərdən biri - əmrlər zənciridir. **Veberin** və administrativ məktəbin nümayəndələrinin uzun illər bundan əvvəl qeyd etdikləri kimi səlahiyyət iyerarxiyasının qurulması insanların qarşılıqlı fəaliyyətini nizama salır, təşkilatda qərarların qəbul edilməsi və informasiya axını tənzimləyir. Əgər iki və daha artıq tabeçilikdə olan şəxs hər hansı məsələ səbəbindən fikir ayrılığına gəlirsə, münaqişədən qaçmaq üçün onların ümumi rəhbərinə münaqişədən qaçmaq üçün qərar verməsi üçün müraciət etmək olar. Təkrəhbərlilik prinsipi münaqişə situasiyalarda iyerarxiyanın istifadəsini asanlaşdırır, çünki tabeçilikdə olanlar kimin qərarlarına tabe olacaqlarını bilirlər.
Münaqişə situasiyanın həll edilməsində idarəetmə iyerarxiyası, funksiyalar arasında əlaqə yaradan xidmətlərdən istifadə edilməsi, funksiyalararası qruplar, məqsədli qruplar, şöbələrarası iclaslar kimi inteqrasiya vasitələri çox faydalıdır. Tədqiqatlar göstərmişdir ki, onlara lazım olan səviyyədə inteqrasiyanı dəstəkləyən təşkilatlar bunu etməyən digər təşkilatlarla müqayisədə  daha çox effektivliyə nail olurlar. Məsələn, bir-biri ilə qarşılıqlı asılılıqda olan bölmələr arasında konflikt yaranıbsa – satış və istehsal şöbəsi sifarişlərin həcmini və satışı koordinasiya edən aralıq xidmət yaradaraq problemi həll edə bilərlər. Bu xidmət satış şöbəsi və istehsal şöbəsi arasında əlaqə yaradaraq satışa tələbat və istehsal güclərinin yüklənməsi, qiymətəmələgəlmə və çatdırılma qrafikləri kimi məsələləri həll edirdi.
***Ümumtəşkilati kompleks məqsədlər***.Ümumtəşkilati kompleks məqsədlərin müəyyən edilməsi münaqişələrin həll edilməsinin daha bir struktur metodudur. Bu məqsədlərə effektiv nail olunması iki və daha artıq əməkdaşın, qrupun, şöbənin birgə səylərini (gücünü) tələb edir. Bu yüksək məqsədə aid edilən ideyalar- bütün iştirakçıların güclərinin ümumi məqsədlər nail olunmasına yönəldəcəkdir. Məsələn, istehsal şöbəsinin üç növbəsində çalışan işçilər öz aralarında münaqişə edirlər. Bu münaqişənin qarşısını almaq üçün, hər növbə üçün deyil ümumilikdə istehsal şöbəsi üçün ümumi məqsədlərin qoyulması tələb olunur. Analoji olaraq bütün təşkilat üçün konkret və dəqiq formalaşdırılmış məqsədlər şöbə rəhbərlərinə sadəcə öz şöbələri üçün deyil, bütün təşkilatın mənafeyinə xidmət edəcək qərarların qəbul edilməsinə imkan verəcəkdir. Təşkilati baxımdan yüksək prinsip və dəyərlərin yaradılması kompleks məqsədlərin tərkibini aydınlaşdırır. Təşkilat bütöv heyətin fəaliyyətində daha çox uyğunluğa nail olmaq üçün münaqişə ehtimalını aşağı salmaqdan ötrü ümumtəşkilati məqsədlər qoyur.
Belə bir misala baxaq. Məşhur Mcdonalds şirkətinin kompleks məqsədlərini müəyyən edən professorlar Paskal və Atos belə deyirlər: Cəld xidmət göstərən restoranlar imperiyasını yaradan Mcdonalds diqqəti sadəcə qiymətə deyil keyfiyyətə və bazar payına da yönəltmişdir. Şirkət rəhbərliyi hesab edirdi ki, onlar həqiqətən də məhdud vəsaitləri olan amerikalılara xidmət göstərirlər. Bu "sosial missiya" operativ məqsədlərə daha çox diqqət ayrılmasına gətirib çıxardı. Müəssisələrdəki aşbazlar və ofisiantlar sinələrinə taxdıqları  " Mcdonalds" brendi altında işləyərək, bu məqsədlərə faydalı nümunə kimi yanaşırlar və keyfiyyətə nəzarət sisteminin sərt və dayanıqlı olmasına xidmət göstərirlər. Əgər yüksək standartlar cəmiyyətə xidmət edirsə, onlara riayət etmək asan olur.

***Mükafatlandırma sisteminin strukturu***. Mükafatlandırmanı münaqişənin həll edilməsi metodu hesab edə bilərik. Ümumtəşkilati kompleks məqsədlərə töhfə verən, təşkilatın digər qruplarına kömək edən, qərarların qəbulu prosesinə kompleks yanaşan insanlar təşəkkürlər, mükafatlar, vəzifəyə təsdiq, vəzifədə yüksəliş kimi vasitələrlə mükafatlandırılmalıdırlar. Lakin mükafatlandırma sistemi elə qurulmalıdır ki, digər insanların və qrupların qeyri- konstruktiv davranışına səbəb olmasın. Məsələn, əgər satış şöbəsinin rəhbəri sadəcə satılan məhsulun həcminin. Mükafatlandırma sisteminn düzgün koordinasiya edilməsi insanlara sübut edir ki, ümumtəşkilati məqsədlərə nail olmaqla münaqişələrin həll edilməsi rəhbərliyin maraqlarına uyğundur.

**3.2. Şəxslərarası münaqişələrin həll edilməsi metodları**

Şəxsiyyətlərarası münaqişələrin həll edilməsinin metodları aşağıdakılardır. Onu qeyd edək ki, şəxsiyyətlər arası münaqişələrin həll edilməsinin metodları insanların münaqişədə davranış üslubu ilə uyğun gəlir. Bunlar **İmtina və ya münaqişədən boyun qaçırma**, **uyğunlaşma, məcburetmə, qarşıdurma, kompromis, əməkdaşlıq və problemin həll edilməsidir.**

1. **İmtina və ya münaiqşədən boyun qaçırma** — Münaqişənin həll edilməsində iştirakda könülsüz davranma öz maraqlarını müdafiə etməkdən çəkinmə, münaqişə situasiyadan çıxma istəyidir. Bu tərz onunla diqqəti cəlb edir ki, insan münaqişədən qaçmağa çalışır. Robert Bleyk və Ceyn Muttonun qeyd etdiyi kimi, bu "ziddiyyətlərin baş qaldırdığı situasiyalara ümumiyyətlə düşməməkdir, qarşıdurmaya səbəb ola biləcək söhbətlərə müdaxilə etməməkdir. İmtina metodunun tətdiq olunması şərtləri aşağıdakılardan ibarətdir;
   - Münaqişənin mənbəyi sizə görə çox bayağıdır, digər konfliktlərlə müqayisədə sizin üçün əhəmiyyətsizdir;
   - Bilirsiniz ki, məsələni öz xeyrinizə həll edə bilməyəcəksiniz və ya sadəcə olaraq bunu istəmirsiniz;
   - Münaqişənin sizin üçün rahat olan üsulla həll edilməsi üçün kifayət qədər səlahiyyətiniz yoxdur;
   - Hər hansı qərarı verməzdən əvvəl vaxt qazanmaq və informasiya toplamaq niyyətindəsiniz;
   - Münaqişənin açıq və ya gizli şəkildə müzakirəsi təhlükəlidir və situasiyanı daha da gərginləşdirə bilər;
   - Tabeçilikdə olanlar rahatlıqla münaqişəni tənzimləyə bilirlərsə;
   - Gün sizin üçün kifayət qədər ağır olmuşdur və problemin həll edilməsi sizə əlavə xoşagəlməz nəticələr verə bilər.
2. **Uyğunlaşma və ya yumşaltma** – münaqişə situasiyanı yumşaltma, münasibətləri saxlamaq cəhdi, rəqibin təzyiqinə dözməmək deməkdir. **Uyğunlaşma metodu** rəhbər və tabeçilikdə olanlar arasında daha geniş yayılmış metoddur. Bu metod əsasən qarşı tərəfi inandırmağa çalışır ki " biz hamımız bir komandayıq və olduğumuz gəmini silkələndirməyə dəyməz". Yumşaldıcı tərəf adətən öz konflikt göstəricilərini ətrafa göstərməməyə və birlik tələbatına uyğun olaraq hərəkət etməyə cəhd göstərir. Təəssüf ki, bu zaman insanlar münaqişənin əsasında duran səbəbi tamamilə unudurlar. Bleyk və Muton qeyd edirlər ki, başqa insanlar qarşı tərəfin münaqişədə olan istəyini "bunun elə də böyük əhəmiyyəti yoxdur" deyərək yatıra bilərlər. Nəticədə sülh, harmoniya və sakitlik yaranır, lakin problem özü qala bilər. Emosiyaların göstərilməsi üçün artıq heç bir ehtimal

yoxdur, lakin onlar daxildə yaşayır və toplanırlar. Ümumi narahatçılıq daha da aydınlaşmağa başlayır, toplanan narazılıqlar bir gün partlaya bilər. Uyğunlaşma metodu aşağıdakı xarakterik situasiyalarda tətbiq oluna bilər:

- Əsas məqsədin münaqişənin həll olunması deyil, rahatlq və sabitliyin təmin olunması olduqda;
- Toqquşmanın predmeti sizin üçün vacib deyil və baş verənlər sizi maraqlandırmırsa;
- Fikirləşirsiniz ki, başqa insanlarla xoş münasibətləri saxlamaq öz fikrinin üstündə dayanmaqdan daha vacibdir;
- Başa düşürsünüz ki, həqiqət sizin tərəfinizdə deyil;
- Hiss edirsiniz ki, qalib gəlmək üçün sizin kifayət qədər nüfuzunuz və fürsətiniz yoxdur.

3. **Məcburetmə** — Münaqişənin təzyiq metodu ilə həll edilməsidir, burada nüfuz və gücdən istifadə edilməklə öz fikrini qəbul elətdirmək nəzərdə tutulur. Bunu həyata keçirən şəxs başqalarının fikrinə əhəmiyyət vermir. Bu metoddan istifadə edən şəxs adətən özünü aqressiv aparır və başqalarına təsir göstərir. Bleyk və Muton qeyd edirlər ki, " ən yüksək nüfuza malik olduğunu göstərərək münaqişəni nəzarət altına almaq və qarşı tərəfi əzmək metodundan istifadə edir". Bu metodun çatışmazlığı ondan ibarətdir ki, o tabeçilikdə olanların təşəbbüslərini söndürür, belə bir fikir yaradır ki, heç də vacib faktorların hamısı nəzərə alınmayacaq, çünki yalnız bir fikir-rəhbərin fikri üstün tutulacaqdır. Bu da xüsusilə cavan və savadlı personalı həvəsdən sala bilər.
4. **Qarşıdurma** — Başqalarının fikirlərini və maraqlarını nəzərə almadan öz məqsədinə çatmağa yönəlmiş metoddur. Burada məcburetməyə heç bir ehtimal yoxdur. Qarşıdurma metodunu adətən kollektiv əmək mübahisələri zamanı, lokal və ümumi sosial konfliktlərdə seçirlər. Çox vaxt qarşıdurmalar işə götürənlərlə işçilər arasında sosial-əmək münasibətlərinin korlanmasının ən son formasına gətirib çıxara bilər: tətillər, hiss edilələcək dərəcədə iqtisadi zərbənin vurulması, mitinqlər, nümayişlər, aclıq aksiyaları keçirməklə psixoloji təzyiqin artırılması və s.
5. **Kompromis** — qarşılıqlı güzəştlərlə konfliktin həll edilməsi metodudur. Bu metodda qarşı tərəfin fikri də qəbul edilir, lakin bu qəbuletmə müəyyən hədd çərçivəsində baş verir. İdarəetmə situasiyalarında kompromis metodu ilə münaqişənin həll edilməsi yüksək qiymətləndirilir. Belə ki, bu metod xoşagəlməz nəticələri minimuma endirir, münaqişəni tez həll etməyə və hər iki tərəfi razı salmağa imkan verir. Kompromis metodunun çatışmayan cəhəti ondan ibarətdir ki, onun vaxtından əvvəl tətbiq edilməsi problemin diaqnozunun qoyulmasına və alternativlərin axtarılması vaxtının qısaldılmasına gətirib çıxara bilər. Kompromisin bu formada tətbiq olunması sadəcə mübahisədən uzaqlaşmaqla razılığın əldə olunması və ağıllı təkliflərdən imtina olunmasına gətirib çıxaracaqdır. Bu cür kompromis- əlçatan vasitələrlə qaneolma, lakin mövcud faktorlar və informasiyalar içərisindən məntiqi olanını axtarmağa könülsüz yanaşma deməkdir.

Kompromisin tətbiq olunması üçün aşağıdakı konflikt situasiyanın olması vacibdir;

- Hər iki tərəfin inandırıcı səbəbləri vardır və eyni dərəcəli nüfuza malikdirlər ;

- Sizin istəyinizin təmin olunması sizin üçün o qədər də böyük əhəmiyyət kəsb eləmir ;
- Kompromis qərarı sizi qane edir, belə ki başqa metodun işlənib hazırlanmasına vaxtınız yoxdur, və ya tətbiq olunmuş digər qərarlar qeyri-effektivdir ;
- Kompromis sizi hər şeyi itirmək qorxusundan sığortalayır ;

6. **Əməkdaşlıq** — Qərar axtarılmasının birgə fəaliyyətini nəzərdə tutur hansı ki hər iki tərəfin maraqlarına uyğundur. Əməkdaşlıq metodu ilə konflikti aşağıdakı situasiyalarda həll etmək mümkündür:
   - Əgər problemə yanaşmaların hər biri vacibdirsə və kompromisə şərait yaratmırsa, ümumi qərarları axtarıb tapmaq;
   - Qarşı tərəflə uzunmüddətli, möhkəm və qarşılıqlı asılı münasibətləriniz vardırsa;
   - Əsas məqsəd birgə iş təcrübəsinin qazanılmasıdırsa;
   - Tərəflər bir-birini dinləməyi və öz maraqlarının mahiyyətini ifadə etməyi bacarırlarsa;
   - Nəzər nöqtələrinin cəmlənməsi və əməkdaşların fəaliyyətə şəxsən cəlb olunmasının sürətlənməsi vacibdirsə.
7. **Problemin həll edilməsi**- müxtəlif fikirləri nəzərə almaqla münaqişənin səbəbini başa düşməyə çalışma və hər iki tərəf üçün fəaliyyət istiqamətinin seçilməsini özündə birləşdirir. Bu metoddan istifadə edən şəxs öz məqsədlərinə başqalarından istifadə etməklə nail olmur, əksinə münaqişə situasiyanın həll edilməsinin ən yaxşı variantını axtarıb tapır.

İnsanlarda olan fikir ayrılıqları belə bir nəticəyə gəlməyə imkan verir ki, ağıllı insanların nəyin yaxşı və nəyin pis olması barədə təsəvvürləri vardır. Təhliletmə və konflikti həll etmə yalnız o halda mümkündür ki, onu həyata keçirən şəxs müdriklik və insanlarla işləmə mədəniyyətinə sahib ola bilsin. Münaqişənin həll edilməsindəki bu cür konstruktivlik (münaqişəni problemi həll etmək yolu ilə aradan qaldırmaq) təşkilatda səmimi mühit yaratmağa, şəxsin və ümumilikdə təşkilatın uğur qazanmasına gətirib çıxarır.

Beləliklə, yuxarıda qeyd etdiyimiz şəxsiyyətlərarası münaiqşələrin həll edilməsi metodları konflikt situasiyasına, münaqişənin dinamikasına, münaqişə edən tərəflərin xarakterinə uyğun olaraq münaqişənin müxtəlif mərhələlərində tətbiq oluna bilərlər.
Dj.Q.Skott kofliktlərin səbəblərini analiz etmək üçün, aşağıdakı üsullan təklif etmişdir:
1) **Yaradıcı vizualizasiya metodu**. Burada insanın konfliktin səbəbini müəyyən etməsi ilə konfliktin üzdə, aşkarda görünən səbəbi ilə bərabər, onun əsl, dərində olan səbəbini müəyyən etmək mümkün olur. Əgər konfliktin səbəbi qrup üzvlərinin məqsədlərinin və maraqlarının uyğun gəlməmişdirsə, konfliktin həllində kompromiss axtarmaq lazımdır. Konfliktlərə neqativ funksiyası ilə yanaşı, pozitiv funksiyası olan hadisə kimi də yanaşmalıdır. Konfliktlər, şəxsiyyətin özünü tanımasına, insanlarla münasibətlərini daha düzgün dərk etməsinə kömək edərək, onun kollektiv üzvləri ilə münasibətlərində korrektivlər etməsinə, bu münasibətlərdə öz məsuliyyətini başa düşməsinə və davramşında hansı istiqamətdə düzəlişlər apanimasını müəyyən etməsinə kömək edir.
2) **Konfliktin rasional-intuitiv metodla həlli**, daha arzu olunandır, belə ki, bu halda real situasiya, insanlann mövqeyi, onların motivləri, şəxsi keyfiyyətləri əsas götürülür. Amerika sosial psixoloqları Pol. M. Dizel və Uilyam Mak Kinli Ranyanın fikirlərinə

görə, kompaniyalann əksəriyyəti rəqabət faktorundan yüksək nəticələr əldə etmək üçün istifadə edirlər. Bununla belə, müxtəlif qruplarda rəqabət eyni nəticələrə gətirib çıxartmır. Qrupun birində, onun üzvləri adekvat reaksiya verməsi qrupun yekdilliyinə və məhsuldarlığın artınimasma gətirib çıxardığı halda, başqa qrupda isə əksinə, rəqabətə qeyri adekvat reaksiya və qrupdaxili əlaqənin zəifləməsinə gətirib çıxardır.

## MÖVZU 9. KONFLİKLRƏDƏ DAVRANIŞ STRATEGİYASI. KONFLİKTLƏRİN DİNAMİKASI VƏ İNKİŞAF MƏRHƏLƏLƏRİ

Həm biznesdə, həm də danışıqlar sahəsində ən məşhur və geniş istifadə olunan konsepsiyalardan biri münaqişəli vəziyyətdə insan davranışının **5 əsas strategiyasının** fərqləndirildiyi **Tomas-Killmen konsepsiyasıdır**.

Həmin davranış sitrategiyalarının fərqləndirilməsi üçün əsas qismində öz mənafelərinin təmin edilməsində əzmkarlıq dərəcəsi (Y oxu) ilə digərinin mənafelərinin təmin edilməsində ona güzəştə getməyə hazırlıq dərəcəsi (X oxu) arasında nisbətin dinamikası çıxış edir.

**1.** Oxların başlanğıcında heç kimin mənafelərinin təmin edilmədiyi sıfır nöqtəsi yerləşir. Bu nöqtə yayınma, yaxud qaçma strategiyasına uyğun gəlir. Bu strategiya onu ifadə edir ki, insan münaqişəli vəziyyətə məhəl qoymur, özünü münaqişə olmamış kimi aparır və onun həlli, yaxud dəyişdirilməsi üçün heç bir tədbir görmür.

Bəzi hallarda məhz belə strategiya optimaldır. Onlara bizim üçün xüsusi əhəmiyyət kəsb etməyən və həlh üçün güc və maddi ehtiyat sərfinə ehtiyac olmayan vəziyyətlər aid edilməlidir.

Bəzən «baş qoşmamaq» daha yaxşıdır, çünki nəyisə yaxşılaşdırmaq imkanımız sıfra yaxındır.

Digər tərəfdən, çox vaxt qarışmama münaqişənin kəskinləşməsinə gətirib çıxara bilər, çünki problem həllini tapmır və münaqişə iştirakçılanmn mənafeləri təmin olunmur. Nəticədə əvvəlcə həlli mümkün olan vəziyyət bəzən həll edilməz olur.

**2.** Şaquli ox tərəfdaşın mənafelərini nəzərə almadan yalnız öz mənafeyini təmin etmək niyyətini ifadə edir. Bu ox üzrə nöqtə nə qədər yüksəkdə yerləşmişdirsə, o, öz mənafelərinin maksimum təmin edilməsi niyyətində bir o qədər yüksək əzmkarlığa uyğun gəlir. Bu davranış xəttini **rəqabət strategiyası** adlandıraq.

Rəqabət zəruri nəticəyə nail olmağa imkan verir, inkişafı stimullaşdırır, tərəqqiyə təkan verir. Bir sıra vəziyyətlərdə rəqabətin mövcudluğu onların hərəkətverici qüvvəsinə və mahiyyətinə çevrilir, məsələn, idman yarışları, incəsənət yarışmaları, bir sıra işədüzəlmə halları, müsabiqə üzrə tədris müəssisəsinə qəbul və s.

Eyni zamanda, rəqabət bütün gücün sərfini tələb edir ki, bu da gücün tükənməsinə, xəstəliyə gətirib çıxara bilər. Bir qayda olaraq, rəqabət insanlar arasında münasibətləri pozur, özü də bu, yalnız bilavasitə rəqiblərə aid olmur. Çox vaxt insanın şəxsi münasibətlərə qüvvəsi çatmır. Qüvvələr nisbəti dəyişdikdə keçmiş məğlublar əvvəlki qalibi «məhv etməyə» çalışacaqdır. Rəqabət vicdansız və amansız metodların tətbiqinə qədər nəyin bahasına olursa-olsun qalib gəlmək istəyi doğurur.

Danışıqların güclü mövqeyə malik barışıq iştirakçıları opponentlərinə qarşı güzəşt göstərməyə meylli olurlar. Digər tərəfdən, gücə malik insanlar öz imkanlarını şişirtməyə meylli olur və tərəfdaşın mövqeyinin gücünün dəyişməsinə kifayət qədər sürətlə reaksiya vermirlər. Çox vaxt rəqabət avtomatik surətdə, ətraflı düşünülmədən, sadəcə əlverişsiz təsirə emosional reaksiya kimi seçilir.

**3.** Opponentə güzəştə meylin artması istiqamətinə yönəlmiş üfüqi ox opponentin tələbləri qarşısında təslim olmağa qədər ona **uyğunlaşma strategiyasını** nümayiş etdirir. X nöqtəsinin koordinatları nə qədər böyük rəqəmlə ifadə olunursa, tərəfdaşın tələblərinə güzəştə getmək meyli bir o qədər güclü şəkildə təzahür edir.

Güzəştlər xoş məramı nümayiş etdirə və opponent üçün müsbət davranış modeli kimi çıxış edə bilər. Çox vaxt güzəşt gərgin vəziyyətdə dönüş anı olaraq, onun gedişatmı yaxşılığa doğru dəyişə bilər. Bu strategiya daha əlverişli məqama qədər ehtiyatları qoruyub saxlamağa imkan verir. Qüvvələr nisbəti əks tərəfin xeyrinə dəyişdikdə təslim olmaq ən yaxşı çıxış yoluna çevrilə bilər. Bəzən biz opponentin haqlı olduğunu etiraf etdiyimiz üçün güzəştə gedirik.

Lakin güzəşt pis nəticə də verə bilər. O, opponent tərəfindən zəifliyin təzahürü kimi qiymətləndirilə və onun təzyiq və tələblərinin sərtləşməsinə gətirib çıxara bilər. Biz opponent tərəfindən cavab güzəştləri gözləyərkən yamla bilərik. Son nəticədə güzəştə getməklə biz nəticə əldə etməyə və öz mənafelərimizi təmin etməyə bilərik.

**4.** Oxlar arasındakı məkanın mərkəzi hissəsində çoxlu mümkün **kompromiss nöqtələri** yerləşir. Hər bir tərəfin mənafelərinin yanbayan təmin olunmasını ideal kompromiss hesab etmək olar. Bəzən kompromiss problemin həllinin yeganə mümkün və ən yaxşı dinc variantına çevrilir. Hər bir tərəf müharibəni davam etdirərək hər şeyi itirməyin əvəzinə onu qane edən nəsə qazanır. Lakin çox vaxt kompromiss yalnız müvəqqəti çıxış yoludur, çünki tərəflərin heç biri öz mənafelərini tam təmin edə bilmir və münaqişə üçün əsas qalır. Kompromis hər iki tərəf üçün bərabər olmadıqda, bir tərəfin digərinə nisbətən daha çox güzəştə getməsi halında isə münaqişənin yenidən başlanması riski daha yüksək olur.

**5.** Nəhayət, münaqişəli vəziyyətdə daha bir davranış strategiyası eyni vaxtda yüksək rəqəmlə ifadə olunan X və Y koordinat nöqtələri ilə ifadə olunur.

**Bu, əməkdaşlıq strategiyasıdır**. O, həm öz mənafelərinin, həm də tərəfdaşın mənafelərinin maksimum mümkün olduğu qədər təmin edilməsinə nail olmaq istəyi ilə fərqlənir. Çox vaxt adamlar bu variantı arzuolunan, lakin konkret münaqişə vəziyyətində qeyri-real hesab edirlər. Lakin bir çox hallarda vəziyyət yalnız ona görə çıxılmaz görünür ki, opponentlərin hər biri digərinin tələbləri ilə ziddiyyət təşkil edən tələblər irəli sürür və öz mənafelərini təmin etməyin başqa variantını axtarmır. Kompromisdən fərqli olaraq, əməkdaşlıq üçün öz mövqelərinin müdafiəsindən mənafelərinə uzlaşdırılmasının və ümumiliyinin aşkara çıxdığı daha dərin səviyyəyə keçid zəruridir.

Əməkdaşlıq problemin həllinin möhkəmliyi, onun gedişində münasibətlərin tərəfdaşlıq xarakteri ilə cəlbedicidir. Bu, münaqişədən çıxmağın yeganə üsuludur ki, eyni zamanda istənilən nəticəyə nail olmağa və tərəfdaşlar arasında münasibətləri pozmamağa imkan verir. Uğurlu əməkdaşlıq münasibətlərin yaxşılaşmasına və gələcəkdə qarşılıqlı fəaliyyəti davam etdirmək istəyinə təkan verir,

«Əməkdaşlıq» sözünün özü «əmək» kökündəndir. Bu, əməkdaşlığın həyata keçirilməsi üçün intellektual, emosional və digər səylərin tətbiqinə olan real zərurəti əks etdirir. Çox vaxt bu strategiya həm də onun uğurla həyata keçirilməsi üçün vaxt tələb edir.

Eyni zamanda, əməkdaşlıq həmişə mümkün olmur. Onun üçün problemi birgə, bütün tərəflərin həqiqi mənafeləri nəzərə alınmaqla həll etməyə qarşılıqlı istək zəruridir.

Yuxarıda sadalanan strategiyaların heç birini birmənalı şəkildə «yaxşı», yaxud «pis» adlandırmaq olmaz. Onların hər biri optimal ola və münaqişənin yarandığı və inkişaf

etdiyi konkret şəraitdən asılı olaraq ən yaxşı nəticəni təmin edə bilər. Eyni zamanda, məhz əməkdaşlıq insanlar arxısında konstruktiv uzunmüddətli qarşılıqlı fəaliyyət haqqında təsəvvürlərə daha çox uyğundur.

Bütün münaqişə tərəflərinin mənafelərinin təmin edilməsi ona gətirib çıxarır ki, bu münaqişə üçün zəmin aradan qalxır və münaqişədən sonra vəziyyətin mürəkkəbləşməsi riski minimuma endirilir.

Münaqişəli davranış münaqişə iştirakçılarının əks istiqamətli hərəkətlərindən ibarətdir. Bu hərəkətlərlə opponentlərin fikri, emosional və iradəvi sahələrində xarici təsirdən gizli proseslər realizə olunur. Hər bir tərəfin mənafelərinin realizəsinə yönəlmiş qarşılıqlı reaksiyaların əvəzlənməsi və opponentin mənafelərinin məhdudlaşdırılması münaqişənin görünən sosial reallığını təşkil edir. Opponentlərin hərəkətləri daha çox bir-birinə təsir göstərdiyindən, digər tərəfin əvvəlki hərəkətlərindən irəli gəldiyindən, yəni bir-birini qarşılıqlı surətdə şərtləndirdiyindən, istənilən münaqişədə onlar qarşılıqlı fəaliyyət xarakteri kəsb edir.

Münaqişəli davranış öz prinsiplərinə, strategiyalarına (üsullarına) və taktikalarına (fəndlərinə) malikdir. Münaqişəli qarşıdurmanın əsas prinsipləri sırasında qüvvələrin cəmləşdirilməsi, qüvvələrin əlaqələndirilməsi, rəqibin mövqeyindəki ən zəif nöqtəyə zərbə endirilməsi, gücə və vaxta qənaət və s. fərqləndirilir.

**KONFLİKTLƏRİN DİNAMİKASI**

Hər bir sosial təzahür kimi, münaqişə zaman çərçivəsində cərəyan edən proses kimi nəzərdən keçirilə bilər. Münaqişə müəyyən **dövrlərə və mərhələlərə** malikdir, onların gedişində münaqişə yaranır, inkişaf edir və başa çatır. Münaqişənin dinamikası daxili mexanizmlərin və xarici amillərin təsiri altında münaqişənin inkişafının, dəyişməsinin gedişini təmsil edir.

Münaqişənin inkişaf mərhələlərini nəzərdən keçirməzdən əvvəl onun vaxt sərhədlərini - başlanğıcını və sonunu müəyyən etmək zəruridir. Bu, onun «münaqişəyəbənzər» təzahürlərdən fərqlərinin anlaşılması və münaqişəyə idarəedici təsirin məqsədyönlü strategiyalarının işlənib hazırlanması üçün vacibdir.

**Münaqişənin başlanması.** Tərəflərin ilk qarşıdurma aktları şəklində təsbit oluna bilər. Münaqişənin başlannuş hesab olunması üçün üç şərtin üst-üstə düşməsi tələb olunur:

- birinci iştirakçı şüurlu və fəal şəkildə digər iştirakçının zərərinə fəaliyyət göstərir (fəaliyyət dedikdə həm fiziki hərəkətlər, həm də informasiya ötürülməsi başa düşülür);
- ikinci iştirakçı (rəqib) həmin hərəkətlərin onun mənafelərinə qarşı yönəldiyini dərk edir;
- bununla əlaqədar rəqib birinci iştirakçıya qarşı cavab hərəkətlərini həyata keçirir.

Qarşılıqlı fəaliyyətdə olan tərəflərin biri təcavüzkar hərəkətlər törətdikdə, ikinci tərəf isə passiv mövqe tutduqda münaqişə baş vermir. Tərəflərin biri münaqişəli qarşılıqlı fəaliyyət barədə düşündükdə, yəni davranış hərəkətləri deyil, fikri hərəkətlər həyata keçirdikdə münaqişə mövcud olmur.

**Münaqişənin sonu.** Müxtəlif forma və nəticələrə malik ola bilər. Lakin istənilən halda söhbət bir-birinə qarşı yönəlmiş hərəkətlərin başa çatmasından gedir.

Münaqişənin dinamikasında aşağıdakı dövr və mərhələləri fərqləndirmək olar;

**- Latent dövr (münaqişə ərəfəsi).** Aşağıdakı mərhələləri ehtiva edir;

- problemli vəziyyətin yaranması; qarşılıqlı fəaliyyət subyektlərinin obyektiv problemli vəziyyəti dərk etməsi;

- tərəflərin obyektiv problemli vəziyyəti qeyri-münaqişə üsulları ilə həll etmək cəhdləri;
- münaqişəqabağı vəziyyətin yaranması.

**- Obyektiv problemli vəziyyətin yaranması.** Yalançı münaqişənin yarandığı halları hesaba almasaq, adətən, münaqişə obyektiv problemli vəziyyətlə şərtlənir. Belə vəziyyətin mahiyyəti subyektlər (onların məqsədləri, motivləri, hərəkətləri, niyyətləri və s.) arasında ziddiyyətin yaranmasından ibarətdir. Ziddiyyət hələ dərk olunmadığından və münaqişə hərəkətləri mövcud olmadığından, bu, problemli vəziyyət adlandırılır. O, əsasən, obyektiv səbəblərin təsirinin nəticəsi kimi çıxış edir.

Hər gün istehsalatda, biznesdə, məişətdə, ailədə və həyatın digər sahələrində bir çox problemli vəziyyətlər uzun müddət üzə çıxmadan mövcud olur. İnsanların fəaliyyətində yaranan obyektiv problemli vəziyyətlər potensial münaqişənin yaranması imkanı doğurur, həmin imkan subyektiv amillərlə vəhdətdə reallığa çevrilir. Belə çevrilmənin şərtlərindən birini obyektiv problemli vəziyyətin dərki təşkil edir.

**- Obyektiv problemli vəziyyətin dərki.** Reallığın problemli vəziyyət kimi qavranılması, ziddiyyətin həlli üçün hansısa hərəkətləri həyata keçirmək zərurətinin başa düşülməsi bu mərhələnin mənasını təşkil edir. Mənafelərin reallaşdırılması yolunda maneələrin mövcudluğu problemli vəziyyətin subyektiv, təhrif olunmuş şəkildə qavranılmasma təkan verir. Qavramanın subyektivliyi yalnız psixikanın təbiəti ilə deyil, həm də ünsiyyət iştirakçılarının sosial fərqləri ilə şərtlənir. Buraya dəyərlər, sosial yönəlişlər, ideallar və mənafelər aid edilir. Dərketmənin fərdiliyi həm də qarşılıqlı fəaliyyət iştirakçılarının biliklərində, tələbatlarında, digər xüsusiyyətlərində mövcud olan fərqlərlə şərtlənir. Vəziyyət nə qədər mürəkkəbdirsə və nə qədər sürətlə inkişaf edirsə, opponentlər tərəfindən onun təhrif olunması ehtimalı bir o qədər yüksəkdir.

**- Tərəflərin obyektiv problemli vəziyyəti qeyri-münaqişə üsulları ilə həll etmək cəhdləri.** Vəziyyətin ziddiyyətliliyinin dərki heç də həmişə avtomatik surətdə tərəflərin münaqişəli qarşıdurmasını doğurmur. Çox vaxt onların hər ikisi, yaxud biri problemi qeyri-münaqişə üsulları (inandırma, izahetmə, xahiş, əks tərəfi məlumatlandırma) ilə həll etməyə cəhd göstərir. Bəzən qarşılıqlı fəaliyyətin iştirakçısı problemli vəziyyətin münaqişəyə çevrilməsini istəməyib güzəştə gedir. İstənilən halda bu mərhələdə tərəflər öz mənafelərini əsaslandırır və mövqelərini təsbit edirlər.

**- Münaqişəqabağı vəziyyətin yaranması.** Vəziyyətin münaqişəliliyi qarşılıqlı fəaliyyət tərəflərindən birinin təhlükəsizliyi üçün təhdid kimi qavranılır. Hansısa mühüm ictimai mənafelər üçün təhlükə yarandıqda da vəziyyət münaqişəqabağı vəziyyət kimi dərk oluna bilər.

Özü də opponentin hərəkətləri (problemli vəziyyətdəki kimi) potensial təhlükə kimi deyil, birbaşa təhlükə kimi nəzərdən keçirilir. Məhz bilavasitə təhlükənin dərki vəziyyətin münaqişəyə doğru inkişafına təkan verir, münaqişəli davranışın «buraxılış mexanizmi» kimi çıxış edir.

**- Açıq dövr**. Çox vaxt onu münaqişəli qarşılıqlı fəaliyyət, yaxud bilavasitə münaqişə adlandırırlar. **O, aşağıdakıları ehtiva edir:** insident, münaqişənin kəskinləşməsi, tarazlaşdırılmış qarşıdurma, münaqişənin başa çatması.

İnsident tərəflərin ilk toqquşması, qüvvələr sınağı, gücün köməyi ilə problemi öz xeyrinə həll etmək cəhdidir. Tərəflərdən birinin istifadə etdiyi ehtiyatlar qüvvələr nisbətinin öz xeyrinə dəyişilməsi üçün kifayət etdikdə münaqişə insidentlə məhdudlaşa bilər. Çox vaxt münaqişə münaqişəli hadisələr, insidentlər zənciri kimi inkişaf edir.

Qarşılıqlı münaqişəli hərəkətlər münaqişənin ilkin strukturunun şəklim dəyişərək, onu mürəkkəbləşdirərək, sonrakı hərəkətlər üçün yeni stimullar gətirməyə qadirdir. Bu prosesi aşağıdakı kimi təsəvvür etmək olar:
danışıqlardan mübarizəyə keçid - mübarizə emosiyaları kəskinləşdirir - emosiyalar qavrama səhvlərini artırır - bu, mübarizənin intensivləşməsinə aparıb çıxarır - və s. Belə proses **«münaqişənin kəskinləşməsi»** adını almışdır.
Kəskinləşmə opponentlərin mübarizəsinin kəskin surətdə intensivləşməsindən ibarətdir. Bu mərhələ vacib olduğundan, o, sonrakı paraqrafda daha ətraflı surətdə nəzərdən keçirilmişdir. Münaqişənin kəskinləşməsi dedikdə münaqişənin zaman çərçivəsində tərəqqisi, qarşıdurmanın kəskinləşməsi başa düşülür, bu zaman opponentlərin bir-birinə qarşı sonrakı dağıdıcı təsirləri intensivlik baxımından əvvəlkiləri üstələyir.
Münaqişənin kəskinləşməsi onun insidentdən başlanan və mübarizənin zəifləməsi, münaqişənin başa çatmasına keçidlə bitən hissəsini təmsil edir.

## MÜNAQİŞƏNİN İNKİŞAF MƏRHƏLƏLƏRİ

**Tərəflərin açıq qarşıdurmasının başlanması münaqişəli davranışın nəticəsidir,** münaqişəli davranış dedikdə mübahisəli obyektin tutulması, saxlanılması, yaxud opponentin öz məqsədlərindən imtina etməyə, yaxud onların dəyişdirilməsinə məcbur edilməsi məqsədilə əks tərəfə yönəlmiş hərəkətləri başa düşülür, Psixoloqlar münaqişəli davranışın bir neçə formasını fərqləndirir:
1. aktiv-münaqişəli davranış (çağırış);
2. passiv-münaqişəli davranış (çağırışa cavab);
3. münaqişəli - güzəştli davranış;
4. güzəştli davranış.
Tərəflərin münaqişə yönəlişindən və davranış formasından asılı olaraq, münaqişə inkişaf məntiqi kəsb edir. İnkişaf edən münaqişə dərinləşmə və genişlənmə üçün əlavə səbəblər yaratmaq meylinə malikdir. Hər bir yeni «qurban» münaqişənin kəskinləşməsi üçün «dəlil» rolunu oynayır. «Ona heç kim mane olmur, o, öz-özünü qidalandırmağa başlayır, gələcək inkişaf üçün yeni-yeni əsaslar doğurur».
Buna görə də hər bir münaqişə müəyyən dərəcədə yeganədir. Münaqişənin ikinci inkişaf mərhələsində üç əsas dövrü ayırmaq olar:
1. **Münaqişənin latent vəziyyətdən tərəflərin açıq qarşıdurmasına keçməsi**. Mübarizə hələ məhdud ehtiyatlarla aparılır və lokal xarakter daşıyır. İlk qüvvə sınağı baş verir. Bu dövrdə hələ açıq mübarizəni dayandırmaq və münaqişəni başqa yollarla həll etmək üçün real imkanlar mövcuddur.
2. **Qarşıdurmanın daha da kəskinləşməsi**. Öz məqsədlərinə nail olmaq və rəqibin hərəkətlərini əngəlləmək üçün tərəflərin yeni ehtiyatları daxil edilir. Kompromisə nail olmaq üçün demək olar ki, bütün imkanlar itirilmişdir. Münaqişə daha da idarəolunmaz və gözlənilməz xarakter kəsb edir.
3. **Münaqişə öz nəticəsinə çatır və bütün mümkün qüvvələr və vasitələr tətbiq olunmaqla total müharibə forması kəsb edir**. Bu dövrdə münaqişə tərəfləri sanki münaqişənin həqiqi səbəb və məqsədlərini unudurlar. Rəqibə maksimum zərbə vurmaq qarşıdurmanın başlıca məqsədinə çevrilir.
**Tarazlaşdırılmış qarşıdurma.** Tərəflər bir-birinə qarşı durmaqda davam edirlər, lakin mübarizənin intensivliyi aşağı düşür. Tərəflər dərk edirlər ki, münaqişənin güc metodları ilə davam etdirilməsi nəticə vermir, lakin razılıq əldə olunması üzrə hərəkətlər hələ həyata keçirilmir.

**Münaqişənin başa çatması** münaqişəli qarşıdurmadan problemin həllinin axtarışına və hər hansı səbəbdən münaqişənin bitirilməsinə keçiddən ibarətdir. Münaqişənin başa çatdırılmasının əsas formaları: həll, tənzimlənmə, sönmə, aradan qaldırılma, yaxud başqa münaqişəyə keçmə.

**Münaqişədən sonrakı dövr.** İki mərhələdən ibarətdir:

- opponentlərin münasibətlərinin qismən normallaşması;
- onların münasibətlərinin tam normallaşması.

Münasibətlərin qismən normallaşması münaqişədə mövcud olan mənfi emosiyaların hələ aradan qalxmadığı şəraitdə baş verir. Bu mərhələ öz mövqeyinin qiymətləndirilməsi ilə xarakterizə olunur. Özünüqiymətləndirmədə, iddia səviyyələrində, tərəfdaşa münasibətdə düzəliş aparılır. Özünün münaqişədəki hərəkətlərinə görə təqsir hissi kəskinləşir. Bir-birinə münasibətdə mənfi yönəlişlər münasibətləri dərhal normallaşdırmağa imkan vermir. **Münasibətlərin tam normallaşdırılması tərəflər gələcək konstruktiv qarşılıqlı fəaliyyətin vacibliyini dərk etdikdə yaranır**. Buna mənfi yönəlişlərin aradan qaldırılması, birgə fəaliyyətdə səmərəli iştirak, etimadın qərarlaşması təkan verir. Nəzərdən keçirilən mərhələlər və dövrlər müxtəlif müddətə malik ola bilər: bir neçə andan (məsələn, şagirdlərin tənəffüsdəki münaqişəsi), onilliklərə qədər (Amerikadakı İspaniya müstəmləkələrinin müstəqillik uğrunda 1810-1826-cı illər müharibəsi, yaxud 1959-1973-cü illər Vyetnam müharibəsi). Bəzi mərhələlər olmaya da bilər, məsələn, insidentdən sonra tərəflərin biri güzəştə gedir və münaqişə başa çatır. Münaqişədə tərəflərin diferensiasiyası ilə xarakterizə olunan zaman kəsimini fərqləndirmək olar. Münaqişə yüksələn xətlə inkişaf edir, tərəflər arasında fikir ayrılıqları güclənir. Cəbhələşmə sonrakı kəskinləşmə mənasını itirənə qədər davam edir. Bu andan etibarən inteqrasiya prosesi başlanır. İştirakçılar hər iki tərəf üçün məqbul razılaşmaya can atmağa başlayırlar.

Münaqişənin dövrlərə və mərhələlərə bölünməsi onu mürəkkəb dinamikaya malik təzahür kimi nəzərdən keçirməyə imkan verir. Ayrı-ayrı strategiyalar və taktikalar münaqişənin cərəyan etdiyi müxtəlif zaman kəsimlərində fərqli mənaya malik olurlar. Münaqişə çox vaxt rəqibin imkanlarının və öz ehtiyatlarının «tədqiqi» anlarını ehtiva edir, bu zaman birbaşa cəbhələşmə mövcud olmur.

## MÖVZU 10. MÜASIR MÜƏSSISƏLƏRDƏ SOSIAL MÜNAQIŞƏLƏRIN TƏHLILI VƏ MÜNAQIŞƏ PROSESININ MODELI

Münaqişə probleminin və onun təbiətinin öyrənilməsinin ən vacib anı konfliktlərin səbəbləridir. Sosioloji və sosial-psixoloji tədqiqatlar münaqişənin aşağıdakı əsas səbəblərini göstərməyə imkan verir.

- Sosial iqtisadi konfliktlər- müasir cəmiyyətimizdə mövcud olan obyektiv sosial-iqtisadi ziddiyyətlərdən irəli gəlir.
- Sosial psixoloji konfliktlər- müxtləlif insanların tələbatları, motivləri, fəaliyyət məqsədləri və davranışlarından irəli gəlir
- Sosial-demoqrafik konfliktlər- davranış motivlərindən, sosial quruluşdan, insanların cinsindən asılı olaraq can atdığı məqsədlərindən, təhsilin müxtəlif səviyyələrdə olmasından irəli gəlir.

Ümumilikdə 4 qrup səbəbi nəzərdən keçirmək olar:

1. İnsanların tərbiyəsində olan individual fərqlər
2. Kommunikativ səhvlər
3. Mədəni ziddiyyətlər

4. Təşkilatı (qrupların ümumi və fərdi məqsədləri arasındakı fərqlər)

Konfliktin səbəbi konfliktin yaranmasının və inkişafının bütün prosesinə təsir göstərir. Bunlar konfliktə gətirib çıxaran dəyişikliklərdir:

- Obyektiv
- Subyektiv
- Aşkar
- Gizli
- Yaxın
- Uzaq
- Əsas
- İkinci dərəcəli dəyişikliklər

Çoxsaylı səbəblər içərisində onların 2 formasını ayırmaq olar:

- Obyektiv- resursların çatışmazlığı ilə əlaqədar olan ( material, nüfuz, prestijin olmaması və s. )
- Subyektiv- psixoloji (tərbiyə, psixikada defisit və s.)

Sosial konfliktlər- sadəcə obyektiv səbəblərin nəticəsi deyil, həmçinin insan psixologiyasının nəticəsidir. Münaqişənin ən ümumi səbəbi insanlar arasındakı sosial ziddiyyətlərdir (şəxsiyyətlərarası, qruplararası). Həmçinin konfliktin səbəbi ilə onun bəhanəsini fərqləndirmək lazımdır. Belə ki, bəhanə münaqişə fəaliyyətinə təkan verən konkret insidentdir.

***Resursların bölüşdürülməsi***. Təşkilatda resurslar hər zaman məhdud olur. Təşkilat rəhbərliyi material, informasiya, insan resursları maliyyə resurslarını ayrı-ayrı qruplar şəklində elə bölüşdürməlidir ki, təşkilatı məqsədinə çatdırmaq ən effektiv yolla həyata keçmiş olsun. Bir qayda olaraq insanlar öz problemlərini daha həssaslıqla qəbul edirlər və bunun üçün çox şey əldə etmək istəyirlər. Böyük həcmdə resursu hansısa bir rəhbərə, tabeçilikdə olana və ya qrupa ayırmaq o deməkdir ki, qalan bölmələrə və ya rəhbərlərə ümumi resursun az bir hissəsi veriləcəkdir. Resursların bölüşdürülməsinin vacibliyi müxtəlif təbiətli konfliktlərə gətirib çıxarır.

***Məqsədlərin müxtəlifliyi***. Təşkilatın ixtisaslaşmış bölmələri və hətta onların alt qrupları öz məqsədlərini müəyyənləşdirir, onlara çatmağın məsuliyyətini daşıyır və alınan nəticəyə görə haqq alırlar. Ona görə də bölmələr öz məqsədlərinə çatmağa daha çox diqqət göstərirlər, nəinki bütün təşkilatın məqsədinə nail olunmasına. Məqsədlərdə olan fərqlər bir çox hallarda şəxsiyyət və qrup arasında olan fərq kimi özünü göstərir.

Münaqişələr təşkilat ixtisaslaşmaya doğru getdikcə və ayrı-ayrı bölmələrə bölündükcə artmağa başlayırlar. Bu ona görə baş verir ki, ixtisaslaşmış bölmələr öz məqsədlərini özləri müəyyən edirlər və ona çatmaq üçün çalışırlar. Məsələn, satış bölməsi daha rəngarəng və müxtəlif məhsulların istehsalının tərəfdarıdır, ona görə ki bu cür istehsal onların rəqabətə davamlılığını artırır və satışın həcmini artırır. Eyni zamanda istehsal bölməsi ən effektiv nəticəyə nail olmaq və xərclərə qənaət etmək məqsədilə məhsul nomenklaturunun eyni olmasının tərəfdarıdır. Təchizat şöbəsi isə öz növbəsində məhsul vahidinin dəyərini aşağı salmaq məqsədilə çoxlu miqdarda xammal və material almaq niyyətindədir. Digər tərəfdən maliyyə şöbəsi mal-material üçün nəzərdə tutulmuş pul vəsaitlərindən istifadə edərək onları investisiya kapitalı kimi istifadə etmək istəyə bilər.

***Tapşırıqların qarşılıqlı asılılığı***. Əgər insan tapşırığın yerinə yetirilməsində digər şəxsdən və ya qrupdan asılıdırsa, o zaman konflikt ehtimalı həmişə vardır. Konfliktin səbəbi burada həm vasitələr, resurslar, öhdəliklər, nüfuz, həm də bölmələrin üzərinə

düşən məsuliyyət olacaqdır. Məsələn, istehsal bölməsinin rəhbəri öz bölməsinin aşağı səviyyəli istehsalını təmir sexində avadanlıqları vaxtında və keyfiyyətli təmir edə biləcək fəhlələrin olmaması ilə əsaslandırır. Təmir sexinin rəhbəri isə öz növbəsində kadrlar şöbəsini vaxtında yeni təmirçi fəhlələri işə götürməməkdə günahlandırır. Analoji olaraq əgər yeni məhsulun işlənib hazırlanmasında iştirak edən 6 mühəndisdən biri öhdəsinə düşən işləri lazımi səviyyədə yerinə yetirməzsə o birilər də işin bu səbəbdən geri qaldığını başa düşəcəklər. Bu da qrup və həmin mühəndis arasında konflikt yaradacaqdır. Bütün təşkilatlar qarşılıqlı təsirdə olan elementlərin vəhdəti olduğundan, bir bölmənin və ya işçinin qeyri-adekvat işləməsi konfliktin səbəbinə çevrilə bilər.

Bəzi təşkilatı struktur tipləri və münasibətlər tapşırıqların qarşılıqlı asılılığı şəraitində konfliktə şərait yaradır. Qruplararası konflikti müzakirə edərkən işçi və idarəetmə heyətindən və onlar arasındakı ziddiyyətdən misal gətirmişik. İşçi heyət hər zaman idarəetmə heyətindən asılıdır, çünki mütəxəssis köməyinə ehtiyacı vardır. Eyni zamanda idarəetmə heyəti istehsal prosesində çatışmamazlıqların müəyyən edildiyi bir vaxtda və ya konsultant kimi çıxış edərkən xətti (işçi) heyətdən asılıdır. Bundan əlavə idarəetmə heyəti öz məsləhətlərini həyata keçirən zaman xətti heyətdən asılıdır.

Müəyyən təşkilati struktur tipləri də konfliktin baş vermə ehtimalını artırır. Bu təkrəhbərlilik prinsipinin pozulduğu təşkilatın matris strukturunda özünü biruzə verir. Konflikt ehtimalı funksional strukturda da böyükdür, belə ki hər bir iri funksiya özünün ixtisaslaşması üzərində dayanır. Təşkilati sxem şöbələrdən ibarətdirsə, burada şöbələrin rəhbərləri ümumilikdə bir rəhbərə tabedirlər, bu isə sırf struktur səbəblərdən baş verə biləcək konfliktin ehtimalını azaldır.

***Təqdim edilmiş dəyərlər arasındakı fərqlər***. Hər hansı situasiya haqqında yaranmış fikir məqsədə nail olmaq niyyətindən irəli gəlir. Situasiyanı obyektiv qiymətləndirmək əvəzinə insanlar qrup və şəxsi tələbatlara müsbət təsir göstərəcəyini düşünərək situasiyanın alternativləri və digər aspektləri üzərində fikirlərinə cəmləşdirirlər. Bu tendensiya satış şöbəsinin rəhbərinin, kadrlar şöbəsi və müştərilərə xidmət şöbələrinin rəhbərlərinin bir problemi həll etmək cəhdi zamanı meydana gəlmişdir. Onlar da hər biri problemin öhdəsindən yalnız onun funksional bölməsinin gələ biləcəyini düşünürlər.

***Dəyərlərdə olan fərqlər*** – konfliktin ən geniş yayılmış səbəbidir. Məsələn, tabeçilikdə olan fikirləşə bilər ki, ondan fikrini soruşduqda öz fikrini bildirməyə həmişə hüququ vardır və ona verilən tapşırıqları sözsüz yerinə yetirməlidir. Araşdırma və layihələndirmə şöbəsinin yüksək ixtisaslı personalı müstəqillik və fikir azadlığını hər zaman yüksək qiymətləndirir. Əgər onların rəhbərləri tabeçilikdə olanların işinə güclü nəzarət etməyi tələb edirsə, dəyərlər arasında olan fərqlər böyük ehtimalla konfliktə gətirib çıxaracaqdır.

***Natamam kommunikasiya***. İnformasiyanın düzgün ötürülməməsi konfliktin həm səbəbi, həm də vasitəsidir. O işçilərə və qrupa bir-birlərinin fikirlərini başa düşməkdə, həmçinin situasiyanı düzgün qiymətləndirməyə əngəl törədərək konfliktin katalizatoru kimi çıxış edə bilər. İnformasiyanın ötürülməsi probleminin genişlənməsi – keyfiyyət kriteriyalarının düzgün müəyyən edilməməsi, vəzifə öhdəliklərinin düzgün qavranılmaması, həmçinin işçilərin və şöbələrin öz funksiyalarını başa düşməməsi, işçinin işinə olan tələbin dəyişilməsi və s. kimi konfliktlərin genişlənməsinə gətirib çıxarır. Bu problemlər rəhbərlərin işçilərinin vəzifə təlimatlarının düzgün işləyib hazırlamamasından da irəli gələ bilər.

***İnformasiyanın düzgün ötürülməməsi*** konflikt səbəbi kim çıxış edə bilər. Belə ki onun iştirakçıları arasında kommunikasiya səviyyəsi aşağı düşür, insanların bir-biri haqqında düzgün təsəvvürü yaranmır, zidd münasibətlər yaranır- bütün bunlar konfliktin güclənməsinə və davam etməsinə gətirib çıxarır. Əgər rəhbərlik tabeçilikdə olanlara əməyin ödənilməsinin istehsalla əlaqəli olduğunu və təşkilatın gəlirinin artırılmasının onun rəqibləri qarşısında daha davamlı mövqe tutması ilə izah edə bilmirsə, tabeçilikdə olanlar məhsuldarlığı azaltmaqla bu prosesə reaksiya verəcəklər.

***İş yerlərinin balanslaşdırılmaması*** təşkilatdakı konfliktlərin ən çox yayılan mənbəyidir. Vəzifə funksiyaları vəsaitlərlə və buna uyğun olaraq qaydalar və nüfuzla möhkəmlənmədiyi hallarda baş verir.

***Düzgün olmayan nəzarət***. İdarəetmədə nəzarət şübhə təəssüratı yaratmamalıdır. Savadsız hakimiyyət qeyri-müəyyən və ümumi nəzarətdən istifadə edir: Hər kəs, hər zaman şübhə altındadır və bu o deməkdir ki, işçi hər zaman günahkardır. Belə situasiyada insan istər istəməz əsəblərini cilovlaya bilmir, özünü idarə etməni itirir və pis işləməyə başlayır.

***Davranış tərzində olan fərqlər və həyat təcrübəsi***. İnsan eyniliyi hiss eləmir və başqa insanları başa düşməyə çalışmır. Bu zaman ünsiyyətdə baryer yaranır. Əlbəttə ki, hər birimizin həyatında qarşılaşdığımız aqressivlik göstərən və münaqişəyə meylli insanlar vardır ki, hər deyilən sözü şişirdib böyük nifaq sala bilərlər. Həmçinin belə inadcıl insanlar ətrafda konflikt saçan situasiyalar yaradırlar. Araşdırmalar göstərir ki, avtoritar, fikrində qəti olan, hər hansı fikrə qarşı etinasız olan insanlar tez-tez konfliktə girirlər. Digər tədqiqatlar göstərir ki, həyat təcrübəsində, təhsildə, iş təcrübəsində, dəyərlərdə, yaşda, sosial xüsusiyyətlərdə olan fərqlər şöbələr arasında qarşılıqlı başa düşmə və əməkdaşlıq səviyyəsini aşağı salır.

Bundan başqa araşdırmalar göstərir ki, bütün işçiləri konfliktə münasibətdə 3 qrupa bölmək olar:

- Münaqişəyə davam gətirənlər (dözənlər)
- Münaqişədən kənar olanlar
- Münaqişə yaradanlar

Sonuncu qrupu təmsil edənlər bütün heyətin cəmi 6-7 %- ni təşkil edirlər. İngilis tədqiqatçısı Robert Bramsonun fikrinə görə, şöbələrdə xoş psixoloji mühiti yaratmaqda ötrü təşkilat üzvlərinin 1/10-ni təşkil edən çətin subyektlərə daha çox diqqət göstərmək lazımdır. Qalan 9/10-u özləri nizam-intizama can atacaqlar. "Çətin işçilər" arasında Bramson iğtişaş salan 5 tipi seçib göstərir. Onları qısa şəkildə xarakterizə edək:**Aqressiv işçilər, şikayətçilər, tərəddüd edənlər, məsuliyyətsizlər, "hər şeyi bilənlər".**

***Rəhbərliyə olan hörmətsizlik***. Əgər işçilərin əksəriyyəti idarəetmə tərzinin və metodlarının praktiki tələbatlara cavab vermədiyini düşünürlərsə, o zaman bu konflikt situasiyanın yaranması üçün səbəb ola bilər. Rəhbərdə işgüzar və ya idarəetmə səriştəsinin çatışmaması böyük demotivasiya potensialıdır.

***Motivasiyanın çatışmaması***. Əgər ayrıca şəxslərin tələbatları ilə təşkilatın tələbatları üst-üstə düşürsə, bu zaman personal bu tələbatların ödənilməsinə can atacaqdır ki, bunu da heç bir məcburetmə əvəz edə bilməz.

**Münaqişə prosesinin modeli**

Bir qrup tədqiqatçı müəyyən etmişdir ki, insanlar heç də həmişə kiçik itkilərə səbəb ola biləcək və az təhlükəli konflikt situasiyalara reaksiya göstərmirlər. Başqa sözlə, insanlar

hərdən başa düşürlər ki, konliktdə əldə ediləcək potensial fayda ona sərf ediləcək xərclərə və enerjiyə dəyməz. Bu situasiyaya onların münasibəti belə olur “bu dəfə ona imkan verəcəm ki, öz bildiyi kimi hərəkət eləsin”.

Lakin bir çox situasiyalarda insanlar elə reaksiya verirlər ki, qarşı tərəf öz məqsədlərinə nail ola bilməsin. Əsl konflikt çox vaxt o zaman baş verir ki, tərəflərdən biri digərini və ya neytral mövqe tutan şəxsi inandırmağa çalışır ki, “baxın nə üçün onun mövqeyi düzgün deyil, amma mənim fikrim düzgündür”. İnsan başqalarını inandırmağa çalışa bilər ki, onun fikrini qəbul eləsinlər və ya birinci dərəcəli təsir vasitələrindən məsələn, məcburetmə, mükafatlandırma, ənənə, ekspert rəyi, xarizma, inandırma və ya iştirak vasitələrindən istifadə edərək digərlərinin fikirlərini əngəlləyə bilər.

Münaqişə prosesinin növbəti mərhələsi – onun *idarə edilməsidir*. Münaqişənin idarə edilməsinin nə dərəcədə effektiv olmasından asılı olaraq, onun nəticələri də funksional və disfunksional olurlar ki, onlar da gələcək konfliktlərin olmasına təsir göstərirlər: münaqişələrin səbəbi aradan qaldırılsın və ya yeni səbəblər yaradılsın.

***Münaqişə funksional nəticələri***. Münaqişənin yeddi funksional nəticəsi vardır. Onlardan biri belədir: problem elə həll edilə bilər ki, hamıya aid olunar və insanlar problemin həllində öz iştirakını hiss edə bilərlər. Bu da öz növbəsində qərarların həyata keçirilməsində baş verəcək çətinlikləri ya tamamilə kənarlaşdırır və ya minimuma endirir. Digər funksional nəticədə tərəflər əməkdaşlığa daha çox meylli olacaqlar və gələcəkdə baş verə biləcək konfliktlərdə həddindən artıq antoqonist olmayacaqlar.

Münaqişə həmçinin qrup araşdırmalarının və itaətkarlığının qarşısını ala bilər. Bu zaman tabeçilikdə olanlar rəhbərliyin fikirləri ilə ziddiyyət təşkil edəcəyini düşünərək öz fikirlərini bildirməkdən çəkinirlər. Bu da qərarlarınn qəbul edilməsi prosesinin keyfiyyətini artıra bilər, belə ki əlavə ideyalar və situasiyanın diaqnozu vəziyyəti yaxşılığa doğru aparır: Simptomlar səbəblərdən ayrılırlar, tamamlayıcı alternativlər və onların qiymətləndirilməsi üçün kriteriyalar işlənib hazırlanır. Münaqişə vasitəsilə qrup üzvləri qərarların həyata keçirilməsindən əvvəl problemləri yenidən işləyə bilərlər.

***Münaqişənin disfunksional nəticələri***. Münaqişənin idarə edilməsinin effektiv vasitəsi tapılmazsa, növbəti disfunksional nəticələr baş verə bilər. Başqa sözlə məqsədə nail olmağa mane olan şərtlər yarana bilər.

1. Narazılıq, ruh düşkünlüyü, kadr axıcılığının artması və istehsalın aşağı düşməsi
2. Gələcəkdə əməkdaşlığın aşağı səviyyəsi
3. Öz qrupuna loyallığın artması və təşkilatın digər qrupları ilə qeyri-məhsuldar rəqabət
4. Digər tərəf barədə “düşmən” münasibətində olmaq, öz məqsədlərini müsbət, başqalarının məqsədlərini mənfi olaraq təsəvvür etmək
5. Münaqişə edən tərəflərlə qarşılıqlı münasibətdə olmaq
6. Münaqişə edən tərəflərin qarşılıqlı münasibətlərini və ünsiyyətini azaltmaqla düşmənçiliyin artması
7. Münaqişə zamanı tərəflərin real problemi həll etmək əvəzinə “qalibiyyətə” daha çox fikir verməsi
8. Kollektivdə emosional və psixoloji gərginliyin artması
9. Dəyişikliyə və yeniliyə maneçilik törətmə
10. Münaqişələr bəzən prioritetləri o dərəcədə dəyişirlər ki, insanlar əsas maraqları kənarda qoyur.

Münaqişənin funksional nəticələri aşağıdakılardır;

1. Münaqişələr təşkilatın inkişafına və dəyişilməsinə səbəb olurlar, belə ki onlar təşkilatda çatışmazlıqları ortaya çıxarırlar, ziddiyyətləri aşkar edirlər. Həmçinin dəyişikliklərə qarşı müqavimətin aşağı düşməsinə səbəb olurlar.
2. Münaqişələr dinamik tarazlığın mövcudluğuna və ictimai sabitliyə şərait yaradır. Səbəblər dərinliyə getmir əksinə üzə çıxırlar. Beləliklə də, dərinləşərək təşkilata dağıdıcı zərbə vurmurlar.
3. Münaqişələr qrup birliyinin möhkəmlənməsinə, daxili əlaqələrin kəsilməsinin dərinləşməsinin qarşısının alınmasına köməklik göstərir. Onu da qeyd etmək vacibdir ki, bu tip konfliktlər elə məqsədlərə, dəyərlərə və maraqlara toxunurlar ki, onlar əsas qrupdaxili münasibətlərə təsir göstərmirlər. Bununla da ayrı-ayrı şəxslərin və kiçik qrupların ən mühüm tələbatlarına uyğun olaraq konfliktlər qrupdaxili normaların və münasibətlərin dəyişilməsinə gətirib çıxarır.
4. Münaqişə prosesində problem bütün tərəflər üçün qəbul oluna biləcək formada həll edilə bilər. Nəticədə insanlar problemin həllində iştiraklarını hiss edəcəklər. Bu da öz növbəsində qərarların yerinə yetirilməsindəki çətinlikləri aradan qaldırır.

Münaqişə təşkilati struktura müsbət təsir göstərir, ayrıca qrupların sistemdə yerini və rolunu düzgün qiymətləndirməyə imkan verir.

## MÖVZU 11.SOSİAL MÜNAQİŞƏLƏR:ƏSAS ANLAYIŞLAR

Sosial münaqişələr ehtiyat uğrunda mübarizə ilə bağlı olan münaqişələr kimi başa düşülür. Onlar insan və təbiətin sərhədində yaranır və istehsal və istehlak zonasında davam edir. İnsamn insan üzərində hakimiyyəti zonasına keçdikdə bu münaqişələr siyasi münaqişələrə çevrilir, ali dəyərlər uğrunda mübarizə isə onları mənəvi münaqişələrə çevirir.

Uzun müddət təbiət insanlar üçün hüdudsuz xammal mənbəyi və istehsalatdan ona qaytarılan bütün tullantıların universal uducusu hesab olunmuşdur. İnsanlar yalnız XX əsrdə dərk etməyə başladılar ki, təbiətin ahəngləşdirici gücü, habelə xammal ehtiyatları hüdudsuz deyildir. Yer kürəsi insanın artan texniki gücdən səmərəsiz istifadə etməsi ucbatından ekoloji fəlakət təhlükəsi ilə üzləşir. Lazımi həllini tapmamış sosial münaqişə fəlakət mənbəyini təşkil edir.

Problemin dərki və onun səmərəli tənzimi cəhdi, adətən, münaqişənin kəskinliyinin aşağı düşməsinə gətirib çıxarır, bəzən isə gələcəyə yol açır.

**Sosial münaqişənin təbiəti**

Ən müxtəlif tip cəmiyyətlərdə münaqişələrin mövcudluğu mübahisəsiz fakt olduğundan, siyasi sistemlər üçün onların əhəmiyyətini təhlil etmək vacibdir. Bundan ötrü sosial münaqişələri ümumi şəkildə xarakterizə edərək, onların səbəblərini göstərmək, onların müxtəlif tiplərini və alternativ formalarını aşkara çıxarmaq zəruridir.

İlk növbədə, qeyd olunmalıdır ki, münaqişələr subyektləri qismində fərdlərin, qrupların və təşkilatların çıxış etdiyi sosial qarşılıqlı fəaliyyət tipidir; bu, «patoloji kənaraçıxma» deyil, kollektiv həyatın normal aspektidir. Cəmiyyətdə münaqişə və əməkdaşlıq, mübarizə və konsensus qırılmaz surətdə bağlıdır.

Münaqişə məqsədləri real, yaxud ehtimali surətdə bir araya sığmayan iki, yaxud daha çox tərəf arasında sosial münasibət kimi müəyyən oluna bilər.

Münaqişə iştirakçıları öz məqsədlərinin bir araya sığmadığını müxtəlif dərəcədə dərk edirlər. Bu uzlaşmazlıq minimum səviyyədə dərk olunmadan münaqişələr yalnız imkan kimi qalardı.
Münaqişələrin daha bir aspektini onların iştirakçılar tərəfindən keçirilmə intensivliyi təşkil edir. Bəzi münaqişələrdə iştirakçılar güclü qarşılıqlı düşmənçilik hiss edirlər, digər münaqişələrdə onların şəxsi münasibətləri pisləşmir. Digər tərəfdən, bəzi münaqişələr coşğun qasırğa kimi öz iştirakçılarım cəlb etdikləri halda, digər münaqişələr sakit şəraitdə cərəyan edir. Beləliklə, münaqişələrin intensivliyi müxtəlif ola bilər.
Sosial münaqişələr bu və ya digər dərəcədə onların iştirakçılarının qəbul etdikləri institut çərçivələri ilə tənzimlənə, yaxud belə çərçivələrə malik olmaya bilərlər. Belə çərçivələr məhkəmə hakimiyyəti və qüvvədə olan qanunvericilik kimi münaqişənin tənzimlənməsi üçün istifadə olunan xüsusi normalarla və təşkilatlar formalaşdırılır.
Münaqişə tərəfləri arasında münasibətlər iki tip ola bilər:
a) hansısa mənafe mövcud olmadıqda radikal münaqişəli;
b) toqquşmaya baxmayaraq, tərəflərin hansısa ümumi mənafeyə malik olduqları qismən münaqişəli.
Deyilənlərə münaqişədə olanların məcburetmədən istifadə etməsi imkanı əlavə olunmalıdır. Başqa sözlə, münaqişə iştirakçıları öz rəqibini müəyyən davranışa məcbur etmək üçün bərabər, yaxud qeyri-bərabər imkana malik ola bilərlər.
Beləliklə, münaqişə iştirakçılarının uzlaşmayan (yaxud belə hesab etdikləri) məqsədlər səbəbindən bir-birinə qarşı durduqları sosial münasibət tipidir; o, müxtəlif intensivliyə malik ola, tənzimlənə, yaxud tənzimlənməyə, qismən, yaxud radikal ola bilər; nəhayət, münaqişədə məcburetmənin köməyi ilə rəqib üzərində üstünlük imkanı ən mühüm rol oynayır.
**Sosial münaqişələrin kökləri**
Sosial münaqişələrin yuxarıda verilən xarakteristikası onların siyasi sistemlərlə əlaqəsini qiymətləndirməyə imkan verir. Həqiqətən, əgər cəmiyyətlərlərin daxilində münaqişə amilləri mövcud olmasaydı, münasibətlər ahəngdar olsaydı, məcburetmə və münaqişələrin tənzimlənməsi funksiyalarını yerinə yetirən siyasi institutların yaranmasını və fəaliyyətini izah etmək mümkün olmazdı. Artıq qeyd etdiyimiz kimi, siyasi sistemlərdə elitaların əsas funksiyalarından birini münaqişə edən sosial siniflər və qruplar arasında arbitraj təşkil edir, bundan ötrü zərurət halında onlar fiziki zorakılıq tətbiq edirlər. Beləliklə, sosial münaqişələr siyasi sistemlərin yaranmasının və inkişafının əsas amillərindən birini təşkil edir.
***Sosial münaqişələr ən müxtəlif tiplərə aid ola bilər, lakin siyasət baxımından hakimiyyət, maddi nemətlər və sosial nüfuz kimi sərvətlərin bölüşdürülməsi ilə bağlı olan münaqişələr daha mühümdür. Amerikalı politoloq Devid İston yazır ki, «bütün cəmiyyətlərdə kasıblıq üstünlük təşkil edir. Bu, siyasi analizin başlıca ilkin müddəasıdır. Cəmiyyət üzvlərinin tələbatlarını təmin edəcək miqdarda nemətlər (qiymətli əşyalar) yoxdur... Təklifi məhdud olan nemətlərlə bağlı fərqlər və münaqişələr labüddür».*** Aydındır ki, müxtəlif cəmiyyətlərdə kasıblıq səviyyəsi eyni deyildir, buna görə də onlar az inkişaf etmiş, orta inkişaf səviyyəsinə malik və yüksək inkişaf etmiş cəmiyyətlərə bölünür. Beləliklə, kasıblıq nisbi anlayışdır, hətta «bolluq cəmiyyətləri»ndə, məsələn, ABŞ-da belə marginal sosial qruplar mövcuddur, ticarət departamentinin rəsmi statistik məlumatlarına görə, 30 milyondan artıq adam həmin qruplara aiddir. Başqa sözlə, Con Helbreytin bolluq cəmiyyəti adlandırdığı cəmiyyətdə

hökumət sənədlərinin məlumatlarına görə, milyonlarla adam son yoxsulluq həddində yaşayır.

Müxtəlif sosial qrupların can atdıqları müəyyən sərvətlərin çatışmazlığı tamamilə təbii surətdə yalnız siyasi elitalar tərəfindən institutlaşmış zorakılıqla nizamlana biləcək sosial münaqişələr doğura bilər.

Sosial münaqişələrin siyasi elitalar tərəfindən zorakılıqla nizamlanmasının ən mühüm nəticəsi müxtəlif qrupların uğrunda mübarizə apardıqları nemətlərin qeyri-bərabər bölüşdürülməsinin təsbiti olmuşdur. Münaqişələr cəmiyyətin bütövlüyünü təhdid etdiyindən və qruplar arasında danışıqlar yolu ilə razılaşma əldə etmək mümkün olmadığından, elitalar münaqişələri institutlaşdırılmış zorakılığı tətbiq etməklə aradan qaldırırdılar. Lakin artıq göstərildiyi kimi, elitaların münaqişələrə müdaxiləsi heç də tərəfsiz xarakter daşımır; əksinə, onlar müəyyən qrupların tərəfində çıxış edirlər.

***Yuxarıda qeyd etdiyimiz kimi, sosial münaqişələrin əsas mənbəyini hakimiyyət, zənginlik, nüfuz kimi sərvətlərin çatışmaması təşkil edir***. Bu tezisi, hətta, Marks kimi müəlliflər də bölüşərək göstərirlər ki, ictimai siniflər arasında münaqişələrin aradan qaldırılması üçün tələb olunan şərtlərdən biri «hər kəsə - tələbatına görə» prinsipi əsasında bölgünü təmin edən bolluqdur. Marks üçün sosializm strategiyası yalnız məhsuldar qüvvələrin sürətli inkişafının «bolluq erası»nı mümkün etdiyi dərəcədə məna daşıyırdı. Beləliklə, Marksm fikrincə, kapitalizmdən sosializmə keçid sadəcə mülkiyyət rejiminin dəyişməsi ilə məhdudlaşmır, bütövlükdə cəmiyyət üçün əmtəə və xidmətlər təklifinin sürətli artımını nəzərdə tutur. Marksm fikrincə, yalnız bolluq şərtilə sosial siniflər arasında münaqişələr problemi uğurla həll oluna bilər.

**Sosial münaqişələrin tipləri**

Bir qayda olaraq, münaqişələrin iki tipi fərqləndirilir:

a) cəmiyyətin təməl konsensusuna toxunmayan, yəni iştirakçıları münaqişənin həlli üçün bütövlükdə sosial sistemin dəyişdirilməsini tələb etməyən münaqişələr;

b) mövcud münaqişələrin həlli üçün bütövlükdə cəmiyyətin dəyişdirilməsini nəzərdə tutan münaqişələr.

Birinci tip münaqişələr tərəflər arasında razılaşma əsasında inkişaf edə biləcəyi halda, ikinci tip münaqişələr cəmiyyəti rəqibini məhv etmək uğrunda mübarizə aparan barışmaz qruplara ayırır. Belə münaqişələrdə ən yaxşı halda müvəqqəti barışıq mümkündür, tərəflər arasında əsas məsələlər üzrə konsensus isə mümkün deyildir.

Həlli bütövlükdə cəmiyyətin dəyişdirilməsini tələb edən münaqişələrdə (məsələn, metropoliya və müstəmləkə ölkələri arasındakı münaqişələrdə) əsas mübarizə metodlarından birini hər iki tərəfdən zorakılıq təşkil edir. Belə münaqişələr dərhal həll oluna bilmədikdə elitaların başlıca vəzifəsini onların nizamlanması üçün səmərəli üsulların axtarılması təşkil edir. Əsas qrupların arasında barışmaz münaqişələrin mövcud olduğu cəmiyyətlər yalnız siyasi elitaların münaqişələrin vaxtında tənzimlənməsinin adekvat mexanizmlərini tapmağa qabil olması halında saxlana bilər. Bu baş verdikdə münaqişələrin didib-parçaladığı cəmiyyət hələ uzun müddət mövcud olaraq artıq labüd inqilabi partlayış gözləyənləri təəccübləndirə bilər. Keçən əsrin 20-ci illərində məhz belə oldu; o dövrdə sosialistlərin əksəriyyəti belə hesab edirdi ki, daxili sinfi münaqişələr səbəbindən kapitalizmin süqutu hər an baş verə bilər. Məlum olduğu kimi, kapitalist ölkələrinin siyasi elitaları müxtəlif üsullarla böhranı aradan qaldırıb, kapitalizmin tarixi həyatını uzada bildilər, hərçənd onun sosial münaqişələri öz həllini tapmadı.

**Sosial münaqişələrin funksiyaları**

Artıq qeyd olunduğu kimi, münaqişə və konsensus sosial həyatın iki ayrılmaz məqamını təşkil edir. Sosial münaqişələr çox vaxt insanlar tərəfindən mənfi qiymətləndirilir; belə hesab olunur ki, onlar xaos və təhlükələr doğurur. Hərçənd şübhə yoxdur ki, müəyyən edilmiş qayda baxımından münaqişələr təhlükə daşıya bilər; ictimai proseslərin dinamikasının artırılmasında onların funksiyasının etirafı zəruridir.

***Struktur-funksionalizm cərəyanına mənsub sosioloq Lüis Kozer yazır: «Münaqişə sosial sistemlərin daşlaşmasına mane olaraq, yeniləşmə və yaradıcılıq istəyi doğurur».*** Sosial münaqişələr ictimai dəyişikliklərin əsas mənbəyidir, çünki müəyyən qruplar məhz onların vasitəsilə dəyişiklikləri kollektiv həyata tətbiq etməyə çalışırlar. Qəti ifadə etsək, siyasi elitalar münaqişələri gizlətməyə çalışsa da, münaqişəsiz cəmiyyətlər mövcud deyildir. Adətən, siyasi elitalar real münaqişələrin mövcudluğunu inkar edərək, daxili, yaxud xarici qrupları süni surətdə münaqişə yaratmaqda ittiham edirlər. Əlbəttə, bəzi münaqişələr «süni surətdə» yaradıla bilər, lakin bu, yalnız müəyyən həddə qədər mümkündür. İstənilən halda münaqişələrin yaranmasının obyektiv əsası ola biləcək hansısa real faktların mövcudluğu tələb olunur. Əgər cəmiyyət üzvləri arasında tam həmrəylik qorunsaydı, tarixi inkişafı təsəvvür etmək çətin olardı. Müxtəlif və bəzən bir-birini istisna edən kollektiv layihələrə malik sosial qrupların mövcudluğu sosial sistemin inkişafına təkan verərək, institutlaşmış yanaşı mövcudluğun yeni frormalarını doğurur. **Alman sosioloqu *Ralf Darendorf* məhz bunu nəzərdə tutaraq göstərir ki, «ümumi sosial dəyişiklik prosesinin amili kimi münaqişələr əvəzedilməzdir**. Münaqişələr olmayan, yaxud yatırılan və ya görüntü üçün həll edilən yerdə dəyişiklik ləngiyir, yaxud dayanır».

Siyasi elitalar sosial münaqişələri onların dərin köklərinə toxunmadan nizamlamağa çalışdıqda sistematik surətdə fiziki zorakılıq tətbiq etməyə məcbur olurlar. Buna baxmayaraq, münaqişələr aradan qalxmır, yalnız müvəqqəti surətdə səngiyir, nəhayət, yeni amillər onları ikiqat qüvvə ilə fəallaşdırır. Artıq yuxarıda iqtibas gətirdiyimiz müəllif əlavə edir: «Sosial münaqişələrin yatırılmasına cəhd göstərildiyi dərəcədə onların virulent potensialı artır ki, bu da daha böyük repressiyalar doğurur, nəhayət, yer üzündə münaqişə enerjisini çərçivə daxilində saxlaya biləcək qüvvə qalmır».

**Başqa sözlə, münaqişə və repressiyaların qüsurlu dairəsi yaranır, o, çox vaxt kütləvi terrora, yaxud inqilabi partlayışa gətirib çıxarır. Deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, ən müxtəlif tipli siyasi sistemlərdə elitalar, bir qayda olaraq, münaqişələrin nizamlanmasının aşağıdakı dörd metodundan istifadə edirlər:**

**a) «ahəngdarlığın bərqərar olması» haqqında mülahizələrə əsaslanaraq münaqişələrin inkarı;**

**b) kütləvi repressiyalar;**

**c) münaqişələrin köklü həlli cəhdləri;**

**ç) patrlayış təhlükəsi aradan qalxana qədər münaqişələri nizamlamaq cəhdləri.**

Deməyə ehtiyac yoxdur ki, münaqişələrin inkarı və yatırılması uzunmüddətli perspektivdə məğlubiyyətə məhkumdur, çünki kütlələr və kontr-elita istənilən halda elitanı devirə bilərlər. Digər tərəfdən, tarixi inkişaf göstərir ki, sosial münaqişələrin qəti həlli cəhdləri siyasi utopiyaların başlıca mövzusunu təşkil edərək, bu məqsədə çatmaqdan çox uzaqdır. Hərçənd bu sahədə mühüm dəyişikliklər baş vermişdir. Nəhayət, münaqişələrin nizamlanması onların mövcudluğunun qəbul edilməsini və onların qəti həlli ideyasından imtina olunmasım əsas götürür. Münaqişələr nizamlanarkən heç də aradan qalxmır və onların intensivliyi həmişə dəyişmir, lakin bu

zaman münaqişələr müəyyən institutlardan keçir ki, bu da siyasi elita tərəfindən onlara nəzarət imkanlarını artınr. Aydındır ki, real siyasi həyatda elitalar təsvir olunmuş metodikalardan həm eyni vaxtda, həm də alternativ əsasda istifadə edirlər.

Aydındır ki, digər təşkilatlarla münaqişə şəraitində onlardan birinə, məsələn, siyasi partiyaya mənsubiyyət hissi kəskinləşir. Münaqişə münasibətləri çərçivəsində «biz» və «onlar» arasında fərq aydın şəkildə təzahür edir, beləliklə, sərhəd yaranır. Münaqişələr qrupun eyniləşməsin! möhkəmləndirir, onun daxili mütəşəkkilliyinin qorunmasını asanlaşdırır. Belə bir fakt bununla izah olunur ki, böhran şəraitində siyasi elitalar düşməni aşkara çıxarır, lazım olduqda isə onu «yaradırlar». Yaxşı məlumdur ki, elitalar ciddi sosial münaqişələrlə rastlaşdıqda kontr-elitanm və kütlələrin diqqətini digər ölkələrlə sərhəd problemlərinə yönəltməyə çalışırlar. Xarici təhlükə siyasi sistem çərçivəsində münaqişədə olan qrupları vahid cəbhədə birləşdirə bilər. Beləliklə, xarici münaqişələr «qoruyucu klapan» rolunda çıxış edərək, təcavüzkarlığı başqa məqsədlərə yönəldə bilər. Siyasi elitalar rəqiblərinə qarşı fiziki zorakılıqdan istifadə etdikdə onların birləşməsinə təkan verirlər. Beləliklə, siyasi sistemlərin təşəkkülündə və inkişafında sosial münaqişələr ən mühüm rol oynayır. Məhz ona görə də bu problemlər tez-tez qarşımıza çıxır.

Münaqişə həm müsbət, həm də mənfi sosial funksiyaları həyata keçirir. Münaqişənin nəticələrinə obyektiv və subyektiv qiymətlər verilə bilər. Məsələn, istehsal (sosial-əmək) münaqişəsi nəticəsində müəssisənin yenidən qurulmasının mümkünlüyü obyektiv surətdə müsbət təzahürdür, lakin ştat ixtisarı nəticəsində işdən çıxarılmış işçilərin mövqeyindən yanaşdıqda, bu münaqişə mənfi qiymətləndiriləcəkdir.

Münaqişənin müsbət, yaxud mənfi təsiri bir çox cəhətdən sosial sistemlə şərtlənir. Sərbəst strukturlu qruplarda və münaqişənin norma hesab olunduğu, onun nizamlanmasının müxtəlif mexanizmlərinin mövcud olduğu açıq cəmiyyətlərdə münaqişə, bir qayda olaraq, həyat qabiliyyətinin, dinamizmin və tərəqqiyə meylin artmasına təkan verir. Totalitar cəmiyyətdə sosial münaqişə prinsip etibarilə qəbul olunmur, onun həllinin yeganə mexanizmi isə güc hesabına yatırmaqdan ibarətdir. Yatırılmış münaqişə funksiyalarını itirir, cəmiyyəti parçalanmaya, köhnə ziddiyyətlərin kəskinləşməsinə və yeni ziddiyyətlərin yaranmasına aparıb çıxarır.

Sosial münaqişənin açıq sosial strukturlar üçün xarakterik olan bəzi müsbət funksiyalarını nəzərdən keçirək.

1. Münaqişə ziddiyyətləri üzə çıxararaq həll edir və bununla da ictimai inkişafa təkan verir. Vaxtında aşkara çıxarılmış və həll edilmiş münaqişə ağır nəticələrə aparıb çıxaran daha ciddi münaqişələrin qarşısım ala bilər.

2. Açıq cəmiyyətdə münaqişə qrupdaxili və qruplararası münasibətlərin sabitləşdirilməsi və birləşdirilməsi funksiyalarım yerinə yetirir, sosial gərginliyi aşağı salır.

3. Münaqişə əlaqə və münasibətlərin intensivliyini dəfələrlə artırır, sosial prosesləri stimullaşdırır, cəmiyyətə dinamiklik verir, yaradıcılıq və yeniliyi təşviq edir, ictimai tərəqqiyə təkan verir.

4. Münaqişə vəziyyətində insanlar həm öz mənafelərini, həm də onlara zidd mənafeləri daha dəqiq dərk edir, ictimai inkişafı obyektiv problem və ziddiyyətlərinin mövcudluğunu daha tam şəkildə üzə çıxarırlar.

5. Münaqişə ətraf sosial mühit, rəqib birliklərin güc potensialnın nisbəti haqqında informasiya əldə olunmasına təkan verir.

6. Xarici münaqişə qrupdaxili inteqrasiyaya və eyniləşməyə təkan verir, qrupun, millətin, cəmiyyətin vəhdətini möhkəmləndirir, daxili ehtiyatlan səfərbər edir. O, həmçinin dostlar və müttəfiqlər tapmağa kömək edir, düşmənləri və bədxahları üzə çıxarır.
7. Daxili münaqişələr (qrupda, təşkilatda, cəmiyyətdə) aşağıdakı funksiyaları yerinə yetirir:
~ qüvvələr nisbətinin (o cümlədən hakimiyyət nisbətinin) yaradılması və qorunması;
- hamı tərəfindən qəbul olunmuş norma, qayda və dəyərlərə riayət olunmasına sosial nəzarət;
- yeni sosial norma və institutların yaradılması, mövcud norma və institutların yeniləşdirilməsi;
- fərd və qrupların adaptasiyası və sosiallaşdırılması;
- qrup təşkili, qrupların normativ və fiziki sərhədlərinin müəyyən edilməsi və qorunması;
- qrupdaxili və qruplararası münasibətlərin nisbətən sabit strukturunun müəyyən edilməsi və qorunub saxlanması;
- qrupda və cəmiyyətdə qeyri-formal iyerarxiyamn müəyyən edilməsi, o cümlədən qeyri-formal liderlərin üzə çıxarılması.
8. Münaqişə iştirakçılann mövqelərini, mənafelərini və məqsədlərini üzə çıxarır, bununla da yaranan problemlərin tarazlaşdırılmış həllinə təkan verir. Açıq sosial sistemdə münaqişə «qoruyucu klapan» rolunu yerinə yetirərək, meydana çıxan ziddiyyətləri aşkarlayır və bütövlükdə sosial strukturu qoruyub saxlayır.
Sosial münaqişə aşağıdakı hallarda mənfi funksiyaları daşıyır:
- iğtişaş və qeyri-sabitliyə aparıb çıxardıqda;
- cəmiyyət sülh və asayişi təmin edə bilmədikdə;
- mübarizə zorakı metodlarla aparıldıqda;
- münaqişə nəticəsində böyük maddi və mənəvi itkilər baş verdikdə;
- insanların həyat və sağlamlığı üçün təhlükə yarandıqda.
Emosional münaqişələrin əksəriyyəti, o cümlədən insanların sosial-psixoloji uzlaşmazlığı nəticəsində yaranan münaqişələr mənfi münaqişələrə aid edilməlidir. Zəruri qərarların qəbul edilməsini çətinləşdirən münaqişələr də mənfi münaqişələr hesab olunur. Müsbət münaqişənin uzanması da mənfi nəticələrə gətirib çıxara bilər.
**Sosial münaqişələrin növləri və əsas inkişaf mərhələləri**
Münaqişələrin əsas növləri təsnifləşdirmənin əsası qismində götürülən meyardan asılı olaraq müəyyən edilir. Əsas qismində tərəflərin xüsusiyyətləri götürüldükdə aşağıdakı münaqişələri fərqləndirmək olar: şəxsiyyətlərarası, şəxsiyyətlə qrup arasında, qrupdaxili, kiçik və böyük sosial birliklər arasında, millətlərarası və dövlətlərarası.
Təsnifləşdirmənin əsası qismində ictimai həyat sahələri götürüldükdə siyasi, iqtisadi, ideoloji, sosial, hüquqi, ailə-məişət, ictimai-mədəni və s. münaqişələrdən söz açmaq olar. Münaqişələrin motivlərindən asılı olaraq, sosial münaqişələrin üç bloku fərqləndirilir:
1) hakimiyyət səlahiyyətlərinin və mövqelərinin bölüşdürülməsi ilə əlaqədar yaranan münaqişələr;
2) maddi ehtiyatlarla əlaqədar yaranan münaqişələr;
3) ən mühüm həyati yönəliş dəyərləri ilə əlaqədar yaranan münaqişələr.
**Münaqişənin motivləri və vəziyyətin subyektiv qavranıiması nəzərə alınmaqla münaqişələrin aşağıdakı növləri fərqləndirilir:**

1. **Yalançı münaqişə** - real səbəblər mövcud olmadığı halda subyekt tərəfindən vəziyyətin münaqişə kimi qavranılması;
2. **Potensial münaqişə** - münaqişənin yaranması üçün real əsaslar mövcuddur, lakin hələ tərəflərin heç biri, yaxud hər ikisi bu və ya digər səbəblərdən (məsələn, informasiya çatışmazlığı ucbatından) hələ vəziyyətin münaqişəli olduğunu dərk etməmişlər;
3. **Həqiqi münaqişə** - tərəflər arasında real toqquşma. Öz növbəsində, həqiqi münaqişəni aşağıdakı yarımnövlərə ayırmaq olar:
**a) konstruktiv** - subyektlər arasında real surətdə mövcud olan ziddiyyətlər əsasında yaranmış münaqişə;
**b) təsadüfi** - anlaşılmazlıq, yaxud təsadüf nəticəsində yaranmış münaqişə;
**c) yeri dəyişdirilmiş (gizli)** - yalançı əsasla yaranmış, həqiqi səbəbin gizli olduğu münaqişə. Məsələn, biliyinə aşağı qiymət verilməsindən narazı tələbə imtahanı götürən müəllimlə qarşıdurmaya girmək üçün hər hansı bəhanədən istifadə edir;
**ç) yanlış aidiyyatlı münaqişə** - münaqişənin həqiqi müqəssirinin, subyektinin qarşıdurmada «pərdə arxası»nda qaldığı, münaqişəyə ona aiddiyyatı olmayan iştirakçıların cəlb olunduğu münaqişə. Məsələn, insan törətmədiyi cinayətdə ittiham olunur.
Təsnifləşdirmənin əsası qismində tərəflərin psixi halı və insanların münaqişəli vəziyyətlərdə bu hala uyğun davranışı götürüldükdə münaqişələr rasional və emosional münaqişələrə ayrılır. Münaqişənin məqsəd və nəticələrindən asılı olaraq, onlar müsbət və mənfi, konstruktiv və destruktiv münaqişələrə ayrılır.
Adətən, sosial münaqişədə dörd inkişaf mərhələsi fərqləndirilir:
1. Münaqişəqabağı mərhələ,
2. Münaqişə.
3. Münaqişənin həlli.
4. Münaqişədən sonrakı mərhələ.
Hər bir mərhələni ətraflı surətdə nəzərdən keçirək.
**Münaqişəqabağı vəziyyət**-münaqişəqabağı vəziyyət sosial münaqişənin potensial subyektləri arasındakı münasibətdə müəyyən ziddiyyətlərlə şərtlənən gərginliyin artmasında təzahür edir. Lakin ziddiyyətlər heç də həmişə münaqişəyə keçmir. Yalnız münaqişənin potensial subyektlərinin uzlaşmaz ziddiyyət kimi dərk etdikləri ziddiyyətlər sosial gərginliyin artmasına gətirib çıxarır.
Sosial gərginlik heç də həmişə münaqişənin müjdəçisi olmur. Bu, ən müxtəlif yaranma səbəblərinə malik ola biləcək mürəkkəb sosial fenomendir. Sosial gərginliyin artmasını şərtləndirən ən xarakterik səbəbləri sadalayaq;
1. İnsanların mənafe, tələbat və dəyərlərinin real surətdə pozulması.
2. Cəmiyyətlə, yaxud ayrı-ayrı sosial birliklərdə baş verən dəyişikliklərin qeyri-adekvat qavranılması.
3. Bu və ya digər real, yaxud yalançı faktlar, hadisələr haqqında yanlış, yaxud təhrif olunmuş informasiya və s.
Sosial gərginlik özünün mahiyyəti etibarilə insanların psixoloji vəziyyətini ifadə edir və münaqişə başlanana qədər latent (gizli) xarakter daşıyır.
Bu dövrdə sosial gərginliyin ən xarakterik təzahüm kimi qrup emosiyalan çıxış edir. Optimal cəmiyyətdə sosial gərginliyin müəyyən səviyyəsi sosial orqanizmin təbii müdafə və uyğunlaşma reaksiyasını ifadə edir. Lakin sosial gərginliyin optimal səviyyəsini aşma münaqişələrə gətirib çıxara bilər. Real həyatda sosial gərginliyin yaranma səbəbləri bir-birinə əlavə oluna, yaxud bir- birini əvəz edə bilər. Məsələn,

vətəndaşların bir hissəsinin bazara mənfi münasibəti, ilk növbədə, iqtisadi çətinliklərlə şərtlənsə də, çox vaxt dəyər yönümü kimi təzahür edir. Əksinə, dəyər yönümü, bir qayda olaraq, iqtisadi səbəblərlə əsaslandırılır.

Sosial münaqişədə aparıcı anlayışlardan birini qane olmama təşkil edir. Mövcud vəziyyətdən, yaxud hadisələrin inkişafının gedişindən qane olmama sosial gərginliyin artmasına aparıb çıxarır. Bu zaman qane olmama subyektiv-obyektiv münasibətlərdən subyektiv-subyektiv münasibətlərə keçir. Bu keçidin mahiyyəti ondan ibarətdir ki, münaqişənin potensial subyekti qeyri- qənaətbəxşliyin real (yaxud ehtimali) müqəssirlərini fərdiləşdirir və eyni zamanda yarannuş vəziyyətin adi qarşılıqh fəaliyyət üsulları ilə həllinin qeyri-mümkünlüyünü dərk edir.

**Münaqişəqabağı mərhələni şərti surətdə üç inkişaf dövrünə ayırmaq olar.** Həmin inkişaf dövrləri üçün tərəflərin qarşılıqlı münasibətlərində aşağıdakı xüsusiyyətlər səciyyəvidir:

1. Müəyyən mübahisəli obyektlə əlaqədar ziddiyyətlərin yaranması; etimadsızlığın və sosial gərginliyin artması; birtərəfli, yaxud qarşılıqlı iddiaların irəli sürülməsi; təmasların azalması və incikliyin toplanması.
2. Öz iddialarının hüquqauyğunluğunu sübuta yetirməyə can atma və rəqibi mübahisəli məsələləri «ədalətli üsullarla» həll etmək istəməməkdə ittihamlandırma; öz stereotiplərinə qapanma; emosional sahədə qərəz və nifrətin meydana çıxması.
3. Qarşılıqlı fəaliyyət strukturlarının dağılması; qarşılıqlı ittihamlardan təhdidlərə keçid; təcavüzkarlığın artması; «düşmən obrazı»nm formalaşması və mübarizəyə yönəliş.

Beləliklə, münaqişəli vəziyyət tədricən açıq münaqişəyə çevrilir. Lakin öz-özlüyündə o, uzun müddət mövcudluğunu saxlaya və münaqişəyə çevrilməyə bilər. Münaqişənin real olması üçün insident zəruridir.

**İnsident** - tərəflərin bilavasitə toqquşmasının başlanması üçün formal bəhanə, hadisədir. İnsident təsadüfən baş verə, habelə münaqişə subyekti (subyektləri) tərəfindən provokasiya oluna, hadisələrin təbii gedişatınm nəticəsi ola bilər. Bəzən insidenti «özgələrin münaqişəsi»ndə müəyyən mənafelər güdən «üçüncü tərəf» hazırlayır və qızışdırır.

İnsident münaqişənin yeni keyfiyyətə keçməsini ifadə edir. Yaranmış vəziyyətdə münaqişə tərəflərinin üç davranış variantı mümkündür:

1. Tərəflər (tərəf) yaranmış ziddiyyətləri yoluna qoymağa və kompromis əldə etməyə can atırlar.
2. Tərəflərin biri özünü elə aparır ki, heç nə baş verməmişdir (münaqişədən qaçma).
3. İnsident açıq qarşıdurmanın başlanması üçün siqnala çevrilir. Bu və ya digər variantın seçilməsi bir çox cəhətdən tərəflərin münaqişə yönəlişindən (məqsədlərindən, gözləntilərindən, emosional yönümündən) asılıdır.

## MÖVZU 12.MÜASİR MÜNAQİŞƏLƏRİN İDEOLOJİ VƏ PSİXOLOJİ ASPEKTLƏRİ

İdrakı psixologiya rasional seçim normalarından bir sıra sistemli sapmalar müəyyən etmişdir. Mühakimə, qiymətləndirmə və seçim haqqında rasional aktyor fərziyyələrindən sapmalar mürəkkəb, çox vaxt pis strukturlaşdırılımş problemlərə və siyasi rəhbərlərin ənənəvi olaraq beynəlxalq əlaqələrdə üzləşdiyi növ, qeyri-müəyyən ətraf mühitə vaxtında reaksiya verməyə imkan verən sadə qaydalara ehtiyac olması ilə izah edilirdi. Adi, gündəlik şəraitdə yaxşı strukturlaşmış mühitlərdə bu reaksiyalar uyğunlaşma yönlüdür, lakin mürəkkəb, zəif strukturlaşmış mühitdə əhəmiyyətli

təhriflərə gətirə bilər. **Seçimin vahid idraki nəzəriyyəsi yoxdur və idraki psixoloqlar hər hansı üstün seçim qaydası müəyyən etməmişlər**. Əvəzində onlar insanların məlumatı emal etdiyi süzgəcləri və onların dünyaya müəyyən məna vermək üçün işlətdikləri sadələşdirmə mexanizmlərini müəyyən etmiş və çeşidləmişlər. ***Siyasi psixoloqlar idraki psixologiyada aparılnuş tədqiqatdan istifadə edərək, münaqişə ilə əlaqədar seçimlə üzləşən kollektivlərin liderlərini məxsusi qeyri-müəyyənlik və mürəkkəblikləri tipik idraki ixtisarlar (sadələşdirmə) vasitəsilə idarə etməyə çalışan idraki idarəçilər kimi görür***. İdraki psixologiya vahid seçim nəzəriyyəsi təmin etmirsə də, insanların ideal rasional seçimdən niyə sapmalarını izah edir və beynəlxalq siyasət təhlilçilərini həm rəhbərlərin problemi özlərinə necə təsəvvür etmələrinin mühüm olduğu, həm də rəhbərlərin güman ki, istifadə edəcəkləri sistemli sadələşdirmə strategiyalarının menyusu haqqında xəbərdar edir.
***İdraki psixologiya göstərmişdir ki, insanların əvvəlki inamları məlumatın emalına güclü təsir göstərir***. İdraki ardıcıllıq nəzəriyyələri postulə edir ki, fərdlər özlərinin uyğun gəlməyən məlumata qarşı «inam sistemlərinin» ardıcıllığını onları rasional nəticə çıxarma və seçim etmə normalarından kənara aparan yollarla təmin etməyə çalışır. Bu zaman uyğun olmayan məlumatın təsirinə məruz qaldıqdan sonra inamların möhkəmlənməsi, insanların ortaya çıxan uyğunsuzluğu izah etmək üçün istifadə etdikləri əsaslandırma proseslərinin nəticəsidir. Uyğun gəlməyən məlumatın dəyərsizləşmə faizi təşkil edilmiş inamlarla müqayisədə rasional normaların müntəzəm (sistemli) olaraq diqtə edə biləcəyindən daha yüksəkdir və insanlar gözlənilən nəticələrin artıq qurulmuş inamlara uyğun olan variantlarım seçməyə meyl edir.
**Aidetmə (atribusiya) nəzəriyyəçiləri** «sxemin» və ya fərdin anlayışlarının və onların müəyyənetmə xüsusiyyətlərinin (atributlarının) mühümlüyünü vurğulayırlar. Sxem ətraf mühitin müəyyən cəhəti haqqında işçi fərziyyədir və özüm (özüm-sxemi), başqa fərdlər (şəxs sxemi), qruplar (rol sxemi) və ya mühitdəki hadisələr ardıcıllığı (ssenarilər) anlayışı ola bilər. **İnsanlar sxemdən öz mühitlərinin yozumunu vermək və fəaliyyətə hazırlaşmaq üçün ssenarilər - mühit haqqında işçi fərziyyələr - qurmaq üçün istifadə edirlər. İdraki uyğunluq nəzəriyyəsindən fərqli olaraq, atribusiya nəzəriyyələri fərdi sxemlər toplusunun ardıcıl sistem formalaşdırdığını fərz etmir**. Lakin idraki uyğunluq nəzəriyyələri kimi onlar da fərz edir ki, bir dəfə yaranmış sxem dəyişikliklərə müqavimət göstərir.
Mövcud sxemə uyğun olmayan məlumatın dəyərsizləşdirilməsi meyli idraki sabitliyə əhəmiyyətli töhfə verir. İnsanlar öz gözlənlilərinə kiçik dispersiya (səpilmə) təyin edirlərsə, sxemin dəyişikliklərə müqavimət göstərməsi postulatı statistik məntiqə uyğunluq kimi yozula bilərdi. Uyğun olmayan məlumatın təsirinə məruz qalmanın mövcud sxemi pozmaq deyil, gücləndirdiyini təkrar-təkrar müşahidə edən psixoloji tədqiqatlar belə yozumla ziddiyyət təşkil edir.
**Ümumi evristika** və əvvəlcədən yaranmış inamlar da rasional təftiş və mühakimə proseslərini zəiflədə bilər. **Evristika insanların sxemlərində oturmuş fərziyyələri yoxlamaq üçün qaydalardır və məlumatın emalı üçün rahat olan ən cəld üsul və ya baş barmaq qaydası kimi başa düşülə bilər**. Ən yaxşı sənədləşdirilmiş üç evristika ***əlçatanhq (mümkünlük), ıuyarlıq (reprezentativlik)*** və ***bağlamadır*** (hesablama başlanğıcına). Əlçatanhq evristikası insanların birqiymətli olmayan məlumatı ən asan yadda saxladıqları terminlərdə yozmaq meylinə aiddir. Reprezentativlik evristikası insanların bir hadisə ilə ona qədər olmuş hadisələr sinfi arasında oxşarlıqları şişirtmək meylinə aiddir və adətən, ehtimal fərziyyələri və tezlik hesablamaları zaman

əhəmiyyətli səhvlərə gətirir. Bağlama evristikası «əlçatan» (çox vaxt dəqiq olmayan) ilkin dəyərin bir başlanğıc nöqtəsi kimi götürülməsi və onunla müqayisə etmək yolu ilə amplitudun (miqyasın) və ya dərəcənin hesablanmasına aiddir.
Hər üç evristika, hadisədən qabaqkı idraki vəziyyətin təsirini inikas etməklə, hesablama və mühakimələrdəki həlledici səhvləri izah etməyə kömək edir. Əvvəlcədən qəbul edilmiş idraki mövqelər də aidetmədə səhvlərə gətirir. İnsanları digərlərinin fəaliyyətinin onların əvvəlcədən üstünlük verdikləri davranışın nəticəsi olması ehtimalını və özlərinin bu fəaliyyətin hədəfi olması dərəcəsini şişirtməsinə səbəb olan əvvəlcədən formalaşmış eqoist mövqe münaqişəli vəziyyətdə daha böyük gərginliyə öz payını verir. İnsanlar özgələrinin davranışını qiymətləndirərkən şəraitlə müəyyən edilənlərlə müqayisədə mövqe ilə müəyyən edilən amillərin əhəmiyyətini şişirdirsə, özgələrinin davranışına, ümumiyyətlə, stimullara gerçək olandan daha böyük ardıcıllıq və məna yazırsa, onlar fundamental aidetmə səhvi edirlər.
İdraki psixologiya yüksək dəyərlərin oyuna qoyulmuş olduğu beynəlxalq münaqişələrin mənzərəsini yaradarkən rəhbərlərin apardığı mühakimələri təhrif edə biləcək bir sıra sapıntılar müəyyən etmişdir. Tədqiqatın mühüm bir hissəsi çərçivələməni fərdlə yox, şəraitlə əlaqələndirir və seçimə güclü təsiri proqnozlaşdırır, Rasional seçim nəzəriyyəsinin toplum xidmət funksiyaları variantına ən böyük düzəliş olan perspektiv **(baxış bucağı) nəzəriyyəsi** bildirir ki, qərarın qəbul edilməsi məsələsinin necə çərçivələnməsi (strukturlaşdırılması) seçimə təsir göstərir.
Çərçivələmə, sadəcə olaraq, variantların təqdim edilmə ardıcıllığının və ya variantları təsvir edən dilin seçimə necə təsir edə biləcəyi yollarını göstərir. Tədqiqat intuisiyaya güclü surətdə əks olan nəticələr təklif edir: problemin məğzini dəyişmədən, seçimi mümkün variantların ardıcıllığı və təsviri vasitəsilə idarə etmək mümkündür. Sadəcə çərçivənin dəyişməsinin üstünlüklərdə dəyişiklik edə biləcəyinin aydınlaşması rasional seçimin ən fundamental aksiomlarından birini pozur. Beynəlxalq münaqişənin idarə edilməsi üçün siyasətin əhəmiyyəti şübhəsiz və güclüdür.
Baker təhtəlşüur (intuitiv) olaraq nəzər nöqtəsi nəzəriyyəçilərinin irəli sürdüyü mühüm bir mülahizəni qəbul etmişdi. İnsanlar aidiyyatlı nöqtə ətrafında problemi çərçivələyir və variantları içəridə qalan hissənin üstünlükləri baxımından nəzərdən keçirirlər. Onların müəyyən etdikləri variantlar qazanc oblastındadırsa, insanlar risk etməməyə meylli olur, əgər müəyyən etdikləri variantlar itki oblastındadırsa, insanlar riskli variantı seçməyə meylli olur. Beləliklə, **risk** qabaqcadan formalaşmış fərdi mövqeyin deyil, problemləri çərçivələməyin funksiyasıdır.
**Nəzər nöqtəsi nəzəriyyəsi** riskdən qaçmağı və riski qəbul etməyi təşviq edən şəraitin şərtlərini müəyyən edir. Rəhbərlər son zamanlardakı itkilərlə barışmadıqda və kiçik ehtimallara yəqinliyin ekvivalenti kimi baxdıqda onların riskə meylliliyinin rasional seçimin fərz edə biləcəyindən daha artıq olacağı xüsusilə ehtimallıdır.
Onlar qazanc oblastında olarkən və ya qazanc üçün nor- malaşdırılmış olduqda, böyük itki nümunələrinə daha çox diqqət yetirmək nəticəsində kiçik itki ehtimallarını olduğundan artıq qiymətləndirdikdə və müntəzəm olaraq böyük uğur ehtimallarını olduğundan aşağı qiymətləndirəndə güman ki, risk etməməyə daha meylli olacaqlar.
Çoxlu sayda təcrübələr və mədəniyyətlərin geniş diapazonu **baxış bucağı nəzəriyyəsinin** xeyrinə sağlam sübutlar verir. Baxış bucağı nəzəriyyəsi xarici siyasət sahəsində qərarların qəbul edilməsinin təhlilinə geniş tətbiq olunmuş və inandırıcı izahlar təmin etmişdir. Baxış bucağı nəzəriyyəsi rəhbərlərin qurduqları idraki struktur daxilinə qoyulmuş qərar qəbul etmə qaydasını da verir və sövdələşmə və danışıqlarda

münaqişənin qızışmasma və ruhdan düşməyə ciddi təsir edən riski qəbuletmə meylini göstərir.
İdraki psixologiya laboratoriyada yaradılmışdır. Qabaqcadan formalaşmış rəylər və evristikalar yüksək dərəcədə idarə edilə bilən mühitdə aparılan təcrübələrin gedişində kəşf edilmişdir, lakin laboratoriya gerçək aləmdən bir sıra əhəmiyyətli fərqlərə malikdir. Bu, laboratoriyada sınaqdan keçirilmiş anlayışların təbii şəraitə daşına və işlək edilə bilib-bilməyəcəyi barədə mühüm suallar qaldırır.
**Aid etmə (ayağına yazma) tədqiqatları**, adətən, subyektlərin hadisənin niyə baş verdiyini açıq müəyyən etməyini tələb edir, hərçənd ki, hadisələrin çoxu konkret səbəbiyyət sualları olmadan baş verir. Bundan başqa, nəzər nöqtəsi nəzəriyyəsi təcrübələrinin çoxunda baxılması istənilən məsələlərin mövzuları, ümumiyyətlə, **trivial** (öz- özünə aşkar) və yüksək dərəcədə strukturlaşmışdır.

**Kollektiv seçimin ideoloji va psixoloji aspektləri**

Sosial psixologiya kiçik qrupların dinamikasını təhlil etmək vasitəsilə, müəyyən şərtlər daxilində, beynəlxalq münaqişələrlə əlaqədar mühüm qərarların qəbulunun izah edilməsinə yardım göstərir. Bu növ izahlar problemlərin pis strukturlaşmış, siyasət qurmaq prosesinin başında hansısa kiçik bir qrupun olduğu və ya siyasətin bir neçə qrupun qarşılıqlı təsiri nəticəsində qurulduğu halda faydalıdır.
Qruplar problemin hamı tərəfindən bölüşdürülən (ümumi) təqdimatını qurmaq üçün kollektiv müzakirənin fərqləri minimallaşdırmağa, alternativlərin üstün və çatışmayan cəhətlərini ümumi təhlil etməyə xidmət göstərən «sadəcə münasibliyə» meyl edə bilər. Məsələn, onlar bunu «qabaqlayıcı razılaşma» prosesi - siyasi və inzibati tabeçilikdə aşağı səviyyədə olanların problemin yüksək səviyyəli qərar qəbul edənlərin gerçək və ya ehtimal edilən təsəvvürlərinə uyğun təqdimatını qəbul etmək meyli vasitəsilə edə bilər. Onlar bunu qrupun həmrəyliyini qorumaq və qrupun əlaqəliliyini maksimallaşdırmaq üçün də edə bilər.
Bu növ kollektiv qərar qəbul edilməsinin baş verməsi siyasət quranlar özlərini təhdid və gərginlik altında hiss etdikləri vaxt xüsusilə ehtimaldır. Bu, siyasətin qurulmasında problemin alternativ təqdimatlarına qeyri-adekvat diqqət, məlumat üçün çox qısa axtarışın aparılması və uyğun gəlməyən məlumatın dəyərdən salınması kimi patologiyalar doğurur. Uyğunlaşmaq üçün daxilində göstərilən təzyiqlər problemlərin fərqləndirilən təqdimatlarını hazırlamaq, dəyərlər haqqında mübahisə aparmaq və münaqişəni çözmək qabiliyyətini azaldır.
Uyğunlaşmaq istiqamətində bu cür meyllər heç də bütün qruplarda baş vermir. Əsas fərqləndirici amil, xüsusilə də, qərar qəbul edilməsinin ilk mərhələlərində, rəhbərlərin problemin alternativ təqdimatları haqqında mübahisəyə yardım edən norma və proseslərin yaradılmasına fəal müdaxilə edib-etməməsi, daha ümumi halda isə, fərqli düşüncəyə dözümlüyünü göstərib-göstərməməsidir.
İkinci alimlər qrupu rasional seçim modellərindən zorakılığa əl atmağı gələcək haqqında kollektiv əndişələrə optimal cavab kimi izah etmək üçün istifadə edir. Qrup öz təhlükəsizliyi üçün qorxmağa başladığından, məlumat çatışmazlığı və gözlənilən öhdəlik problemləri ilə gücləndirilən strateji dilemmalar meydana çıxır və münaqişə siyasi işbazlar tərəfindən yanacaqla təmin edilərək (qızışdırılaraq) zorakılığa keçir. Zorakılıq qorxu tərəfindən yanacaqla təmin edilən strateji dilemmalara verilən rasional reaksiyaya çevrilir. Burada rasional seçim izahları psixoloji izahlarla bir araya sığandır, çünki onlar qorxunu zorakılığa çevirən müdaxilə mexanizmini qurur. Məsələn, Lake və Rotşild bildirirdilər ki, etnik fəallar (aktivistlər), öz növbəsində siyasi yaddaşla və pis

hadisələrlə gücləndirilən, kollektiv təhlükəsizlik üçün qorxu hissindən bilərəkdən istifadə edirlər.
Sosial psixologiya zorakılıq üçün münbit əsas yaradan kollektiv əndişənin mənşəyi və çıxmaq mexanizmlərinə müraciət edir. Sosial psixologiyadan, mədəni (kultural) antropologiyadan, beynəlxalq əlaqələrdən və müqayisəli siyasətdən gələn kəsişən dəlillər axım işarə edir ki, düşmənçilik məramları haqqında möhkəm və təsdiq edilmiş dəlillərin olmadığı halda belə, fərdlər və qruplar, düşmən obrazını kollektiv mənsubiyyətlərinin bir hissəsi kimi formalaşdırmaq və saxlamaqda maraqlıdır.
Düşmən obrazı mənsubiyyətə ehtiyacın və qrup davranışının dinamikasının məhsulu ola bilər. Sosial psixoloqlar insanların mənsubiyyətə - şəxsin var olduğu və ya özgələri tərəfindən tanınmağa ümid etdiyi yola əzəli ehtiyacı olduğunu müəyyən etmişlər; bu özgələrlə münasibətdə özüm (özümünkü) anlayışıdır. Fərdi mənsubiyyətin bir mühüm toplananı sosial mənsubiyyət və ya fərdin öz anlayışının sosial qrup və ya qruplarda üzv olmasını (bu üzvlüyün ayağına yazılmış dəyərlərlə birlikdə) bilməsindən çıxan hissəsidir. Sosial psixoloqlar fərz edirlər ki, insanlar özünü qrupa aid etməklə müsbət öz mənsubiyyətə, statusa və ya qeyri- müəyyənliyi azaltmağa olan ehtiyaclarını ödəyirlər. Bu ehtiyac «qrup daxilinin» himayə edilməsi və onun «qrupdan kənarda» əlverişli (üstünlük verən) müqayisəsinə gətirir. Qrupda üzvlük müntəzəm müqayisə və fərqləndirməyə, çox vaxt isə başqa qrupların aşağı qiymətləndirilməsinə gətirir.
Sosial psixoloqların ən heyrətləndirici tapıntısı münaqişə üçün maddi əsas olmadığı halda belə sosial bölünmənin baş verməsidir. Qıtlıq və qazancın mübahisə obyekti olmadığı halda belə, kollektiv, eləcə də fərdi mənsubiyyətə olan bu ehtiyac insanları «biz» və «onları» ayırmağa, «daxililər» və “xaricilər» arasında fərq qoymağa gətirir. Qrup mənsubiyyətini yaratmaq və ya müdafiə etmək cəhdlərində qruplar və onların rəhbərləri özlərinin fərqli xassələrini ləyaqət (məziyyət) adlandırır, özgələrinkinə isə qüsur (çatışmazlıq) yarlığı \mrurlar. Bu növ «yarqlama» dərin sosial-psixoloji tələbata cavab verir və düşmən stereotiplərinin yaradılmasına gətirə bilir. Məsələn, qrupun yox olmasına gətirən kütləvi dövlət repressiyalarının tədqiqi belə bir nəticəyə gətirir ki, soyqırım və siyasi qırımlar (politisidlər) bir «mənsubiyyət qrupunun» öz təhlükəsizliyini digər qrupların hesabına təmin etmək üçün etdiyi ifrat cəhdlərdir.
Sosial mənsubiyyət və bölünmə mütləq zorakı münaqişəyə gətirmir. Bu belə olmasaydı münaqişələr həmişə, bütün şəraitlərdə baş verərdi. Əvvəldə şəxsi və sosial mənsubiyyətlər çox vaxt bir-biri ilə gərgin münasibətdə olur.
Özünün qrupa mənsubiyyətini gücləndirməklə insanlar istər-istəməz özlərinin fərdi mənsubij'yətini zəiflədir, güclü fərdi mənsubiyyət hissinə malik olanlar özlərinin qrup mənsubiyyətinə daha az əhəmiyyət verir. Məsələn, insan haqları fəalları ənənəvi olaraq hansısa konkret qrupa deyil, daha çox fərdi mənsubiyyət hissinə mənsubluğu ilə fərqləndirilirlər. İkincisi, ümumiyyətlə, insanlar müxtəlif qruplara mənsub olur, ənənəvi olaraqsa verilən şəraitdə aidiyyətinin əhəmiyyətli olduğu qrupa mənsub olduğunu bildirir. Hansı qrup mənsubiyyətinin fəal olacağı konkret şəraitdən asılıdır.
Mənsubiyəti kəskinləşdirən və zorakı münaqişə üçün münbit şərait hazırlayan bəzi mühüm şərtlər müəyyənləşdirilmişdir. Birinci amillər dəsti qruplar arasında bir araya sığmayan mənsubiyyətlər çərçivəsində fəaliyyət göstərir, ikincisi isə qruplar üçün daxildir. Etnik və ya milli mənsubiyyətlər qeyri-müəyyənliyin artdığı, bir qrupu digərindən müdafiə edən qüvvədə olan mexanizmlərin etibardan düşdüyü sosial, iqtisadi və ya siyasi böhranlar zamanı güclənir. Sosial-iqtisadi və ya siyasi böhran kontekstində mərkəzi hakimiyyət zəiflədiyindən, fiziki təhlükəsizlik üçün əndişələri artırır, qruplar

özlərini müdafiə etmək tədbirlərinə kapital qoyur və qoruduqları zorakılığı daha da ehtimallı edir. Dövlətin zəiflədiyi onun bir qrupu digərinin gözlənilən zorakılığından qorumaq qabiliyyətinin azalmasının hiss edilməsi ilə bir araya sığmayan mənsubiyyətlərə malik qruplar arasında zorakılığın ən mühüm çaxmaqlarmdandır.

Qıtlıq şəraitində münaqişə qruplar arasında zorakılığa gətirə bilər. Bəzi dəlillər göstərir ki, mədəni və fiziki mənada oxşar qruplar qıt ehtiyatlar uğrunda rəqabət səbəbindən bir-biri ilə düşmənçilik apara və bir-birinə təcavüz edə bilər. Mülki zorakılığın bəzi təhlilləri də belə nəticəyə gətirir ki, nisbi məhrumiyyət kollektiv zorakılığın iştirakçıları üçün çox mühüm amildir. Maddi gözləntilər və aktivlər arasında fərq artdıqca nisbi məhrumiyyətlərin səbəbi hesab edilənlərə qarşı aqressiya artır və intensivləşir. Dövlət vacib ehtiyatların paylanmasını fəal idarə etdikdə qıt ehtiyatlar uğrunda rəqabət güclənir.

Qrup üzvləri digərlərinin mənsubiyyətlərinin tanınmasının onların öz mənsubiyyətinin gözdən salınmasına gətirdiyini hesab etdikdə, digərlərinə hüquqların verilməsinin öz mənsubiyyətlərinin səlahiyyətdən düşməsi kimi qəbul etdikdə və digər qrupun onların hesabma qazanc əldə etmək üçün üstün imkanlar əldə edəcəyindən qorxduğu halda mənsubiyyətlərin münaqişəsinin zorakıhğa gətirəcəyi daha ehtimallıdır.

Daxili siyasi şəraitdəki müxtəlifliklər əhalinin müəyyən növünü elitanın oyunlarına digərlərindən daha həssas edir. İdarə edilən siyasi rejimlərdə rabitə vasitələrinə nəzarət edən rəhbərlər və elita, mənsubiyyət və kütləvi təsəvvürləri daha asan idarə edə bilər. Düşmən obrazının yaradılmasına təkcə rejimin növü deyil, cəmiyyətin təşkili də öz payını verir. Düşmən obrazının saxlanmasına kifayət qədər yardım etməsi və zorakı münaqişəyə getməsi ehtimallı olan dərindən bölünmüş cəmiyyətin əlaməti mənsubiyyət əsasında təşkil olunmuş və cəmiyyətin hər sahəsinə nüfuz etmiş ayrıca strukturların olmasıdır.

Bu təhlil təklif edir ki, fərqlənən mənsubiyyətlər öz-özlü- yündə zorakı münaqişənin səbəbi deyil. Bir-biri ilə uyğun gəlməyən mənsubiyyətlərin mövcud olduğu halda belə, zorakılıq rəhbərlərin ya dövlətin ehtiyatlarını öz cəmiyyətinin daxilindəki başqa qrupların ziyanına olaraq inhisara almaq, ya da cəmiyyətdən kənardakılara qarşı iddialar irəli sürmək yoluyla qızışdırılan təcridedici fəaliyyəti nəticəsində ehtimallı olur. Rəhbərlər və elita siyasi mənsubiyyətə təhdid görüntüsü yaradırlar ki, bu da stereotiplərin yaradılmasına təhrik edir və zorakılığa öz payını verir.

## Beynəlxalq əlaqələrlə bağlı nəzəriyyələrin psixoloji aspektləri və təhlili

Rasional seçim normalarından sistemli sapma nümunələrinin verdiyi dəlillər sağlamdır. Dəlillərin çoxu nəzarətdə saxlanılan laboratoriya təcrübələrindən qaynaqlansa da, siyasi psixoloqlar bu nümunələri yüksək dəyərli beynəlxalq münaqişələrdəki həllərin təsisatı tədbirlər və siyasi mədəniyyətlərin geniş diapazonu boyu təhlili əsasında sənədləşdirirlər. Bununla belə, beynəlxalq əlaqələrin hakim nəzəriyyələri hələ də seçim və səbəb (motiv) haqqında çox məhdud fərziyyələrdən istifadə edir: realistlər dövlətləri unitar təhlükəsizlik maksimallaşdırıcılan kimi, liberallar və neoliberal təsisatçılar isə rifahı maksimallaşdıran kimi nəzərdən keçirir. Hər ikisi problemin təqdimatını verilmiş kimi qəbul edir və həll probleminin konturlarını ödəniş matrisinin əlamətlərindən qurur; bu mənada onlar sondan əvvələ mülahizə yürüdür. Konstruktivistlər seçimin təqdimatını sual altına alır, lakin dövlətə norma yaradıcısı kimi baxırlar. Bu nəzəri konstruksiyalar və psixoloji təhlillər arasındakı nəzəri və empirik fərq çox böyük görünür.

Rasional seçimi dövlətlərarası qarşılıqlı təsirlərin formal təhlili üçün qarşılıqlı əvəz edilə bilən deduktiv aparat kimi təmin edir. Müəyyən hallarda rasional seçim nəzəriyyəçiləri əyani dəqiqliyi qabaqlayır və təkid edirlər ki, modelin proqnozları davranışla müqayisə edildikdə, dövlətlərin unitar rasional aktyorlar kimi nəzərdən keçirilməsi izahetmə və proqnozvermə qabiliyyətini daha da məhsuldar edir. Rasional seçim nəzəriyyələri strateji qarşılıqlı təsirlərin sadələşdirilmiş mənzərəsi (təqdimatı) vasitəsilə dövlət davranışının, əks halda empirik təfsilatlarla pərdələnə biləcək güclü izahını və proqnozunu təmin etdiklərini iddia edir. Rasional seçim təhlili həll problemləri tipik olaraq hadisələrin yaxşı başa düşülmüş siniflərinin, formal olaraq, çoxlu sayda digər hadisələrin eyni olan nümunələri ilə məşğul olarkən ən uğurludur. Rasional seçim rəqabət aparan bazarların və ya böyük təşkilati sistemlərin təhlilində güclü və zaman-zaman intuisiyaya zidd izahlar təmin edə bilir.
Lakin beynəlxalq münaqişə nisbətən kiçik ərazidə, az miqdarda baş verir. Ona görə də təhlili çətindir və qərar qəbul edənlərin tarixi keçmişdən problem haqqında xarakterik təsəvvürləri, ehtimal paylanmasını və müxtəlif variantların ölçüləri əsasında dəyərlərin metrikasını çıxara biləcəkləri kifayət miqdarda «bənzər» hallar müəyyən etməsi az ehtimallıdır. Beynəlxalq münaqişə rasional seçim tədqiqatlarının çoxu beynəlxalq münaqişələrdəki həll probleminin aşkar mürəkkəbliyi və qeyri-müəyyənliyi ilə sadələşdirilmiş mənzərələr strategiyası vasitəsilə məşğul olur. Belə sadələşdirilmiş mənzərələr (təqdimatlar) çox vaxt analitik cəhətdən asan emal ediləndir, bu mənada ki, oyunların tarazbq həlləri, əgər mövcuddursa, davranışın müəyyən proqnozlarına gətirir. Sadələşdirilmiş təqdimat strategiyası fərz edir ki, dövlətlər və ya qrup rəhbərlərinin oyuna qoyulanlar, variantlar, xərclər, qazanclar, ehtimallar və maraqlar, rəqiblərin məqsədləri və məramları barəsində çaşqınlığı və qeyri-müəyyənliyinə baxmayaraq, mücərrədləşdirmə həll probleminin məğzini əhatə edir. Gerçəklik və təqdimat (mənzərə) izomorfdursa, bu iddia ***prima facie-6*** (ən ehtimallıdır), izomorfluq pozulduqda isə daha az ehtimallı olur. Sadələşdirilmiş təqdimatlar yaxşı strukturlaşdırılmış həll problemlərində faydalı analitik strategiya ola bilərsə də, problemlərin demək olar ki, həmişə pis strukturlaşdırılmış olduğu beynəlxalq münaqişələrin həllində çətin ki, yardımçı olsun.
İdraki və sosial psixologiya rəhbərlərin bu qeyri-müəyyənlik və mürəkkəbliyi necə dəf etdiyini izah edir. Onlar, adətən, birqiymətli olmayan vəziyyətləri onlara əhəmiyyətli görünmüş tarixi təcrübə əsasında yozurlar və ya davranışın «tarixin idiosinkretik (xarakterik) dərslərini» əks etdirən baş baımaq qaydasından istifadə edirlər. İdiosinkretik olmalarına baxmayaraq problemin təqdimatına, mühakimə yürüdülməsi və hesablama apanlmasına güclü təsir etdiyindən bunlar rasional seçim təhlilini son dərəcə mürəkkəbləşdirir. Problemin təqdimatı (qoyuluşu) hər bir beynəlxalq münaqişədə mühüm dəyişəndir və ona görə də gerçək dünyadakı həlli problemlərinin rasional seçim nəzəriyyəçilərinin istifadə etdikləri qaydada formal mücərrədləşdirmələrinə bəraət qazandırmaq çətindir. İdraki psixologiyanın anlayışları və üsulları problemin təqdimatım başa düşmək üçün nisbətən daha uyğundur.
Çəkindirmə və kəskinləşmə (eskalasiya) spiralları modelyerləri arasındakı mübahisələrin tədqiqi iki yanaşmanın bir- birini tamamladığını nümayiş etdirir. Mübahisə ən yaxşı miqyas şərtləri problemi kimi formulə edilə bilər. Rasional seçim nəzəriyyəçiləri çəkindirməni qarşılıqlı asılı rasional seçimlər dəsti kimi modelləşdirir və layihələndirdikləri dilemmaları həll etmək üçün intuisiyaya zidd strateji seçimlər müəyyən edirlər. Psixoloji izahlar diqqəti təqdimat, mühakimə, motivasiya (istək) və

əndişə problemlərində cəmləyir, rəhbərlərin bir şüurlu idarəçilər kimi təhdid mühitində birqiymətli olmayan məlumatla necə davrandığını müəyyən edir və bildirir ki, rasional modellərdən çıxarılan strategiyalar əks nəticələrə gətirən və qorxulu kəskinləşmə spiralı ilə nəticələnən ola bilər.
Nəzər nöqtəsi nəzəriyyəsi bu, zahirən bir-birinə zidd tapıntıları həll etməyə yardım göstərir. Dövlətlər status kvo (mövcud olan vəziyyət) ilə tam razıdırlarsa, onlara qazanc oblastmda olan və çəkindirmə təhdidi üçün əlverişli hədəflər kimi baxmaq olar, çünki onlar güman ki, qazanclarla risk etməyin əksinə olacaq. Belə şəraitdə, ehtimal paylanmasının ekstremumları istisna edilməklə, rasional seçim güman ki, qənaətcil izah təmin edəcək. Lakin dövlətlər əhəmiyyətli itkilərə məruz qalmış və bu itkilərlə barışa bilməmişsə, çəkindirmə təhdidlərinin itkiyə yol verməmək üçün riski qəbul etməyə hazır olan rəhbərlərin kəskinləşmə (eskalasiya) təhi'ik etməsinə gətirəcəyi daha ehtimalhdır.
idraki psixologiya və rasional seçim kritik miqyas şərtləri(şəraiti) yaranan kimi bir-birini tamamlayan olur. Problemin təqdimatı fərz deyil, müəyyən edildikdən sonra alimlər mühitin mürəkkəbliyini, qeyri-müəyyənliklərin miqyasını və şəraitin əlamətlərini (atributlarını) tədqiq edə bilərlər. Sonra rəhbərlərin qazanc, yoxsa itki oblastında olduqlarını müəyyən edə bilər və hesablamaların faydalıhğını maksimallaşdıran, məqbul və ya rasional normalardan psixoloqların gözlədikləri sapmaları aqroksi- masiya edən olacağı ehtimalını qiymətləndirə bilər.
Beynəlxalq münaqişələrin konstruktivist izahları ilə psixoloji təhlillər arasında daha böyük uyarlıq var. Rasional seçimin söhbəti idraki psixologiya ilədirsə, konstruktivistlərin dialoqu sosial psixologiya ilədir. Konstruktivistlər seçimin rəhbərlərin mənsubiyyəti - onların öz dövlətlərini və ya qruplarını necə müəyyən etməsi, kim olması və başqlan ilə nisbətdə özlərini necə görməsi ilə dərindən məlumatlandırılan anlayışını inkişaf etdirirlər. Konstruktivistlər kollektiv mənsubiyyəti təsis edən kollektiv və ya bölüşdürülən (ümumi) inamları, norma yaradılması və ona riayət edilməsi proseslərini daxil etmək üçün beynəlxalq münaqişələrin psixoloji izahlannm, adətən, rəhbərlərin inamlan, təsəvvürləri (obrazları) və mühakimələrini mərkəzə qoyan repertuarım genişləndirdilər. Realist və liberallardan fərqli olaraq konstruktivistlər mənsubiyyət və maraqlan verilən (əzəli) kimi deyil, daha çox özgələr ilə qarşılıqlı təsir nəticəsində yaranan kimi qəbul edirlər. Onlar mənsubiyyət anlayışımn içərisinə bü təsisati element kimi təkcə marağı yox, həm də normalara diqqəti qoyurlar.
Seçimin izahı kimi inşa edilmiş mənsubiyyətlərə belə vurğu edilməsi normaların seçim meyarına çevrilməsi şəraitinin tədqiqi ilə məşğul sosial psixoloji nəzəriyyələrlə faydalı dialoqu mümkün edir. Sosial psixologiya bir seçim (qərarvermə) qaydası kimi bərabərlik, ədalət və ədliyyə kimi meyarların maraqların maksi- mallaşdırılmasmı üstələdiyi şəraiti tədqiq edir. Psixologiyada sosial mənsubiyyət nəzəriyyəsi, mənsubiyyətin konstruktivist arqumentlərinin həlledici toplananının necə dəyişdiyinə vurğu edir.
Sosial mənsubiyyət nəzəriyyəsi mənsubiyyətin dəyişməsi haqqında arqumentləri zənginləşdirə və genişləndirə bilər. Sosial mənsubiyyət konstruktivistlərin fərz etdiyi kimi təkcə başqaları ilə qarşılıqlı təsir nəticəsində deyil, həm də sosial psixoloqların bildirdiyi kimi özlərini qrupa mənsub etmək prosesi vasitəsilə yaranır. Adamların müəyyən sosial qrupa mənsub olması seçim üçün əhəmiyyətlidir, yoxsa mənsubiyyəti seçərkən insanlar bir- birinə zidd olan daxil olmaq və ayrılmaq (seçilmək) imperativləri

arasında mübarizə aparırlar. Məsələn, Kanada özünün mədəni müəyyənlik axtarışlarında daha geniş Şimali Amerika ticarət sisteminin tərkib hissəsidir.
Beynəlxalq siyasətə psixoloji yanaşmaların tənqidçiləri bildirirlər ki, bu yanaşmalar fərdi seçimə münasib ola bilərlər, lakin onlar çox məhdud, uyğunlaşdırılmış və çirklidir və təhlilin dünya siyasətinin geniş sitemli nümunələrini (modellərini) izah etməyə uyğun gəlməyən bir səviyyəsində dururlar. Tərəfdarlar bildirirlər ki, həm fərdi, həm də kollektiv səviyyədə düşünmə və seçimin sistemli modellərinin sübutları sağlamdır və qeyri-düzgün fərziyyələr üzərində qurulmuş, fərdlərin və kollektivlərin özünü və öz seçimini necə müəyyən etməsi haqqında bizim hal-hazırda bildiklərimizin çoxunun üstündən xətt çəkən geniş deduktiv arqumentlər beynəlxalq və qruplararası münaqişələrin güclü izahları üçün çətin ki, etibarlı təməllər təmin etsin. Bu daha çox karların dialoqu idi.
Psixoloji yanaşmalar sistemli nümunələrin struktur izahları daxilində davam edən mübahisələrdə sərhəd şərtlərini qurmaq üçün faydalıdır. Onlar dolayısıyla şərtlərin dəyişməsindən asılı olaraq qeyri-məhdud olan seçim nəzəriyyələrinə söykənən izahları təmizləməyə və məlumatlandırmağa kömək edir. Psixoloji nəzəriyyələrin «çirklihyi» və aşkarlığı (dəlilləri) beynəlxalq münaqişələrin dinamikası və qarşısının alınması barədə böyük mübahisələrə konkretlik və ciddilik verə bilər. Psixoloji yanaşmalar habelə, mənsubiyyətin formalaşması və dəyişməsi, eləcə də normaların yaradılması və onlara riayət edilməsi üzərində qurulan nəzəriyyələri konkretləşdirməyə kömək edir.
Psixoloji nəzəriyyələr, habelə, siyasi rəhbərlərin münaqişələri qızışdırmaq və ya sakitləşdirmək üçün etdikləri məhdud seçimləri izah etməkdə və bir-biri ilə əlaqələndirilmiş seçimlər silsiləsinin nəticəsi olan qarşılıqlı təsir nümunələrinin təhlilində faydalıdır. Məsələn, sövdələşmə proseslərinin dəyəri niyə masanın üstündə qoyub getməsi barədə cari tapmaca və ya hər şeyi bilən neytral müşahidəçi üçün tam aşkar görünən razılaşmanı əldə etməkdə uğursuzluğa düçar olması da, psixoloji nəzəriyyələr tərəfindən çox vaxt yaxşı izah edilir. Əlaqədar tapmaca - rəhbərlərin bir dəstinin digər dəstin işarələrini oxumaq və dəqiq yozmaqla uğursuzluğu da psixoloji nəzəriyyələr tərəfindən yaxşı izah edilir. Münaqişənin qızışması və ya sakitləşməsinin izahındakı nəzəri və empirik inkişaf psixoloji nəzəriyyələri, onların bir araya sığanlığmı və nisbi faydahlığını diqqətlə yoxlamaqla, hakim rasional və konstruktivist ənənələrin daxilinə yerləşdirməkdən qazanc əldə edə bilər.

## MÖVZU 13: YENİYETMƏLƏRDƏ KONFLİKTLİ SİTUASİYALARIN TƏDQİQİ

Məlum olduğu kimi müasir dövrümüzdə konfliktlər, konfliktli situasiyalar çoxalıb.Bu cür halların yaranmasının bir çox sosial-psixoloji səbəbləri ola bilər. Səbəbləri nə olursa olsun konfliktli situasiyalar hər zaman mövcuddur.Bu cür situasiyalar özünü müxtəlif istiqamətlərdə göstərir: şəxsiyyətlərarası, şəxsiyyət daxili, qruplararası istiqamətlərdə. Cəmiyyətimizdə məktəblərdə muxtəlif konfliktli situasiyalar müşahidə olunur. Bu situasiyalar içərisində müəllim-şagird konfliktləri mühüm yer tutur. Bu səbəbdən müəllim-şagird münasibətlərinin psixoloji xarakteristikasını vermək lazımdır. Məhz bu münasibətlər həm psixologiya həm də sosial-psixologiya elminin diqqət mərkəzindədir. Müəllim-şagird münasibətlər zamanı yaranan konfliktlər yeniyetmənin mənlik şüurunun formalaşmasında önəmli yer tutur. Hər bir elmin obyekti olduğu kimi elm çərçivəsində aparılan tədqiqatın da obyekti olmalıdır. Bizim tədqiqatımızın əsas obyekti müəllim-

şagirddir.Yəni obyek öyrənilən real gerçəkliyi bildirməlidir. Müəllim-şagird münasibətləri də onlar arasındakı konfliktləri öyrənmək üçün real gerçəklikdir. Tədqiqatımızın əsas predmeti müəllim-şagird münasubətləri zamanı yaranan konfliktlərdir. Yəni konfliktlər müəllim-şagirdlər arasında öyrənilən əsas mövzudur. Çünki bu konteksdə yaranan konfliktlər yeniyetmə şagirdlərin şəxsiyyətinin inkişafında xüsusi rol oynayır. Yaranan konfliktlər onların şəxsiyyətinin inkişafına həm müsbət həm də mənfi təsir göstərə bilər.Hər bir işin məqsədi olduğu kimi bu tədqiqatımızın məqsədi var. Tədqiqatımızın əsas məqsədi müəllim-şagird münasibətləri zamanı yaranan konfliktləri dəqiq müəyyən etmək, onların səbəblərini araşdırmaqdır. Səbələr müəyyən edildikdən sonra konfliktlərin həlli daha da asanlaşır. Müəllim-şagird münasibətlərində yaranan konfliktli situasiyaların səbəbləri muxtəlif istiqamətlidir. Əsas olan bu səbələrin dəqiq müəyyən olunması və bu istiqamətdə işin aparılmasıdır. Tədqiqatın vəzifəsi dedikdə, müəllim-şagird arasında yaranmış konfliktli situasiyaların aradan qaldırılması başa düşülür. Ümumiyyətlə, konfliktli situasiyaların aradan qaldırılması psixologiyanın qarşısında duran əsas vəzifələrindən biridir.İrəli sürülən fərziyyə ondan ibarətdir ki, müəllim-şagird arasındakı konfliktli situasiyaların əsas səbəbi müəllim-şagirdlərin bir-birilərini düzgün anlamaması və həmin situasiyada öz mövqelərini müdafiə etmələridir. Hər bir tədqiqatın metodikası mövcuddur. Konfliktli situasiyaların müəyyən edilməsi və aradan qaldırılması üçün də lazımi metodikadan istifadə etmək vacibdir. Biz bunun üçün Tomasın “Konfliktli situasiyalarda davranışın təsviri” metodikasından istifadə edəcəyik.

**MƏKTƏBDƏ MÜƏLLİM- ŞAGİRD MÜNASİBƏTLƏRİNİN PSİXOLOJİ TƏHLİLİ**

Bildiyimiz kimi məktəbdə ünsiyyət müxtəlif istiqamətlərdə təzahür edir. Bura təbii ki ,müəllim-şagird münasibəti də daxildir. Bu münasibətlərdə müxtəlif psixoloji keyfiyyət özünü göstərir. Bir şəxsiyyət kimi müəllim də, şagird də bu münasibətlərdə mövcuddur. Onların ziddiyyətli eyni zamanda mürəkkəbliyi müəllim və şagirdin psixoloji siması ilə şərtlənir. Müəllim həmin münasibətlərdə təkcə peşəkar mütəxəssis kimi deyil həm də müəyyən həyat təcrübəsi keçmiş biri olaraq iştirak edir. Şagird də şagird olmaqla yanaşı həm də qayğıya ehtiyacı olan bir insandır. Sözsüz ki, ünsiyyət informasiya yaratmaq və onu müəyyən insanlara ötürməkdən ibarətdir. Müəllim-şagird arasında da həmçinin bu informasiya mübadiləsi baş verir. Bu zaman müəllimlər ehtiyyatlı olmalıdırlar,çünki onların ünsiyyətə girdikləri şadidlər-yeniyetmələr müəyyən psixoloji keyfiyyətlərə malikdirlər. Bu dövr onların böhran dövrü olduğundan istər müəllimlər,istərsə də valideynlər onlarla ünsiyyətə girən zaman diqqətli olmalıdırla. Müəllimlər çox vaxt şagirdlərlə ünsiyyətə girərkən psixoloji və pedoqoji “kanonlara” deyil, daha çox özlərinin birtərəfli olan güzəran təcrübələrinə əsaslanırlar.

Adi müəllimlərin gözündə şagirdlərin təsnifatı çox sadədir. Lakin müəllimlər şagirdləri birtərəfli ölçülərlə bir-birindən fərqləndirməməlidirlər. Bu onların həm pedaqoji, həm də psixolji cəhətdən zəif olduqlarını göstərir. Çox vaxt müəllimin bir insan kimi yaşadığı hisslər onun pedaqoq duyumunu üstələyir. Yəni, müəllimlərin nəzərində onların sevdiyi və sevmədiyi şagirdlər aləmi meydana gəlir. Məhz şagirdləin də sevdiyi və sevmədiyi müəllimlər bu kökdə əmələ gəlir. Bu əslində özünəməxsus subyektiv ölçüləri olan təhlükəli bir aləmdir. Müəllimlər emosional qiymətlərə arxalanaraq şagirdlərin fərdi xüsusiyyətlərini görmürlər. Onların savadını çox vaxt intizam müstəvisində qiymətləndirirlər. Sözsüz ki, bu mühüm məsələlərə bir pedaqoq və psixoloq gözü ilə baxmırlar. Müəllimlərin gözündə ideal şagird dərslərini yaxşı oxuyan

və intizamı pozmayan şagirdlərdir. Yaxşı oxumayan və intizamı pozan şagirlər isə “pis uşaq”sayılır. Bu cür düşünmək müəllimlərərə həmin şagirdlərlə düzgün işləmək imkanı vermir. Belə olduğu halda bəlkə də özündə müxtəlif keyfiyyətləri daşıyan şagirdlər inkişaf etməmiş üzə çıxmamış olur. Müəllimlər şagirdləri bir şəxsiyyət kimi bu cür qiymətləndirsələr onlara düzgün münasibət bəsləyə bilməzlər. Bir müəllimin sinfi,yəni şagirdləri düzgün idarə edə bilməsi üçün şagirdlərlə sağlam bir ünsiyyət qurması gərəkdir. Müəllimin təsirli ünsiyyət vərdişlərinə sahib olması və həm özünü həm də sinifdə digər yoldaşlarını narahat edən şagirdlərə kömək olabilməsi sinif idarəsi baxımından böyük önəm daşıyır. Ona görə də müəllim bu cür keyfiyyətlərə yiyələnməyə xüsusi diqqət yetirməlidir. Müəllimlərin şagirdlərlə olan ünsiyyətinə müəllimlərə verilən yönəlişlərin də böyük təsiri olur. Psixologiyada bu eksperiment şəklində öz əksini tapmışdır.Belə ki, əvvəlcədən müəllimlərdə şagirdlərin bir qrupu haqqın da müsbət, digər qrup haqqında isə mənfi rəy formalaşdırırlar.Bu zaman müəllimlər qabiliyyətli hesab etdikləri şagirdlərlə daha çox maraqlanır, onlardan çox şey gözləyirlər, qabiliyyətsiz hesab etdikləri şagirdlərlə demək olar ki maraqlanmırdılar. Bu cür halların baş verməməsi üçün müəllimlər əsl pedaqoji və psixoliji keyfiyyətlərə malik olmalıdırlar. Hər bir şagirdə onların fərdi xüsusiyyətlərini, qabiliyyətlərini, bilik və bacarıqlarını nəzərə almaqla yanaşmalıdırlar. Əgər müəllimlər sinifdə müxtəlif yollarla ayrı-seçkilik salırsa təkcə şagirdləri deyil, həm də valideynləri ailənin statusuna görə qiymətləndirirsə-şagirdlər bunları görürlər və bunu özlərinəməxsus tərzdə mənalandırırlar. Yeniyeymələrdə bu cür halların olması normaldır. Keçid dövrü yaşadıqları üçün onlara deyilən hər bir söz, bəslənən münasibət onlarda müəyyən bir iz buraxır. Məhz bu dövrdə ziddiyyətlərin yaranması labüddür. Yeniyetmələrin müəllimləri arasında konfliktlərin olması qaçınılmazdır. Müəllimlər sinif içərisində olan mənfi,narahat ab-havanı azaltmaq və şagirdlərlə olan münasibətin keyfiyyətinu artırmaq üçün şagirdlərlə yaxşı ünsiyyət içərisində olmalıdır. Müəllim-yeniyetmə şagird münasibətinin yaxşılaşdırılması üçün psixoloqlar aşağıdakı təklifləri irəli sürür: 1. Müsbət ünsiyyət qurma bacarıqlarınızdan istifadə edin. 2. Şagirdlərinizin müfəvvəqiyyət duyğusunu dadmalarına kömək olun. 3. Şagirdlərinizdən gözlədiklərinizi, yəni gözləntilərinizi öz davranışınızda ifadə edin. 4. Onlardan gözlədiklərinizi müsbət şəkildə ifadə edin. 5. Ədalətli və qətiyyətli olun. 6. Şagirdlərinizə hörmət və sevgi göstərin.7. Onlarla hər fürsətdə ünsiyyətdə olun. Mazano və Pikkering müəllim-şagird arasında müsbət və ədalətli bir münasibətin, ünsiyyətin olması üçün bunları vacib bilmişdir: Müəllim sinifdəki bütün şagirdlərlə göz kontaktında olmalıdır və sinfin hər bir tərəfində gəzməlidir. Dərs vaxtı müəllim şüurlu bir şəkildə bütün şagirdlərinin yanına yaxınlaşmalıdır. Sinfin oturma vəziyyəti də buna imkan verəcək şəkildə olmalıdır. Müəllim sinifdə şagirdlərin ortaya qoyduğu fikirləri sahiblənmələrinə kömək olmalıdır. Sinif müzakirələrinə bütün şagirdlərin qatılmasına onları təşviq etməlidir. Müəllim yalnız müzakirədə iştirak edən şagirdlərə deyil, həm də danışmayan, müzakirədə iştirak edən şagirdlərə səslənməli və onların dərsdə, müzakirələrdə iştirakını təmin etməlidir. Göründüyü kimi psixoloqların müəllimlərə verdiyi məsləhət humanist xarakter daşıyır. Yəni verilən təkliflər həm müəllimlərin,həm də yeniyetmə şagirdlərin faydasınadır. Müəllimlər yeniyetmələrlə ünsiyyətdə bunları nəzərə alaraq onların həm simpatiyasını, həm də hörmətini qazanarlar. Müəllimlər şagirdlərlə ünsiyyət qurarkən onlara sevgiyə ehtiyacı olan, dinlənilməyə ehtiyacı olan bir şəxsiyyət kimi yanaşmalıdırlar. Belə vəziyyətlərdə yeniyetmələrə düşən bəzi məsələlər də var. Onlar da qarşılarında uşağın deyil, müəllimin olduğunu

unutmamalıdırlar. Konfliktli situasiyada sakitləşməyi ön plana çəkməlidirlər. Bu cür halların keşici olduğunu

**Yeniyetmələrin psixoloji xüsusiyyətləri .İnsan həyatı əsasən uşaqlıq, yetkinlik, gənclik, yaşlılıq-orta yaşlılıq və qocalıq kimi 5 mərhələyə ayrılır**. Bu dönəmlərdə yaşın bədən quruluşunun iqlim və qidalanmanın xüsusi rolu vardır. Yeniyetməlik insanın yetkinliyə addımladığı, qanın qaynadığı, sosial psixoloji, fiziki dəyişmələrin eyni vaxtda baş verdiyi dövrdür. Bu sahənin mütəxəsisləri yetkinliyin ilk mərhələsinin qızlarda 10-12, oğlanlarda 11-13 yaş arasında,ikinci mərhələsinin isə qızlarda 13-15, oğlanlarda 14-15 yaş arasında olduğunu qeyd edirlər. Yeniyetməlik dövrünün başlanğıc və son mərhələsinin dəqiq sərhədləri olmamaqla yanaşı, ilk mərhələ 12-15, formalaşmasının (əqli və fiziki) tamamlanma çağı isə 15-24 yaş arası hesab olunur. Gənclik dövrü ümumi dövr olduğu üçün yeniyetməlik çağını da əhatə edir, ümumiyyətlə, gənclik dövrü 15-30 yaş arası hesab olunur. Bu dövr insan həyatının ən sağlam dövrüdür. Uşaqlıq dövrünün xəstəlikləri geridə qalır. Xəstəlik səbəbi ilə ölüm halları on yaşdan sonra tamamilə azalır. Gənclik dönəmində ölüm hallarının əsas səbəbləri ya yol qəzaları, ya da intihar olur. Gənclərdə bu dönəmin başlayıb bitmə səviyyəsi və vaxtı yaşadıqları yerin iqlimi, coğrafi şəraiti ilə birlikdə onların ruhi,fiziki və hissi inkişafına, mənsub olduğu cəmiyyətin mədəniyyətinə,xarakterinə görə dəyişə bilər. Mühüm olan odur ki, bu dönəmi daha sağlam addımlamaları üçün onlarda hansı halların baş verəcəyi əvvəlcədən məlum olsun. Bu dönəmdə şəxsiyyət davranışlarda bir sıra özünəməxsus xüsusiyyətlər ortaya çıxa bilər:daxili narahatlıq,vasvasılıq,tez reaksiya vermə, duyğuların ifadə edilməsində ziqzaqlar, tez sevinmə və kədərlənmə, qərarsızlıq, dərslərə və çalışmalara marağın və diqqətin azalması,istəklərin artması,mənəmlik hissinin qabarması, qadağalara, öyüdlərə, xəbərdarlıqlara qarşı çıxmaq, qayda və məhdudiyyətlərin çoxluğundan sıxılmaq, dözümsüzlük, evdən qaçma, ailədən qopma meyli, evdən uasq qalma meyli, özünü haqlı-haqsız müdafiə, geyinməyə, bəzənməyə düşkünlük, yaşıdları ilə birlikdə olmağa çalışmaq, səsin dəyişməsi, dostlarına oxşamaq cəhdi,musiqi və əyləncəyə meyillilik. Bu sadalananlar gənclərin ətrafdakılar tərəfindən fərq edilmə və dəyər verilmə istəyindən irəli gəlir. Bir sözlə, yetkinlik çağında “ mən artıq uşaq deyiləm” motivi ilə özünü təqdim etməyə cəhd göstərir. *Ötən dövrün böyük alimlərindən biri yeniyetməlik çağının psixologiyasını fərqli şəkildə qiymətləndirmişdir: Gənclik damarı ağıldan çox hissiyyatı dinləyər. Hiss və həvəs isə kordur,aqibəti görməz, bir dirhəm hazır ləzzəti irəlidə bir batman ləzzətdən üstün tutar. Bir dəqiqə intiqam ləzzəti ilə qatil olar, səksən min saat həbs ələmlərini çəkər. Bir saat həzz keyfinə görə bir namus məsələsində həm həbsin,həm düşmənlərin verdiyi əzab-əziyyətlərlə, sıxıntılarla ömrünün səadəti məhv olar. Yeniyetməlik çox fırtınalı dövrdür. O, daim öz-özü və ətrafı ilə mübarizə vəziyyətindədir. Psixoloji baxımdan bu normal sayılır. Ancaq bəzilərində bu dövr çox haylı-küylü, bəzilərində səssiz keçir. Böyüklər uşaqları anlamağa çalışmalı, səbr etməlidir.Yeniyetmələrin davranışına dözməyənlər, kiçik maneələri aşa bilməyənlər,dar dairədə boğulanlar gənclik meyvəsindən məhrum yaşayanlardır. Bəs gənclərlə münasibət necə qurulmalıdır. Ünsiyyət-ötürən və qəbul edən iki insan, ya da insan qrupu arasında reallaşan bir duyğu, düşüncə, davranış və bilik mübadiləsidir. Ünsiyyət insanların bir-birini anlaması prosesidir. Ata-analar gənclərlərin reaksiyalarına diqqət yetirmədən əmr və göstəriş verməklə ünsiyyət qurmağa çalışırlar. Bu zaman tənbeh, xəbərdarlıq, ittiham kimi ünsiyyətə əngəl olan cəhətləri nəzərə almırlar. Belə vəziyyətdə gənc elə hiss edir ki, duyulmur, anlaşılmır, ona qarşı diqqətsizdirlər. Bu qənaətlə də yaxınları ilə*

*əlaqəni kəsirlər. Verilən fikir həmişə nəzərdə tutulduğundan fərqli şəkildə anlaşılır. Münasibətin möhkəm olması üçün valideynlər təmannasız sevgi, hörmət göstərməli, başadüşən olmalı və uşağı məhz uşaq kimi, yeniyetmələri yeniyetmə kimi qəbul etməyi bacarmalıdırlar. Deməli, ünsiyyətdə ən təsirli vasitə dinləmədir. Bir adamın könlünə girməyin ən qısa və ən gözəl yolu onunla danışmaqdır. Ona qarşı diqqət yetirildiyini hiss etdirməkdir. Yeniyetməlik dövrünə qədəm qoyan hər uşaq istəyir ki, valideynləri onların böyüməsinin fərqinə varsınlar. Təlimatlar əvəzinə danışıqlar yolu ilə nizam-intizamın təminatını isyəyirlər. Ailədə ona da söz verildiyini, sözünün sayıldlğını görmək onu razı salar, məmnun edər. Gəncləri dinləməklə onların duyğu və düşüncələririni lazımi itiqamətə yönəldə bilər. Evdə həftədə bir ailə iclası keçirilsə, oradakı səmimi söhbətlər onun xarkterinin inkişafına,mənəvi duyğularının güclənməsinə kömək edər. Problemi başqasına və ya "indi vaxtı deyil, sonra danışarıq",- deyə başqa vaxta ötürsəniz, gənc sizinlə gec-tez əlaqəni kəsər. Böyüklər həftəfə 1 dəfə,ən azı ayda 1 dəfə öz-özünü sorğu-sual etməlidir: Mən neyləyirəm?, İşimi ailəmdən çox düşünmürəm ki? Onlar öz gəncliklərini xatırlayıb düşünməli, o dövrə çatan uşaqları üçün nələr edəcəyini planlaşdırmalıdır. Böyüklərin yeniyetmıləri dinləməsi onları nüfuzdan salmaz. Əksinə möhkəmləndirər. Ailədə qarşı tərəfi başa düşmə qarşılıqlı anlaşmaya səbəb olur. O yerlərlə özünü başqasının yerinə qoyma hissi (empatiya) ailədə isti,mehriban münasibət yaradır. Bir yerdə olarkən yeniyetmələrin əhvalı soruşulmalıdır. Bu zaman çalışılmalıdır ki,əmr tərzi olmamalı, hansısa məsələ ilə bağlı məlumat istənilməməlidir.* Bəs gəncləri necə dinləyirik? Müşahidələr göstərir ki, bacarıqsız, özünə inanmayan gənclərin əksəriyyəti yetkinlik çağında valideynlərindən ehtiyac duyduqları zəruri mənəvi dəstəyi almayanlardır. Bilindiyi kimi yaxınlarından yetərli diqqət və qayğı görməyənlər başqa qruplara yönəlirlər: bu da yaramaz dost, küçə və d. Münasib olmayan yerlərlə tanışlığa gətirib çıxardır. Onu dinləməyə hazır olduğumuzu öncə davranışlarımızla qarşımızdakına çatdırmalıyıq. Bütün günü qəzet oxuyan, televizora baxan, ya da başqa şeylərlə məşğul olan ataya hansı uşaq problemlərini danışar ki.... **Gəncləri dinləyərkən hansı səhvlərə yol veririk. Öyüd vermə: Elə eləmə, belə et. İstiqamətləndirmə: Dərd çəkməkdənsə, otur dərs oxu; Günahlandırma: Sən onsuz da, həmişə asana qaçırsan; Tənqid etmə: Bu qədər bəsit məsələni balaca uşaq da həll edər. Özünü uşaq kimi aparırsan; Ad qoyma: Şüursuz, bacarıqsız, axmaq; Bu deyilənlər gəncin əsassız bəhanələrlə müdafiəyə keçməsinə, haqsızlıqlarla hiss etməsinə, əsəbləşməsinə, müqavimət göstərməsinə və b. duyğulara qapılmasına səbəb ola bilər. Əslində, gəncin əvvəlcə dinlənlməyə və qəbul edilməyə ehtiyacı var. Valideynlər öz düşüncələrinə görə nəticə çıxarmaqdansa, gəncləri sakitcə dinləsələr, onların müəyyən qədər rahatlandığını görəcəklər. Aktiv dinləmə ilə gəncin fikrini öyrənib çıxış yolları birgə axtarılarsa, onun özünü kəşf etməsinə zəmin hazırlamış olur.** Qəbul edildiyini sevildiyini bilən bir adamla əlaqə qurmaq çətin olmaz. Gənclərin dəyişməyən problemlərindən problemlərindən birincisi təlim problemidir.Əzbərçiliyə,hazır materialdan istifadəyə əsaslanan təlimlər gənclərin imkanlarını daraldır,başqalarını təqlid etməyə yönəldir. Məktəbdə yeniyetmələr də sözsüz bu problemlərlə qarşılaşırlar. Həvəssiz öyrənilən dərslər yadda qalmır və beləcə gələcəkdə istifadəyə yararsız olur. Bu problemlərin aradan qaldırılması üçün təlimlə məşğul olanların işlərinə daha məsuliyyətlə canla-başla yanaşmalıdırlar. Müəllimlər dərs zamanı müzakirəyə daha çox yer verməlidirlər. Rəqabətdən stimul kimi istifadə etmək olar. Gənc nəsli müəyyən bir qayə və istiqamətində təlimə uyğunlaşdırmayan və onu əldən verən millətlərin müstəqilliyi

uzunömürlü olmamışdır. Nəslimiz elmlə barışacağın günlərin xəyallarını qurur, onun həsrətindədir. Yeniyetmədə bədəni,zehni,ruhi və cinsi inkişafla birlikdə onun ictimai həyatını istiqamətləndirən "sosial formalaşma" prosesi gedir. İnsanın dəyişməyən ehtiyaclarından biri də şübhəsiz ki, sosiallaşmadır. Yeniyetməlik vaxtı o, özünü anlayıb başa düşən bir sirdaş,bir dost arayır. Bu da onu ətrafı ilə münasibət qurmağa sövq edir. Gəncin ətrafını tanımasının ən təsirli yolu dostluq mühitidir. Dost mühiti gəncin dünya görüşündə gələcəkdə özünü ifadə etmə baxımından güclü təsir bağışlayır. Yeniyetməlik çağı özü ilə bərabər iztirablar da gətirir. Xüsusi və qısqandıran dostlar bu dönəmdə məlum olur. Sirlərini paylaşdığı dosta, yoldaşa bu dövrdə ehtiyac hiss edir. Qərar verərkən onlardan təsirlənir. Qruplarda sayın çox olmasının elə də ciddi təsiri yoxdur. Qurulan dostluğun gəncin bölüşəcəyi zman dilimi ilə birgə, maddi- mənəvi ölçülərlə uyğun olması da önəmlidir. Gənclərə müsbət mühit təşkil olunmalıdır. Dostlar arasında problem yaranarsa, dostluğu əngəlləməkdənsə, dostu və ailəsi ilə tanışlıga çalışar, ailəsini evə dəvət edər. Əgər qayğılar davam edərsə, gənclə danışmaq lazımdır.

**Konfliktli situasiyaların yaranma səbəbləri və aradan qaldırılması yolları**

Müəllimlərlə yeniyetmələr arasında konfliktin olması göründüyü kimi qaçınılmazdır. Bu konfliktli situasiyalara həm müəllim həm də yeniyetmələr tərəfindən edilən səhvlər səbəb ola bilər. Yeniyetmələrin özünəməxsus keyfiyyətləri, müəllimlərin güzəştə getməməsi konfliktli situasiyalar üçün zəmin yaradır. Ümumilikdə konfliktlərin səbəblərini psixoloqlar aşağıdakı kimi qeyd edirlər: **1. Qavrayış fərqlikləri**: Şəxs və ya qrupların müəyyən hadisələri və prosesləri müxtəlif şəkildə qavramaları konfliktə yol açır. Qavrayış və davranış arasında yaxın əlaqə vardır. Belə ki, insan qavradığını davranışında əks etdirir. Müxtəlif mənbələrdən yaranan qavrayış təhrikləri insanları bir-biri ilə zidd vəziyyətə salır. Bu müxtəlif mənbələr arasında məqsəd fərqlilikləri, mənfəət fərqlilikləri, informasiya fərqlilikləri ola bilər. **2. Ünsiyyət çatışmazlığı**: Şəxs və qruplar arasında ünsiyyət çatışmazlığı konfliktlərin yaranması səbəblərindən biridir. İnformasiyanın gecikməsi ,onların başa düçülməməsi, təhrif olunması, informasiyanın açıq olmaması, onların qavranılmaması və s kimi səbəblərlə ortata çıxa biləcək nöqsanları şəxsləri və qrupları fərqli qərarlara və davranışlara istiqamətləndirə bilər. 3. **Məqsəd fərqlilikləri**: Şəxs və ya qruplar arasında mövcud olan məqsəd fərqlilikləri konfliktli situasiyalar üçün münbit zəmin yaradır. Bu cür vəziyyət idarəedənlə idarəolunan arasında da mövcuddur. **4. İdarə sistemində olan müəyyənsizlik:** Hər hansı bir təşkilatlarda bəzən kimin nə ilə məşğul olduğu bilinmir. Belə olduğu halda bir neçə insan eyni işlə maraqlana bilərlər. Bu isə konfliktin yaranmasına gətirib çıxarda bilər. **5. Status fərqlilikləri**: Müəyyən təşkilat vəya hər hansı qrup arasında status fərqlilikləri konfliktə gətirib çıxardır. Belə ki statu cəhətdən fərqlənən insanlar bəzən düzgün ünsiyyət qura bilmirlər. Çünki onlar özlərini digərlərindən üstün tuturlar **6. Mənfəət fərqlilikləri**: Müəyyən məsələlərdə şəxs və ya qruplar fərqli mənfəətlərə sahib ola bilərlər. Alınacaq qərarlar ola bilsin qarşı tərəfin mənfəətinə uyğun olmaya bilər. Bu da öz növbəsində konfliktə səbəb ola bilər. **7.Şəxsiyyət fərqlilikləri**: Bildiyimiz kimi hər bir insan müxtəlif temperament tiplərinə malikdirlər. Temperament fərqliliyi istər-istəməz məqsəd, dəyər, mənfəət fərqliliyinə gətirib çıxardır. Bu cür insanlar həm işdə həm də kənarda bu konfliktləri davam etdirirlər. Müəllimlərlə yeniyetmələr arasında yaranmış konfliktləri aradan qaldırmaq mümkündür. Onlar arasındakı ünsiyyət çatışmazlıqlarını ən aza endirmək üçün aşağıdakıları etmək lazımdır: İzah: Sizə ünvanlanmış informasiyanın anlayıb- anlamadığınızı təyin etməkdə işə yarayır. Davranışın tərifi: İnsan qarşısındakının etdiyini verbal olaraq ona çatdırmalıdır.

Beləliklə davranışın sahibi etdiyi hərəkətin qarşı tərəfdə necə bir iz buraxdığını anlayır. Davranışın tərifi: bəzi insanlar hissetdiklərinin qarşı tərəfdəki insanlar tərəfindən başa düşülüb- başa düşülmədiyini bilmək istəyirlər. Təsirləri test etmək: Dediklərinin qarşı tərəfdə necə iz buraxdığını test etmə imkanı verir. Qarşı tərəfin səssiz qalması, üzünün qızarması, səs tonu dediklərimizin onda necə bir iz verdiyini müəyyən edir. Təsirli ünsiyyət bacarıqları: Müəllim sakit bir öyrənmə mühiti yarada bilmək üçün şagirdlərlə ünsiyyət qurmalıdır. Şagirdlər bəzən mənfi davranışlar sərgiləyə bilərlər. Bunları ən aza endirmək üçün müəllimlər şagirdlərə dostca yanaşmalı və onların öz hörmət və inamlarını artırmaq üçün sinif içində məsuliyyət götürərək öyrənmələrini təmin etməlidir. Evertson, Emmer və Vorsham-a görə problem yaradan şagirdlərin davranışlarını dəyişdirmək ya da müsbətə çevirmək üçün müəllimlərin aşağıdakı ünsiyyət bacarıqlarına sahib olmaları lazımdır. 1. müsbət qərarlılıq. 2. empatiya. 3. problemi həll etmə. Müsbət qərarlılıq: Qərarlılıq bir fikri sona qədər qətiyyətlə müdafiə etmək kimi mənalandırılır. Sinif idarəsi baxımından müsbət qəralılıq müəllimin özünə inamını ifadə edir. Qərarlı, qətiyyətli olmayan, özünə inanmayan müəllim bir qrup şagird qarşısında həyəcanlanma, danıışabilməmə ya da şagirdlərlə göz kontaktında ola bilməmə kimi davranış sərgiləyə bilər. Müəllim problemi ifadə edərkən 2 yol seçə bilər.1. problemi adlandırmaq. 2. problemin yarada biləcəyi nəticələri aşkar etmək. Empatiya: Müəllim özünü şagirdin yerinə qoyub onun duyğularını, içində olduğu vəziyyəti qavramalı və ona görə davranmalıdır. Problemi həll etmə: Şəxslər arası konfliktlərin aradan qaldırılması prosesidir. Problemi həll etmə mərhələsində aşğıdakı metodlardan istifadə edilə bilər. 1. Dayanın və sakitləşin. 2. problemin nə olduğunu təyin edin. 3. Hədəfinizi müəyyən edin. 4. Problemin həlli üçün mümkün qədər çox həll yolları fikirləşin. 5. Hər bir həll yolunun necə nəticə verəcəyini düşünün. 6. Ən yaxşı həll yolunu tapın. 7. Seçdiyiniz yolun işə yaramaması halında işlədəcəyiniz əlavə bir həll yolu seçin. 8. Həll yolunu yaxşı planlayın və son dəfə nəzərdən keçirin. 9. Həll yolunu tətbiq edin. 10. Dəyərləndirin.